# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# NÖVBƏDƏNKƏNAR
# VII SESSİYASI İCLASININ

# PROTOKOLU № 75

*Milli Məclisin iclas salonu.*
*12 iyun 2026-cı il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 120 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 117 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Sahil Babayev**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Himalay Məmişov**, Azərbaycan Respublikası maliyyə nazirinin müavini.

**Asif Qasımov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyi Aparatı rəhbərinin müavini.

**Mais Piriyev**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin İctimaiyyətlə əlaqələr və vətəndaş müraciətləri ilə iş şöbəsinin müdiri.

**Elşad İsgəndərov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Büdcə şöbəsinin müdiri vəzifəsini icra edən.

**Azər Bayramov**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**Elşən Rəhimli**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin baş idarə rəisi.

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Faiq Orucov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Daxilolmalara nəzarət baş idarəsinin rəisi.

**Yusif Yusifov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Nəsir Sadıqov**, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini.

**Rəşad Həsənov**, Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini.

.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

2. "Gəmilərdə zərərli çirklənmə əleyhinə sistemlərə nəzarət haqqında beynəlxalq Konvensiya"ya qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi.

3. Azərbaycan Respublikasının Portuqaliya Respublikasında (Lissabon şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

4. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" və "Tənzimlənən qiymətlər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

5. "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

6. "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Göydəniz Qəhrəmanov, Hikmət Məmmədov, Əli Əhmədov, Bəhruz Məhərrəmov, Elman Nəsirov, Vüqar İskəndərov, Soltan Məmmədov, Vüqar Bayramov, Sahib Alıyev, Tural Gəncəliyev, Fəzail İbrahimli

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
| Lehinə | 119 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verməd | 1 |
| İştirak edir | 120 |
| Nəticə: Qəbul edildi | |

**1. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Sahil Babayev, Vüqar Gülməmmədov, Zahid Oruc, Əli Məsimli, Bəhruz Məhərrəmov, Tahir Mirkişili, Sadiq Qurbanov, Kamran Bayramov, Aydın Mirzəzadə, Rizvan Nəbiyev, Vüqar Bayramov, Hicran Hüseynova

**Təklif:** İclas fasiləsiz olsun

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**2. "Gəmilərdə zərərli çirklənmə əleyhinə sistemlərə nəzarət haqqında beynəlxalq Konvensiya"ya qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**3. Azərbaycan Respublikasının Portuqaliya Respublikasında (Lissabon şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov, Samir Vəliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" və "Tənzimlənən qiymətlər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Rövşən Muradov, Siyavuş Novruzov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**5. "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Polad Bülbüloğlu, Fatma Yıldırım

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**6. "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Sadiq Qurbanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.51 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**8. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Hicran Hüseynova, Əli Hüseynli, Azay Quliyev, Kamal Cəfərov, Fariz İsmayılzadə, Əminə Ağazadə, Elçin Mirzəbəyli, Musa Qasımlı

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.34 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Zahid Oruc, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.53 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

***MİLLİ MƏCLİSİN İCLASI***

*12 iyun 2026-cı il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 117 |
| Yetərsay | 83 |

Yetərsay var, biz iclasa başlayırıq.

Hörmətli həmkarlar, bizim iclasımız müstəqil Azərbaycanın taleyində dönüş yaratmış bir hadisənin ildönümü ərəfəsində keçirilir. İyunun 15-də xalqımız Milli Qurtuluş Gününü qeyd edəcək. Yaxşı bilirik ki, bu gün müasir tariximizdə müstəsna yer tutur.

Hörmətli deputatlar, 1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa etdikdən az sonra dövlətimiz parçalanmaq və məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Məhz belə bir dövrdə böyük siyasi və dövlət xadimi Heydər Əliyevin ali hakimiyyətə qayıtması tarixin gedişini dəyişdirməyə imkan verdi. Ümummilli Lider xalqımızın öz dəyərlərinə sadiqliyini, dövlətçiliyini qorumaq və gələcəyini müəyyən etmək əzmini real siyasi gücə çevirdi.

Heydər Əliyevin dövlət rəhbərliyinə qayıtması xalqın tarixi seçimi idi. Ulu Öndər zamanın çağırışlarına cavab vermək qabiliyyəti sayəsində müstəqil dövlətimizi qoruyub saxladı və möhkəmləndirdi. Azərbaycan davamlı inkişaf yoluna çıxdı və onun geosiyasi əhəmiyyəti artdı. Ölkəmiz qlobal miqyaslı iqtisadi layihələrin mərkəzinə çevrildi.

Hörmətli deputatlar, Ulu Öndərin həm sovet dövründə, həm də müstəqillik illərində fəaliyyətinin təhlili göstərir ki, müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyev dühasının məhsuludur. Eyni zamanda, o, bugünkü Azərbaycan parlamentinin də banisidir.

Hörmətli həmkarlar, ötən illər göstərdi ki, Ulu Öndərin yaratdığı milli dövlətçilik konsepsiyası böyük siyasi potensiala malik olmaqla yanaşı, həm də xalqın və dövlətin uzunmüddətli strateji maraqlarına əsaslanır. Heydər Əliyevin azərbaycançılıq və dövlətçilik ideyaları Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin fəaliyyətində ardıcıl inkişaf etdirilir.

Hörmətli deputatlar, bu gün biz keçdiyimiz yola nəzər salaraq, inamla söyləyə bilərik ki, 1993-cü ildə və sonrakı dövrdə Ulu Öndərin həyata keçirdiyi milli qurtuluş missiyası ilə müasir Azərbaycanın nailiyyətləri arasında birbaşa əlaqə var. Torpaqlarımızın otuz illik işğalına son qoyulması, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunması, Azərbaycanın nüfuzlu və güclü bir dövlətə çevrilməsi, hər il, hər ay müşahidə etdiyimiz digər uğurlar Heydər Əliyev siyasi xəttinin ardıcıl surətdə davam etdirilməsinin nəticəsidir.

Məhz buna görə də Milli Qurtuluş Günü təkcə tarixin bir anı deyil. Bu gün müstəqillik və dövlətçilik ideyalarının təntənəsidir. Gələcək nəsillər qarşısında məsuliyyət hissinin təcəssümüdür. Xalq ilə dövlətin birliyinin rəmzidir.

Hörmətli həmkarlar, Milli Qurtuluş Günü ərəfəsində biz Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini bir daha ehtiramla yad edirik. Əmin olduğumuzu bildiririk ki, möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bundan sonra da müstəqil inkişaf yollarında

inamla addımlayacaq. Heydər Əliyev zəkasından güc almış Azərbaycan dövləti qarşıdakı dövrdə yeni böyük uğurlara imza atacaqdır.

Hörmətli deputatlar, hörmətli qonaqlar, mən təklif edirəm ki, Milli Qurtuluş Günü münasibəti ilə dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq və Azərbaycan dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq. *(Alqışlar.)*

Hörmətli həmkarlar, hörmətli qonaqlar, bayram münasibəti ilə mən sizin hər birinizi ürəkdən təbrik edirəm və hamınıza möhkəm can sağlığı, firavanlıq və xoşbəxtlik arzulayıram. Bizi burada müşahidə edən jurnalistləri də ürəkdən təbrik edirəm.

İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz. Gündəlik sizin hamınıza paylanılıb. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 120 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, bizim 30 dəqiqəmiz var, gündəmdə, yaxud gündəlikdə olan məsələlərlə bağlı 10 nəfər çıxış edə bilər. Buyurun, yazılın. 3 dəqiqəlik reqlamenti də yadınıza salıram. Heç kimi 3 dəqiqəni keçməyə qoymayacağam.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc**. Hörmətli sədr, 15 iyun milli siyasi təqvimdə yalnız 1993-cü ilin hadisələri ilə bağlı deyil, çarizmdən Cümhuriyyətə, sovetlərdən müstəqilliyə qədər 100 ilin tarixləşən simvoludur.

1920-ci ildə demokratik respublika süquta uğradı. Lakin plan Azərbaycanı sovetləşdirməklə bitmirdi, həm də yad rəhbərləri xalqımıza hakim təyin etmək idi. Bolşeviklər hakimiyyətinin ilk 13 ilində respublikamıza başçılıq edən 11 nəfərdən yalnız ikisi etnik azərbaycanlı idi. Qalanları erməni, gürcü, yəhudi, ruslardı. 1926–1929-cu illərdə Levon Mirzoyan, daha sonra Ruben Rubenov respublikamıza rəhbər təyin edildi. Torpaqlarımıza iddiası olan bir xalqın nümayəndələrini gətirib bizə başçı qoyurdular. Nəhayət, yerli kadr Mircəfər Bağırov milli quruculuq və repressiyaları eyni qələmlə imzaladığına görə tarixdə ziddiyyətli şəxs kimi qaldı. İki əsr boyu, Azərbaycana ya çarizmin canişinləri, ya qırmızı komissarlar, ya da Moskvanın adamları başçılıq edirdilər. 1969-cu ildə ilk dəfə bir şəxsiyyət həm Azərbaycanın, həm də imperiyanın rəhbəri oldu. Əsl milli qurtuluş həmin tarixdən başlanır.

Atatürkdən fərqli olaraq Ulu Öndər 600 illik tarixi miras üzərində deyil, totalitar sistemin içindən xalqını gələcək müstəqilliyə hazırlayaraq dövlət qurdu. Heydər Əliyevin Kremldən Bakıya, oradan Naxçıvana, nəhayət, 1993-cü ildə hakimiyyətə qayıdışı zəfərimizin təməllərinin qoyulduğu böyük qayıdış hadisəsidir. 1990-cı illərdə bir yazıçı parlament tribunasından "Qarabağ heç vaxt indiki qədər bizim olmayıb" demişdi. Halbuki Qarabağ yalnız indi, təkcə işğaldan deyil, həm də milli dövlətçiliyimiz üçün iki əsrlik minaya çevrilməsinə son qoyulandan sonra, həqiqətən də, heç vaxt indiki qədər bizim olmayıb.

Bəli, erməni məsələsi Azərbaycan coğrafiyasından kənara çıxarılıb. Lakin təkcə azad Qarabağ deyil, həm də Azərbaycan heç vaxt indiki qədər

azərbaycanlıların olmayıb. Bakı da, neftin də, torpaqların da, bayrağın da, bir sözlə, müstəqil dövlətin sahibi məhz xalqımızdır. Azadlıq təkcə sovetlərdən xilas, yaxud 1993-cü ilin xaosundan qurtulmaq deyil, əsl milli qurtuluş iki əsrlik savaşın qalibi olmaqdır. Prezident torpaqlarımızın azadlığından danışanda “mənim dövrümdə yetişən vətənpərvər gənclik” sözlərini qürurla vurğulayır. Həqiqətdir. Lakin tarixi ədalətlə baxsaq, 1990-cı illərdə Ermənistanın təcavüzünə qarşı vuruşan oğullar da məhz Heydər Əliyevin Sovet Azərbaycanında formalaşdırdığı nəsildir. Onlar məğlub olmadılar, uduzan rəhbərlər idi. Hər iki Qarabağ müharibəsi mahiyyətcə vahid bir savaş idi. Birincisi yarımçıq qalmışdı, çünki Ali Baş Komandansız idi. İkincisi İlham Əliyevin rəhbərliyi ilə qalibiyyətlə başa çatdı. Hər iki nəslin birgə iradəsindən qələbə bayrağı ucaldı.

Biz qurtuluşdan Zəfərə gələrək məğlubiyyət və işğala son qoyduq. İmperiya paytaxtlarından idarə olunmaqdan, daimi torpaq itkilərindən, ömürlük köçkünlükdən əbədi xilas olduq.

Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Göydəniz Qəhrəmanov.  Buyurun.

**Göydəniz Qəhrəmanov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. Bir neçə gündən sonra xalqımız müasir tariximizin ən mühüm və taleyüklü hadisələrindən biri olan 15 İyun – Milli Qurtuluş Gününü qeyd edəcəkdir. Bu əlamətdar tarix Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması, müstəqilliyimizin möhkəmləndirilməsi və ölkəmizin gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıyır.

1993-cü ilin iyun ayında Azərbaycan ağır siyasi, iqtisadi və hərbi böhranla üz-üzə idi. Ölkədə hakimiyyət böhranı hökm sürür, vətəndaş

qarşıdurması getdikcə dərinləşir, Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımız işğal olunurdu. Dövlət müstəqilliyimizin itirilməsi real təhlükəyə çevrilmişdi.

Belə mürəkkəb bir dövrdə xalqımızın təkidi ilə Ulu Öndərin yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdi. 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi ölkəmizin tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Məhz həmin gündən etibarən dövlət quruculuğu prosesi sistemli xarakter aldı, ictimai-siyasi sabitlik təmin edildi və Azərbaycanın inkişaf strategiyasının əsasları formalaşdırıldı.

Bu gün qürurla qeyd edə bilərik ki, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Nəticədə ölkəmiz regionun aparıcı siyasi və iqtisadi güc mərkəzinə çevrilmiş, beynəlxalq aləmdə nüfuzu əhəmiyyətli dərəcədə artmışdır.

Ən böyük tarixi nailiyyətimiz isə, Prezident, müzəffər Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin tam bərpa edilməsidir. Cənab Prezident çıxışında qeyd etdiyi kimi, “ata vəsiyyəti yerinə yetirilmişdir”.

Bu gün Milli Qurtuluş Gününü qeyd edərkən bir daha əminliklə deyə bilərik ki, 15 iyun təkcə tarixi hadisə deyil, həm də Azərbaycan dövlətçiliyinin xilası, inkişafı və gələcəyinin təmin olunmasının simvoludur.

Milli Qurtuluş Günümüz mübarək olsun! Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Qurtuluş bayramı münasibəti ilə hər birinizi ürəkdən təbrik edirəm. Mən düşünürəm ki, əgər biz bu günün zirvəsindən dönüb 33 il bundan əvvəl baş verən hadisələrə qayıtsaq, görəcəyik ki, bu gün qurur duyduğumuz Qarabağı azad etməyimizin tarixi də məhz 15 iyun 1993-cü ildən başlayır. Əslində, 1993-cü il iyun ayının 15-də baş verən hadisələr Azərbaycan milli dövlətçiliyinin xilası idi. Bu tarixin dövlətçilik tariximizdə nə qədər böyük əhəmiyyəti varsa, bir o qədər də ictimai-siyasi kontekstdə və ictimai düşüncə tərzində, siyasi şüur kontekstində böyük fəlsəfəsi var.

Qurtuluş gününün fəlsəfəsi üç mühüm ideyadan qaynaqlanırdı.

Birincisi, dövləti xilas etmək, dövləti qurtarmaq.

İkincisi, milli həmrəyliyi təmin etmək.

Üçüncüsü, ictimai-siyasi sabitliyi təmin etmək.

Bu üç paradiqmal ideya tarixin bütün dövrlərində, dünən də bu gündə və gələcəkdə də aktual olacaq ideya və fəlsəfə düşüncə tərzidir. Yəni bir millətin dövlət qurmaq qabiliyyətinin və istedadının göstəricisidir. Amma sosiologiya bütün bu şərtlər varkən belə, onların həyata keçirilməsi üçün lider axtarır. Yəni milli həmrəylik də ola bilər, milli düşüncə də ola bilər, amma onu təmin edən lider yoxdursa, demək, bu xalqın siyasi təşkilatlanması dövlətə çevrilə bilmir. Əslində, biz 1993-cü ildə iyun ayının 15-də XXI əsrdə Azərbaycan Prezidentinin qeyd etdiyi “Azərbaycan xalqı dövlət qurmaq istedadına malikdir” fikirlərinin təzahürünü gördük. Beləliklə, ideyaları tərsinə sıralasaq, birincisi, sabitliyi təmin etdik, ikincisi, milli düşüncəni və milli həmrəyliyi təyin etdik, üçüncüsü, onun üzərində dövlət qurmağı bacardıq. Ona görə, mən düşünürəm ki, hörmətli xanım sədr, burada da Sizin təşəbbüsünüzlə biz də bu gün çox haqlı olaraq müraciət qəbul etdik. Məsələnin mahiyyəti ondadır ki, qurtuluş fəlsəfəsini biz yeni

nəslə ötürməliyik. Çoxsaylı tədbirlər, müzakirələr keçirilir, çünki bu, həmişə aktual olacaqdır.

Ona görə də, mən düşünürəm ki, əlbəttə, bu, dərsliklərdə öz əksini tapmalıdır, öyrənilməlidir və hər bir azərbaycanlının milli şüurunun təməllərinə oturmalıdır. Hər hansı bir ideyanın mentalitetə çevrilməsi üçün üç generasiya lazımdır. Əgər bir nəsil 33 ildirsə, demək, 100 ildən sonra bu, bir mental keyfiyyətə, mental xüsusiyyətə çevrilir. Ona görə də biz qurtuluş fəlsəfəsini daim təbliğ etməli, onun mentalitetimizin bir parçasına çevrilməsi üçün əlimizdən gələni etməliyik.

Bayramımız mübarək olsun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli Əli müəllim söz istəmişdi. Əli Əhmədov. Buyurun.

**Əli Əhmədov.** Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli millət vəkilləri, hörmətli mətbuat nümayəndələri. Mən də burada səsləndirilən təbriklərə qoşularaq bütün Azərbaycan xalqını Heydər Əliyevin möhtəşəm tarixi qayıdışını özündə ehtiva edən qurtuluş bayramı münasibəti ilə təbrik etmək, qurtuluş məfkurəsinin və hadisəsinin üç ölçüsünü ayrıca vurğulamaq istəyərdim.

Bunun birincisi Heydər Əliyevin möhtəşəm qayıdışını özündə ehtiva edir və təbii idi ki, yenicə müstəqilliyinə qovuşmuş Azərbaycanın Heydər Əliyev tarixi şəxsiyyəti ilə birləşməsi, hesab edirəm, o zamankı Azərbaycanın yenicə qazanılmış dövlət müstəqilliyini qoruyub saxlamağının ən möhtəşəm və ən həlledici məqamlarından biri idi. Buna görə də Azərbaycan xalqı qurtuluş məfkurəsini və qurtuluş hadisəsini müasir Azərbaycan tarixinin ən əhəmiyyətli hadisələrindən biri kimi qeyd edir.

İkinci ölçü, təbii ki, Azərbaycanın 1990-cı illərin əvvəllərində düşdüyü təlatümlü haldan Heydər Əliyevin həm müdrikliyi, həm də iradəsi sayəsində qurtulması ilə əlaqədardır. Yəqin hamımız birmənalı şəkildə etiraf edirik ki, Heydər Əliyevin tarixi qayıdışı olmasa idi, Azərbaycanın müasir tarixi tamamilə başqa bir istiqamətdə cərəyan edərdi və bizim indi malik olduğumuz nailiyyətlər yəqin tamamilə başqa bir formada reallığa çevrilmiş olardı.

Nəhayət, qeyd etmək istədiyim üçüncü məqam, ölçü ondan ibarətdir ki, qurtuluş hadisəsi və qurtuluş məfkurəsi təkcə Azərbaycanın keçmişi deyil, eyni zamanda, Azərbaycanın həm bu günü, həm də gələcəyidir.

Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, bizim əldə etdiyimiz nailiyyətlərin hər biri Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyaya uyğun şəkildə həyata keçirilən siyasət nəticəsində əldə olunubdur. Bu mənada, artıq burada qeyd edildiyi kimi, Azərbaycanın möhtəşəm tarixi qələbəsi, Qarabağın işğaldan azad olunması da mahiyyət etibarı ilə özünün başlanğıcını Heydər Əliyevin tarixi qayıdışından götürür.

Bu mənada Azərbaycan xalqı əmindir ki, qurtuluş məfkurəsi bundan sonra da Azərbaycan xalqına xidmət edəcək, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın əldə edəcəyi bütün nailiyyətlərdə bu və ya digər dərəcədə qurtuluş məfkurəsinin elementləri özünü aydın şəkildə nümayiş etdirəcəkdir.

Mən bir daha qurtuluş bayramı münasibəti ilə hər birimizi təbrik edirəm. Mübarək olsun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Növbəti çıxış, Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Sağ olun. Hörmətli sədr, əziz həmkarlar. Azərbaycanın müasir dövlətçilik tarixinin ən mühüm dönüş nöqtəsi, Milli

Qurtuluş Günü münasibəti ilə xalqımızı ürəkdən təbrik edir, Ulu Öndər ideyalarına söykənən müstəqilliyimizin əbədi, inkişafımızın dönməz olmasını arzulayırıq. Heç şübhəsiz ki, 1993-cü ildə Ulu Öndərin Azərbaycan rəhbərliyinə qayıtması, sadəcə, hakimiyyət dəyişikliyi deyil, dövlətin süqutdan, xaosdan və parçalanmaqdan xilası olmaqla real müstəqilik mübarizəmizin şərəfli səhifəsidir.

Bilirsiniz, biz nə Çar Rusiyasını dağıtmamışıq, nə də meydanlarda SSRİ-ni. Ulu Öndərin dediyi kimi, həm 1918-ci ildə, həm də 1991-ci ildə imperiyaların dağılması xalqlara tarixin əvəzolunmaz hədiyyəsi olub.

Təbii ki, iki illik Cümhuriyyət dövründə ifadə olunan niyyət, görülən işlər dövlətçilik ənənələrimizdə mühüm bir səhifə kimi qalacaq. Amma unutmamalıyıq ki, 1918-ci ildə İrəvan şəhərinin xəyanətkarcasına güzəştə gedilməsi belə bizi formal müstəqillikdən o yana aparmadı.

Eyni qaydada da 1991-ci ildə tarixin təbii axarının nəticəsində müstəqillik imkanından o zaman nə o dövrkü iqtidar, nə də hakimiyyəti faktiki zəbt etmiş Xalq Cəbhəsi yararlana bilmədi. Xüsusən də milli xəyanət üzərində iqtidarı zəbt etmiş AXC–Müsavat ünsürlərinin səbatsız, səriştəsiz və ucuz populizmə əsaslanan hakimiyyəti dövründə Azərbaycan həm xarici təcavüz, həm də daxili idarəolunmazlıq səbəbindən bir “failed state” dövlətinə çevrilib, idarəetmə aparatı iflic olunmuşdu, hüququn aliliyi prinsipi tamamilə pozulmuşdu.

Lakin Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə Bakıya qayıdaraq Ali Sovetin sədri seçilməsi ilə ölkədəki legitimlik böhranına, qanunsuz silahlı birləşmələrin dövlətə qarşı şantaj siyasətinə son qoyuldu, vətəndaş müharibəsi və parçalanma təhlükəsi dəf edildi.

Hüquqi nöqteyi-nəzərdən, 1991-ci il tarixli Müstəqillik haqqında Konstitusiya Aktında, – bu akt mühüm sənəd olsa da, – dövlət iqtisadi, hərbi

və siyasi əsasları olmayan suverenliyini Ulu Öndərin qayıdışına qədər real mexanizmlərlə təmin edə bilmədiyi üçün 15 iyun həm də real müstəqilliyə doğru dönüş həmləsi sayılmalıdır. Daha dəqiq desək, dövlət suverenliyinin daxili və xarici elementləri məhz Milli Qurtuluş Günü ilə başlayan yeni mərhələdə formalaşdı. Cənab İlham Əliyev isə məhz Ulu Öndərin siyasi kursunu uğurla davam etdirərək, ölkəmizin hərtərəfli müstəqilliyi və suverenliyini tam bərqərar edərək Azərbaycanı son onilliklərdə mütləq hərbi-siyasi zəfər qazanan qüdrətli orta gücə çevirdi.

Bu gün cənab İlham Əliyevin müzəffər liderliyində təhlükəsizlik adasına çevrilmiş qalib Azərbaycan müstəqildir, suverendir. İndi isə tariximizin, xüsusən də zəbt olunmuş idealların antimilli təfəkkürün işğalından xilası vacibdir. Dövlətçilik, müstəqillik, suverenlik siyasi alver predmeti deyil. 1965-ci il martın 5-dən etibarən Ulu Öndər Heydər Əliyevin əvvəlcə xüsusi xidmət orqanının, daha sonra isə ölkənin rəhbəri olaraq istiqlal ideyalarını himayə etməklə yol açdığı Azərbaycanın müstəqillik yolu, 1993-cü ildən isə xilas etdiyi dövlətçilik tarixi heç bir marginal qrupun öz adına çıxa biləcəyi subyektiv bir qənimət olmamalıdır.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Elman Nəsirov. Buyurun.

**Elman Nəsirov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, dəyərli media nümayəndələri. Ulu Öndər Heydər Əliyev 1990-cı il iyul ayının 20-də Moskvadan Bakıya qayıtdı. O zamankı hakimiyyət cəmisi 2 gün dözə bildi ki, Ulu Öndər Heydər Əliyev Bakıda qalsın və 22 iyulda Naxçıvana döndü. Naxçıvanda xalqımız Ulu Öndərə qucaq açdı. Çünki elə bir şəxsiyyətin tarixi qayıdışı baş vermişdi ki, o 1990-cı ildə xalq yiyəsiz, başsız, sahibsiz

qalanda ona sahiblik etmişdi və 20 Yanvar faciəsini bütün dünyaya çatdırmışdı. Bu faciənin qurbanlarına elə hökm də oxumuşdu.

Bu gün tam məsuliyyəti ilə bunu söyləmək olar ki, əgər Ulu Öndər Heydər Əliyevin 1990-cı ilin iyul ayında və 1991-ci ilin sentyabr ayında Naxçıvanda hakimiyyətə gəlişi təmin edilməsə idi, belə olan vəziyyətdə biz sonralar yəqin, torpaqlarımızın işğal altında olması ilə bağlı faktı dilimizə gətirərkən başqa bir acı həqiqət də söyləmiş olardıq. Deyərdik ki, ərazimizin 20 faizi işğal altındadır, 20 faizi deyil, daha çoxunun işğal altında olacağını deyəcəkdik. Bir az da açıq desəm, deyəcəkdik ki, Dağlıq Qarabağ ətrafındakı 7 rayon və Naxçıvan işğal altındadır. Bircə Heydər Əliyevin Naxçıvanda hakimiyyətə gəlişi imkan vermədi ki, ermənilər Naxçıvanı işğal etsin. Halbuki Naxçıvanı işğal etmək digər ərazilərimizi işğal etməkdan qat-qat asan idi. Çünki Ermənistanla sərhəddə idi. Təkcə Heydər Əliyev fenomeni bu faciənin qarşısını aldı və eyni məntiqlə söyləyərdim ki, əgər Ulu Öndər Heydər Əliyev 1990–1991-ci illərin reallığında Azərbaycanda hakimiyyətə gəlsə idi, o halda nə torpaqlarımız işğal altına düşəcəkdi, nə Xocalı faciəsini yaşayacaqdıq, nə də vətəndaş müharibəsi təhlükəsi olacaqdı və Azərbaycanın daha böyük, daha möhtəşəm inkişafı təmin ediləcəkdi.

Sözlərimin təsdiqi kimi onu qeyd edim ki, 1997-ci ilin iyul-avqust aylarında Ulu Öndər Heydər Əliyevin Birləşmiş Ştatlara 10 günlük ilk rəsmi səfəri oldu və bu səfər zamanı Hyuston şəhərinin meri Ulu Öndərə ABŞ-nin 16-cı prezidenti Avraam Linkolnun büstünü bağışladı. O şəxsin ki, amerikalılar ömürləri boyu minnətdarlıq edirlər və söyləyirlər ki, əgər Avraam Linkoln olmasa idi, bugünkü bütöv Birləşmiş Ştatlar, bugünkü fövqəldövlət olmazdı. Yəni parçalanmış, iki hissəyə bölünmüş bir Birləşmiş Ştatlar olardı. Avraam Linkoln ABŞ-nin bütövlüyünü qoruyub saxladı və

eyni məntiqlə söyləmiş olurlar ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanın bütövlüyünü qoruyub saxladı, onun parçalanmasının qarşısını aldı və Azərbaycanda vətəndaş müharibəsinə son qoydu. Xalqımız həm də Ulu Öndərə ona görə minnətdardır ki, o özündən sonra İlham Əliyev kimi böyük bir şəxsiyyəti ....

**Sədrlik edən.** Sağ olun.

Vüqar İskəndərov.

**Vüqar İskəndərov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media mənsubları. 1993-cü ilin iyun ayı Azərbaycanın varlığı ilə yoxluğu arasında incə bir cizgi idi. Ölkə daxili xaos, vətəndaş qarşıdurması, separatçılıq meylləri və Ermənistanın hərbi təcavüzü nəticəsində parçalanmaq və müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. İdarəetmədəki səriştəsizlik dövlət institutlarının tamamını iflic etmişdi. Məhz belə bir taleyüklü məqamda xalqımızın təkidli tələbi və böyük inamı ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı real məhvdən xilas etdi.

İyunun 15-də dahi şəxsiyyətin Ali Sovetin sədri seçilməsi ilə ölkəmizdə qurtuluş fəlsəfəsinin və milli birliyin təməli qoyuldu. Ümummilli Lider öz siyasi dühası, zəngin dövlətçilik təcrübəsi və sarsılmaz qətiyyəti ilə qısa müddətdə ölkədə daxili sabitliyi bərpa etdi, qanunsuz silahlı qruplaşmaları zərərsizləşdirdi və nizami ordunun qurulmasına nail oldu. “Əsrin müqaviləsi” ilə iqtisadi müstəqilliyimizin, ardınca isə hüquqi dövlətin sütunları ucaldıldı. Qurtuluşdan Zəfərə doğru uzanan bu yol bizi çox böyük uğurlara aparmış oldu. Azərbaycanda biz hazırda qüdrətli bir ölkədə yaşayırıq. Ulu Öndərin uzaqgörənliklə əsasını qoyduğu müstəqillik strategiyası məhz son 20 ildən artıq dövrdə müzəffər Ali Baş Komandamız cənab İlham Əliyev tərəfindən misilsiz uğurlarla davam etdirildi.

Milli Qurtuluş Gününün bizə qazandırdığı ən böyük strateji hədəf respublikamızın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası oldu. 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri ilə şanlı ordumuz tarixi qələbəmizi bərpa etdi və bizi dünyanın ən qürurlu xalqına çevirdi. Bu gün Ümummilli Liderin ruhu şaddır, çünki onun ən böyük vəsiyyəti yerinə yetirilib. Qarabağ və Şərqi Zəngəzur azaddır. Xankəndidə, Şuşada, Xocalıda və digər qədim torpaqlarımızda Azərbaycanın üçrəngli bayrağı ucaldılır.

Mən də, hörmətli xanım sədr, Siz başda olmaqla bütün parlament üzvlərimizi və xalqımızı bu böyük bayram münasibəti ilə ürəkdən təbrik edirəm. Diqqətiniz üçün çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Soltan Məmmədov.

**Soltan Məmmədov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. Azərbaycan Respublikasının xarici siyasəti ikitərəfli mədəni əlaqələr çərçivəsini aşaraq qlobal miqyasda sülhün və qarşılıqlı anlaşmanın təşviqinə xidmət edən ardıcıl və sistemli dövlət strategiyası kimi formalaşmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş bu strategiya mədəniyyətlərarası dialoqun genişləndirilməsinə və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsinə yönəlmişdir. Bu siyasətin icrasında Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsləri mühüm rol oynayır.

Aparılan strateji xəttin real nəticələri son dövrlərdə həyata keçirilmiş bir sıra beynəlxalq tədbirlərdə özünü aydın şəkildə göstərir. Aprel ayının 30-da Vatikanda Heydər Əliyev Fondu ilə birgə həyata keçirilən layihələrin təqdimatı bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Tədbir çərçivəsində fond

tərəfindən Vatikanda 15 il ərzində həyata keçirilən layihələri özündə əks etdirən “Mədəniyyətlər körpüsü” nəşri, sənədli film və “Səmavi dinlər” layihəsi əsasında hazırlanmış xalça kompozisiyası nümayiş olunmuşdur.

Təqdim olunan kitabın ilk nüsxəsi 2025-ci ilin oktyabrında fondun prezidenti hörmətli Mehriban xanım Əliyevanın Vatikana səfəri çərçivəsində Roma Papası XIV Leo ilə görüşdə təqdim edilmişdir.

Bu təqdimatlar Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında formalaşmış əməkdaşlıq və etimadın davamı kimi qiymətləndirilir və dinlərarası dialoqa mühüm töhfə verir. Heydər Əliyev Fondu tərəfindən Vatikan Apostol Kitabxanası və Vatikan Apostol Arxivində Azərbaycan tarixi haqqında əlyazmaların tapılaraq rəqəmsallaşdırılması böyük önəm daşıyır.

Daha bir vacib tədbir isə, ICESCO-nun Mərakeşdə yerləşən baş qərargahında keçirilmiş “Natəvan Mədəni İrs Mükafatı”nın ilk təqdimat mərasimidir. Azərbaycanın mədəni diplomatiya sahəsində mühüm təşəbbüsü kimi 2025-ci ildə təsis olunan və Xurşudbanu Natəvanın adını daşıyan bu mükafat maddi-mədəni irsin qorunması sahəsində qabaqcıl təcrübələrin təşviqinə xidmət edir.

“Natəvan Mədəni İrs Mükafatı” Azərbaycanın milli dəyərlərə bağlılığını, humanizm və multikulturalizm prinsiplərinə sadiqliyini nümayiş etdirir. Heydər Əliyev Fondu və ICESCO tərəfindən təqdim edilən bu mükafat həm Xurşudbanu Natəvana ehtiramın ifadəsidir, həm də Qarabağın zəngin mədəni irsinin beynəlxalq səviyyədə təbliğinə də töhfə verir.

Nəticə etibarı ilə, həm Vatikanla həyata keçirilən layihələr, həm də ICESCO ilə birgə təsis olunmuş “Natəvan Mədəni İrs Mükafatı” Azərbaycanın beynəlxalq müstəvidə sülhün təşviqi və ümumbəşəri dəyərlərin qorunması istiqamətində ardıcıl siyasətinin parlaq nümunələri

olmaqla son vaxtlar ölkəmizə qarşı səslənən əsassız iddialara layiqli cavabdır.

Sonda fürsətdən istifadə edərək, xanım sədr, mən də hər birinizi Milli Qurtuluş Günü münasibəti ilə təbrik etmək istərdim.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar. Ulu Öndərin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatında və eləcə də cəmiyyətin bütün sferalarında bir dönüş yarandı. Ümummilli Liderin siyasi uzaqgörənliyi nəticəsində ictimai-siyasi həyatda stabilliyin əldə edilməsi ilə yanaşı, eyni zamanda, iqtisadi islahatların dərinləşməsi ilə bağlı tədbirlər genişləndirildi. Qısa zamanda iqtisadiyyatdakı tənəzzülün aradan qaldırılması və stabilləşmə, daha sonra isə inkişaf dövrünə qədəm qoyuldu.

Nəzərə alsaq ki, 1992 və 1993-cü illərin birinci yarısında AXC–Müsavat qrupunun yaratmaz idarəetməsi nəticəsində ölkə iqtisadi baxımdan ciddi tənəzzüllə üz-üzə qalmışdı. Yalnız 1993-cü ildə Azərbaycanda ÜDM 50 faizə yaxın azalmışdı, eyni zamanda, istehlak bazarında qiymət artımları dəfələrlə ifadə olunurdu. Ümummilli Liderin hakimiyyətə qayıtması ilk mərhələdə tənəzzülün aradan qaldırılmasına və islahatların dərinləşməsinə zəmin yaratdı. Azərbaycan MDB-də torpaq islahatları aparan ilk dövlət oldu.

Eyni zamanda, 1994-cü ildə "Əsrin müqaviləsi"nin bağlanması və növbəti dövrlərdə Azərbaycan iqtisadiyyatı üçün vacib olan enerji strategiyasının müəyyənləşməsi və enerji strategiyası nəticəsində

Azərbaycanda yalnız enerji sektorunun deyil, eyni zamanda, qeyri-neft sektorunun inkişafı üçün bir zəmin yaratdı.

Təbii ki, iqtisadiyyatda aparılan islahatlar artıq 1995-ci ildən etibarən inkişafın əldə edilməsinə, növbəti mərhələdə isə bu inkişafın davam etdirilməsinə imkan yaratdı. Cənab Prezidentin hakimiyyətə gəlməsi bu siyasətin davam etdirilməsinə və ötən müddətdə praktik olan Azərbaycan iqtisadiyyatının ciddi şəkildə böyüməsinə gətirib çıxartdı.

Yalnız son 23 il ərzində Azərbaycan iqtisadiyyatı dörd dəfədən çox artıb. Eyni zamanda, son 23 il ərzində Azərbaycanda bu gün bizim müzakirə etdiyimiz dövlət büdcəsinin gəlirlərində təxminən 30 dəfə, eyni zamanda, icmal büdcənin gəlirlərində isə 15 dəfə artım qeyd alınıb. Əslində, bu artımlar bir daha təsdiq edir ki, məhz Ulu Öndər tərəfindən əsası qoyulan iqtisadi siyasət daha sonra cənab Prezidentin rəhbərliyi ilə uğurla davam etdirildi. Xüsusən nəzərə alsaq ki, həmin dövrlə müqayisədə Azərbaycanın valyuta ehtiyatları 2 milyard dollardan 90 milyard dollara qədər yüksəlib və bu gün Azərbaycan valyuta ehtiyatlarının ÜDM-dəki payına görə, bütövlükdə, dünyada ən yaxşı göstəriciyə malik olan ölkələrdən biridir.

Eyni zamanda, təbii, mən Qarabağdan olan millət vəkili olaraq xüsusi ilə qeyd etmək istərdim ki, bu gün ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa edən, Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad edən gənclər Ulu Öndər Heydər Əliyev məktəbinin və Prezident İlham Əliyev idarəçiliyinin yetirmələridir. Bu gün Azərbaycanın suverenliyinin tam bərpasının banisi Ulu Öndərimizdir, qələbəni, Zəfəri bizə yaşadan müzəffər Ali Baş Komandanımız və şanlı ordumuzdur.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Milli Qurtuluş Günü təkcə xalqımızın xaosdan, üzləşdiyi faciə azmış kimi, öz içindəki savaşdan xilas edilməyə başladığının, Azərbaycan dövlətinin himinin qoyulduğunun və de-fakto, həm də Türkiyə ilə Azərbaycan qardaşlığının, belə demək mümkünsə, Şuşa Bəyannaməsi ilə instutlaşdırmağa başladığı müttəfiqliyinin, türk dünyasının, cənab Prezidentin təbirincə desək, qlobal miqyasda geosiyasi güc mərkəzlərindən birinə çevrilməsinin yolunun açıldığı gündür.

Eyni zamanda, biz dönüb arxaya baxanda görürük ki, bu gün təkcə Azərbaycana, azərbaycanlılara müstəqil dövlətin nə demək olduğunun qürurunu yaşatmadı. Məhz bu gün Ulu Öndərin siyasəti nəticəsində Azərbaycan digər ölkələrin də, həm qonşu ölkələrin, həm də hətta qonşu olmayan ölkələrin, ilk növbədə də türk dünyasındakı ölkələrin müttəfiqlik, müstəqillik potensiallarının artmasına son dərəcə önəmli töhfə vermiş oldu.

Biz qurtuluş gününün nə demək olduğunu ötən bazar Ermənistanda keçirilən seçkidə də açıq-aydın gördük. Bir sıra güclər, açıq şəkildə Ermənistan üzərində çarpışdıqlarını ortaya qoyduqları təqdirdə, o seçki kampaniyası zamanı seçkinin özünün gündəmini məyyənləşdirən də Azərbaycan idi, Azərbaycan Prezidenti cənab İlham Əliyevin yeritdiyi siyasət idi. Ən çox, Ermənistanın özündən daha çox kampaniyada adı hallandırılan dövlət də Azərbaycan idi, o geosiyasi güclər deyildi. Mən bu fikirdəyəm ki, seçkinin nəticəsini müəyyənləşdirən də Azərbaycanın bu regionda yaratdığı geosiyasi reallıq idi. Biz Ermənistanı dəyişdirdik, amma mental baxımdan dəyişib-dəyişməyəcəklərini onlar özləri sülh gündəliyinə sədaqətli olub-olmamaları ilə və əvvəlki funksiyanı yerinə yetirib-

yetirməyəcəkləri ilə, yəni geosiyasi alət olub-olmayacaqları ilə ortaya qoymalıdırlar.

Gözləyirik, bütün ssenarilərə hazırıq. Sonda demək istəyirəm ki, Tanrı Azərbaycanı və regionumuzu, onu təhdid edənlərdən, eyni zamanda, təhdid edənlərdən qoruduqlarını deyənlərdən qorusun. Milli Qurtuluş Gününüz mübarək olsun.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Sahib müəllim.

Tural Gəncəliyev. Buyurun.

**Tural Gəncəliyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. 15 iyun Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin tarixində xüsusi yer tutan əlamətdar günlərdən biridir. Məhz bu tarix ölkəmizdə siyasi sabitliyin bərpasının, dövlətçilik ənənələrinin möhkəmləndirilməsinin və Azərbaycanın davamlı inkişaf yoluna qədəm qoymasının başlanğıcı kimi qiymətləndirilir.

1990-cı illərin əvvəllərində səriştəsiz AXC–Müsavat hakimiyyətinin idarəçiliyi nəticəsində Azərbaycan ciddi siyasi, iqtisadi və hərbi böhranla üzləşmişdi. Həmin dövrdə ölkədə hökm sürən idarəetmə böhranı, daxili siyasi qarşıdurmalar və dövlət institutlarının zəifləməsi Azərbaycanı dərin qeyri-sabitlik mühitinə sürükləmişdi. Yaranmış mürəkkəb vəziyyət ölkənin ərazi bütövlüyü və dövlət müstəqilliyi üçün də ciddi təhdidlər formalaşdırmış, Azərbaycan faktiki olaraq ekzistensial mövcudluq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir mürəkkəb tarixi mərhələdə 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıdaraq ölkəni parçalanma və vətəndaş qarşıdurması təhlükəsindən xilas etdi, müasir Azərbaycan dövlətinin möhkəm təməlini yaratdı.

Məhz həmin siyasi kursun davamı olaraq Azərbaycan sonrakı illərdə böyük inkişaf yolu keçmiş, güclü iqtisadiyyat, müasir ordu və nüfuzlu xarici siyasət formalaşdırmışdır. Bu siyasətin nəticəsi olaraq Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş, regionda, həmkarlarımın dediyi kimi, yeni reallıqlar yaratmışdır. Təsadüfi deyil ki, Azərbaycan–Türkiyə qardaşlığının yeni mərhələsini müəyyən edən Şuşa Bəyannaməsi də məhz 15 iyun Milli Qurtuluş Günündə imzalanmışdır. Bu tarixi sənəd Azərbaycanın dövlətçilik ənənələrinin, müstəqil siyasətinin və strateji vizyonunun məntiqi nəticəsi idi.

Sənədin Şuşa şəhərində imzalanması da xüsusi rəmzi məna daşıyır. Qarabağın incisi hesab olunan Şuşa Azərbaycanın tarixi, mədəni və siyasi iradəsinin simvolu olmaqla yanaşı, Vətən müharibəsində qazanılmış Zəfərimizin ən mühüm rəmzlərindən biridir. Buna görə də bəyannamənin məhz Şuşada imzalanması Azərbaycan–Türkiyə qardaşlığının və strateji müttəfiqliyinin gücünü nümayiş etdirən mühüm mesaj kimi qiymətləndirilməlidir.

Bu gün cənab Prezident tərəfindən uğurla davam etdirilən siyasi kursumuz ölkəmizin beynəlxalq mövqeyinin daha da möhkəmləndirilməsinə, milli maraqların qətiyyətlə təmin olunmasına və regionda söz sahibinə çevrilməsinə xidmət edir. Azərbaycanın əldə etdiyi uğurlar həyata keçirilən irimiqyaslı layihələr və xarici siyasətdə qazanılan nailiyyətlər bu kursun düzgünlüyünü bir daha təsdiq edir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Mən görürəm, hörmətli Fəzail müəllim yazılıb. Fəzail müəllim, sualınız, təklifiniz? Buyurun.

**Fəzail İbrahimli**. Təşəkkür edirəm, Sahibə xanım. Mən hesab edirəm ki, çıxışlarımızda müəyyən məqamlar var, biz çox diqqətli olmalıyıq. Hər sözümüzdə, düşüncəmizdə kifayət qədər diqqətli olmalıyıq. Azərbaycan heç bir dövlətin daxili işlərinə qarışmır, seçkisinə müdaxilə etmir, seçki gündəliyini müəyyən etmir. Ona görə də Azərbaycan bütün dövlətlərlə qarşılıqlı anlaşma şəraitində, dostluq və mehriban münasibətlər müstəvisində rəftar edir.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Bəli, mən də düşünürəm ki, Fəzail müəllim, Siz tamamilə düz deyirsiniz. Bizim ölkəmizdə cənab Prezidentin rəhbərliyi ilə aparılan xarici siyasət elə bunun təsdiqidir. Mən düşünürəm ki, burada çıxışlarda elə həmin o tezis səslənmişdi. Çox sağ olun.

Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm və biz gündəliyin məsələlərinə keçirik. Bu gün biz 10 məsələni müzakirə etməliyik. Gündəliyin 1-ci məsələsi Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsidir. Məsələ ilə əlaqədar bizim hörmətli hökumət üzvlərimiz, Hesablama Palatasının rəhbərləri və digər vəzifəli şəxslər buradadırlar. Mən bir daha bizim qonaqlarımızı salamlayıram.

Hörmətli deputatlar, qeyd edim ki, qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim edilir. Odur ki, mən hamıdan xahiş, həm də tələb edirəm ki, birinci oxunuşun tələblərini nəzərə alasınız.

Bildiyiniz kimi, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Geniş bir müzakirə olmuşdu, üç saatdan bəlkə bir az da çox iclas keçirilmişdi. Bu gün məsələyə dair məlumat vermək üçün mən indi komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Həmişə olduğu kimi, komitə sədrinə söz veririk. Azər müəllim, buyurun, kürsüyə.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hökumət üzvləri, dəyərli media nümayəndələri. “Büdcə sistemi haqqında” Qanuna uyğun olaraq, Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsi və icraya dair illik hesabat Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisin müzakirəsinə təqdim olunmuşdur. Büdcə qanunvericiliyinə əsasən Hesablama Palatasının müvafiq rəyi də təqdim edilmişdir.

Qanun layihəsinin və illik icra hesabatının İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin geniş tərkibli iclasında səmərəli və konstruktiv müzakirəsi keçirilmişdir. Komitəmizin üzvləri tərəfindən büdcə siyasətinə və hesabatlılığına, büdcə planlaşdırılmasına və makroiqtisadi proqnozlaşdırmaya dair vacib məsələlər qaldırılmış, dəyərli təkliflər səsləndirilmişdir. Aktuallıq kəsb edən suallar hörmətli maliyyə naziri tərəfindən cavablandırılmışdır.

Hörmətli həmkarlar, ötən ildən başlayaraq ölkəmizdə dövlət maliyyəsinin idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı islahatlara başlanılmışdır. İslahatlar, eyni zamanda, “Rəqəmsal dövlət maliyyəsi” informasiya sisteminin formalaşdırılmasını əhatə etməklə, həm də səmərəli icra və nəzarət mexanizminin yaradılmasını nəzərdə tutur.

Dövlət maliyyə sistemində islahatlar və effektiv büdcə nəzarəti təşəbbüsü ümumdövlət siyasətidir və möhtərəm cənab Prezidentin siyasi iradəsinə əsaslanır. Çünki müasir dövrdə dövlət maliyyəsinin effektiv idarə olunması artıq, sadəcə, maliyyə məsələsi deyil. O, həm də milli təhlükəsizlik, iqtisadi suverenlik, sosial rifah və dövlətin dayanıqlılığı məsələsidir. Heç şübhəsiz, dövlət maliyyəsinin idarə edilməsi sahəsində

islahatlar parlament müstəvisində büdcə hesabatlılığının təkmilləşdirilməsinə də öz töhfəsini verəcəkdir.

Hörmətli həmkarlar, Milli Məclisdə dövlət büdcəsinin icra nəticələrinə dair müzakirələrin aparılması büdcə prosesinin çox mühüm mərhələsidir. Əgər büdcə zərfi hökumətin növbəti il üçün fəaliyyət planını əks etdirirsə, icraya dair hesabat müəyyən edilmiş sosial-iqtisadi siyasətin, büdcə hesabına görülmüş işlərin real nəticələrini göstərir.

Neft gəlirlərinin hələ ölkəmizə daxil olması ərəfəsində Prezident İlham Əliyevin büdcənin icrası ilə bağlı qeyd etdiyi vacib bir fikri xatırlatmaq istərdim: “Elə etməliyik ki, büdcə maksimum dərəcədə icra edilsin. Eyni zamanda, maliyyə intizamı daha da yüksək səviyyədə olmalıdır. Nəzərə alsaq ki, Azərbaycanın büdcəsi ildən-ilə artacaq, deməli, nəzarət də artmalıdır”. Dövlət başçısının bu tezisləri onu təsdiq edir ki, büdcə vəsaitlərindən səmərəli istifadə edilməsi, maliyyə intizamı kimi məsələlər heç də bu günün və ya dünənin gündəliyində olan məsələ deyil. Büdcəyə ciddi nəzarət hər zaman dövlət siyasətinin əsas xəttini təşkil edib.

Dövlət büdcəsinin icrası təsdiq olunmuş büdcə sənədində nəzərdə tutulan gəlir və xərclərin faktiki yerinə yetirilməsi prosesidir. Lakin parlament platformasında dövlət büdcəsinin icrası üzrə hesabatlılıq, sadəcə olaraq, “hansı istiqamətlərə nə qədər vəsait xərcləndi?” sualının cavablandırılmasından ibarət deyil. Əsas məsələ ayrılmış vəsaitlərlə hansı nəticələrin qazanılması, büdcənin sosial-iqtisadi təsirlərinin müəyyən edilməsi, fiskal dayanıqlığa necə nail olunması, büdcə sistemindəki zəif bəndlərin növbəti ilin büdcə planlaşdırılmasında nə dərəcədə nəzərə alınması, nəhayət, dövlət proqramlarının hansı səviyyədə icra olunmasıdır.

Hörmətli həmkarlar, 2025-ci ildə icra edilmiş dövlət büdcəsinin əsas xüsusiyyətlərini qeyd etmək istərdim. Ötən ilin büdcəsini hər şeydən əvvəl

ölkəmizin iqtisadi inkişafına, əhalinin sosial rifahına və milli maraqlarımıza xidmət edən maliyyə sənədi kimi xarakterizə edə bilərik.

İcra edilmiş dövlət büdcəsi müəyyən edilmiş vəzifələrin və strateji təşəbbüslərin həyata keçirilməsi, dövlətin mühüm funksiyalarının ahəngdar icrası üçün etibarlı maliyyə təminatı yaratmışdır. Qlobal iqtisadi və geosiyasi qeyri-müəyyənliklərin davam etməsinə baxmayaraq, büdcənin makroiqtisadi sabitlik şəraitində icra edilməsi onun əsas cəhətlərindən biri kimi qeyd edilə bilər.

Ötən ilin maliyyə sənədi gəlirlərin həm proqnoza, həm də əvvəlki ilə nisbətən artması ilə xarakterizə olunur. Belə ki, 2025-ci il üzrə dövlət büdcəsinin gəlirləri 39,2 milyard manat olmaqla, proqnoza qarşı 2,2 faiz, 2024-cü illə müqayisədə isə 5,4 faiz çox icra edilmişdir.

Ötən ildə dövlətimizin sosial siyasəti iqtisadi siyasətin ayrılmaz hissəsi olaraq davam etdirilmiş və 2025-ci ilin dövlət büdcəsi bunun üçün maliyyə təminatı yaratmışdır. Ötən ildə sosialyönümlü xərclər büdcə məxaricində 40 faizə kimi yüksək paya malik olmuşdur.

İcra edilmiş dövlət büdcəsi ötən ildə cari fiskal dayanıqlıq nümayiş etdirmişdir. Belə ki, cari xərclərin təxminən 92 faizi qeyri-neft gəlirləri hesabına maliyyələşdirilmişdir. Bu onu göstərir ki, dövlət artıq öz gündəlik və sosial xarakterli xərclərinin böyük hissəsini qeyri-neft iqtisadiyyatı hesabına maliyyələşdirmək imkanına malikdir. Neft-qaz gəlirləri isə investisiya layihələrinə və strateji təşəbbüslərin dəstəklənməsinə yönəldilə bilər.

Fiskal dayanıqlıq büdcə qaydasına riayət edilməsi ilə tamamlanmışdır. Belə ki, icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbəti, dövlət borcunun isə ümumi daxili məhsula nisbəti hədəflənən yuxarı hədlər daxilində saxlanılmışdır.

Ötən ildə icra edilmiş dövlət büdcəsinin çox mühüm xüsusiyyətlərindən biri də qeyri-neft sektorundan daxilolmaların proqnoza nisbətən 1,6 faiz, 2024-cü ilə nisbətən 3,9 faiz artmasıdır. Artıq ötən ilin büdcə gəlirlərində qeyri-neft daxilolmalarının payı 52 faizə yüksəlmişdir. Bu, mahiyyətcə qeyri-neft iqtisadiyyatının fiskal bazasının tədricən genişlənməsi anlamına gəlir.

3,1 milyard manat məbləğində təsdiq olunan dövlət büdcəsi kəsirinin 580 milyon manat büdcə profisiti ilə, icmal büdcənin isə proqnozlaşdırılan 3,7 milyard manatlıq kəsirinin faktiki olaraq 3,4 milyard manat məbləğində profisit ilə əvəzlənməsi ötən ilin büdcə icrası prosesində diqqət çəkən məqamlardan biridir.

İcra edilmiş dövlət büdcəsi ötən dövrdə ölkəmizdə artıq uzun illərdir ki, əsası qoyulmuş proqramlı idarəetmənin icra mexanizmi kimi çıxış etmişdir. Belə ki, 2025-ci ilin büdcəsi dövlətin strateji sənədlərinin – milli prioritetlərin, sosial-iqtisadi inkişaf strategiyasının, Böyük Qayıdışa dair I Dövlət Proqramının maliyyə təminatında da mühüm rol oynamışdır.

Hörmətli millət vəkilləri, büdcənin icrası ilə bağlı diqqətçəkən bəzi məqamları qeyd etmək istərdim. Nəzərə almalıyıq ki, makroiqtisadi sabitlik, əsasən, üç sütun üzərində bərqərar olur. Onlardan birincisi fiskal dayanıqlıq, ikincisi maliyyə sabitliyi, üçüncüsü isə iqtisadi artımdır. Büdcə xərclərinin təsdiq olunmuş göstəricidən 6,8 faiz az icra edilməsi, xüsusi ilə də bəzi xərclərin optimallaşdırılması, dövlət investisiyalarının daha az maliyyələşdirilməsi, bir tərəfdən, sərmayə layihələrinin və proqramların icra tempini aşağı sala bilər, digər tərəfdən də, fiskal stimulların iqtisadi artıma və fəallığa təsirini zəiflədə bilər.

Biz geniş büdcə ekspansiyasının tərəfdarı olmasaq da, ölkəmizdə təşəkkül tapmış iqtisadi artım modelinin həm də dövlət xərclərinə və investisiyalarına əsaslandığını nəzərdən qaçırmamalıyıq.

Həm dövlət büdcəsi, həm də icmal büdcə üzrə təsdiq edilmiş büdcə defisiti əvəzinə profisitin yaranması fiskal sabitlik, ehtiyatlı maliyyə idarəçiliyi və gəlirlərin proqnozdan yüksək icrası baxımından müsbət göstərici hesab olunsa da, büdcə proqnozlaşdırılması və xərc planlaşdırılmasında təkmilləşdirmənin aparılması zərurətini yaradır. Ümumiyyətlə, hesab edirik ki, büdcə prosesinin təkmilləşdirilməsi sahəsində görüləsi işlər həm cari, həm də növbəti büdcə ilində davam etdirilməlidir.

Hörmətli həmkarlar, hesabatın təhlili iqtisadi və fiskal siyasət üçün bir sıra mühüm çağırışların nəzərə alınmasını tələb edir. Bu çağırışlar nədən ibarətdir?

Dövlət büdcəsinin icra edildiyi 2025-ci ildə beynəlxalq səviyyədə geosiyasi gərginlik, qlobal iqtisadiyyatda qeyri-müəyyənliklər, enerji bazarlarındakı dəyişkənlik, dünya ticarətində zəifləmə meylləri, maliyyə bazarlarında risklərin artması davam etmişdir. Bu kimi meyllərin cari ildə də müşahidə edilməsi Azərbaycan iqtisadiyyatında makroiqtisadi sabitliyin qorunmasını, fiskal dayanıqlığın təmin olunmasını xüsusi olaraq aktuallaşdırır.

Ölkəmizdə dövlət borcunun həcmi maliyyə təhlükəsizliyi meyarlarına cavab versə də, borca xidmət xərclərinin təkcə bir il ərzində yüksək templə artımı gələcəkdə büdcənin fiskal yükünü ağırlaşdıra bilən faktora çevrilə bilər.

Bütün strateji təşəbbüslərini yalnız özünün daxili resursları hesabına maliyyələşdirən Azərbaycanda Böyük Qayıdış proqramı və iri infrastruktur

layihələri, kənd təsərrüfatının inkişafı sahəsində yeni planlar, nəqliyyat və logistika infrastrukturunun qurulması uzun müddət üçün böyük maliyyə resursları tələb edir.

Hörmətli həmkarlar, 2025-ci ilin dövlət büdcəsinin icrasına dair hesabatı təhlil etdikdən sonra komitəmizdə aparılan müzakirələrin nəticələrini də ümumiləşdirərək bəzi təklifləri səsləndirmək istərdim.

Hesab edirik ki, büdcə siyasəti yalnız fiskal çərçivə kimi deyil, həm də iqtisadi inkişafın təşviqi, sahibkarlığın dəstəklənməsi baxımından təsirli və kompleks iqtisadi siyasət alətidir.

Milli sənayemizin struktur transformasiyası, o cümlədən neft hasilatının aşağı düşməsi səbəbindən neft gəlirlərinin azalması və bunun fonunda qeyri-neft gəlirlərinin büdcə daxilolmalarında payının artması öz-özlüyündə fiskal dayanıqlığı təmin etmir. Cari deyil, məhz uzunmüddətli etibarlı fiskal dayanıqlığa təkcə xərcləri optimallaşdırmaqla nail olmaq mümkün deyil. Bunun üçün yeni iqtisadi artım modelinə keçilməsi, qeyri-resurs iqtisadiyyatı hesabına büdcə gəlirlərinin artması tələb olunur. Möhtərəm cənab Prezidentin təbirincə desək, iqtisadi artım olmadan, sadəcə, büdcə xərcləri hesabına sosial məsələləri həll etmək çətindir. Bu baxımdan, qarşıdakı dövrdə büdcə siyasətinin iqtisadi islahatlarla və struktur dəyişiklikləri ilə uzlaşdırılması xüsusi əhəmiyyət daşıyır.

Dövlət maliyyəsinin idarə edilməsi sahəsində aparılan islahatların əsas fəlsəfəsinin nəticə əsaslı maliyyələşdirmə olduğunu nəzərə alaraq, qarşıdakı dövrdə ortamüddətli xərclər çərçivəsinin əhatə dairəsinin genişlənməsi tələb olunur. Bu, büdcə hesabatlılığı dövründə əldə edilmiş real nəticələri qiymətləndirmək üçün praktik əsaslar yarada bilər.

Təsdiq edilmiş büdcə ilə müqayisədə bəzi xərclərin az icra edildiyini nəzərə alaraq, hesabatlılıq dövründə hansı vəsaitlərin qənaət, ixtisar,

optimallaşdırma olaraq azaldılması barədə gələcəkdə təsnifləşdirilmiş məlumatların təqdim edilməsini vacib hesab edirik.

Hörmətli həmkarlar, hesabat büdcə qanunvericiliyi ilə müəyyən edilmiş müddətdə və formada təqdim edilməklə ölkəmizin ötən ildəki makroiqtisadi durumunu, dövlət büdcəsinin icra vəziyyətini səciyyələndirən zəruri məlumatları özündə əks etdirir.

Hesabatın təhlili göstərir ki, dövlətimiz ötən ilin büdcəsi hesabına sosial siyasəti davam etdirməyə, təhlükəsizlik prioritetlərini təmin etməyə və strateji inkişaf proqramlarını həyata keçirməyə nail olmuşdur.

Komitəmizdə aparılmış müzakirələrin nəticələrini, eyni zamanda, Hesablama Palatasının rəyini nəzərə almaqla, hesab edirik ki, müvafiq hesabatla birlikdə təqdim edilmiş qanun layihəsi büdcə qanunvericiliyinin tələblərinə və strateji sənədlərin müddəalarına cavab verir.

Qeyd edilənlərə əsaslanaraq, Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsinin birinci oxunuş üçün müzakirəsini məqsədəuyğun sayır, hörmətli deputat həmkarlarımızdan layihənin dəstəklənməsini xahiş edirik.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, indi isə çıxış etmək üçün söz Azərbaycan Respublikasının maliyyə naziri hörmətli Sahil Babayevə verilir. Sahil müəllim, buyurun.

**Sahil Babayev,** *Azərbaycan Respublikasının maliyyə naziri.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycan Respublikasının 2025-ci il üçün dövlət büdcəsi ölkənin inkişaf prioritetlərinə

uyğun, maliyyə dayanıqlığı və sosial öhdəliklərin tam yerinə yetirilməsi prinsiplərinə müvafiq şəkildə icra edilmişdir.

Hesabat ili ərzində qlobal iqtisadiyyatda davam edən qeyri-müəyyənliklərə baxmayaraq, dövlət başçısının rəhbərliyi altında ölkəmizdə makroiqtisadi sabitlik qorunmuş, iqtisadi artım təmin edilmiş və dövlət siyasətinin əsas priotitetləri nəzərə alınaraq bütün tədbirlər ardıcıl şəkildə həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin qeyd etdiyi kimi, “Biz böyük infrastruktur layihələrini icra edir, müxtəlif sahələrdə rəqabət qabiliyyətini artırmağa yönəlmiş islahatlar həyata keçirir, dayanıqlı və innovativ iqtisadiyyat qurmaqla yanaşı, xarici investisiyaları cəlb edir və yerli istehsalın gücləndirilməsi istiqamətində mühüm addımlar atırıq. Bizim yolumuz davamlı inkişaf və şəffaf idarəetməyə əsaslanır”.

Bu yanaşma 2025-ci il dövlət büdcəsinin icrasında öz aydın təzahürünü tapmışdır. Büdcə həm iqtisadi artımın dəstəklənməsinə, həm sosial öhdəliklərin tam icrasına, həm də işğaldan azad edilmiş ərazilərin bərpasına xidmət etmiş, Azərbaycanın 2030-cü ilədək milli prioritetlərinə doğru inamlı irəliləyişini təmin etmişdir.

Müstəqil Azərbaycanın həyata keçirdiyi uğurlu xarici siyasət kursu son illərdə ölkəmizin beynəlxalq mövqeyini daha da möhkəmləndirmiş, regionda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunmasında rolunu əhəmiyyətli dərəcədə artırmışdır.

Hörmətli millət vəkilləri, 2025-ci ildə Azərbaycan Respublikasında ümumi daxili məhsul real ifadədə 1,4 faiz artmış və 129,1 milyard manat təşkil etmişdir. 2025-ci ildə adambaşına düşən ümumi daxili məhsul artaraq 12,6 min manat olmuşdur.

İqtisadiyyatın diversifikasiyası və qeyri-neft sektorunun dinamik inkişafı nəticəsində 2025-ci ildə qeyri-neft sektorunda 2,7 faiz real artım əldə olunmuş, ÜDM-nin 72 faizi və yaxud 92,3 milyard manatı qeyri-neft sektorunun payına düşmüşdür. Bu isə 2024-cü illə müqayisədə mütləq ifadədə 6,1 milyard manat çoxdur. Qeyri-neft ixracı 8,1 faiz artaraq 3,6 milyard dollara çatmışdır.

Profositli tədiyə balansı, monetar və fiskal siyasətin sıx əlaqələndirilməsi nəticəsində məzənnə sabitliyi qorunmuşdur. 2025-ci ilin dekabr ayında illik inflyasiya 5,2 faiz, orta illik inflyasiya isə 5,6 faiz təşkil etməklə hədəf diapazonunda qalmışdır.

Hesabat ilində əhalinin adambaşına düşən nominal gəlirləri 7,6 faiz, orta aylıq nominal əməkhaqqı 9,3 faiz artmışdır. Hər 2 göstərici inflyasiya səviyyəsini xeyli üstələmişdir ki, bu da ölkədə sosial rifahın yaxşılaşdığını bir daha təsdiq edir.

Cari ilin əvvəlinə ölkənin məcmu valyuta ehtiyatları 85,1 milyard ABŞ dolları təşkil etmiş, xarici dövlət borcunu təqribən 17,7 dəfə üstələmiş, istehsal olunan ÜDM-in isə 112,1 faizinə bərabər olmuşdur. Azərbaycan ÜDM-dən artıq valyuta ehtiyatlarına malik olan azsaylı ölkələrdən biridir.

Belə yüksək ehtiyat səviyyəsi makroiqtisadi sabitliyin, milli valyutanın dayanıqlılığının və ölkənin xarici maliyyə öhdəliklərini yerinə yetirmək qabiliyyətinin mühüm təminatıdır.

2025-ci ildə “Azeri light” markalı xam neftin bir barelinin dünya bazarlarındakı satış qiyməti orta hesabla 71 ABŞ dolları səviyyəsində qərarlaşmış, büdcədə nəzərdə tutulmuş qiymət göstəricisi ilə müqayisədə 1,4 faiz artıq olmuşdur.

Hesabat dövründə fiskal intizam qorunmaqla, büdcə qaydasının göstəriciləri yuxarı hədlər daxilində icra olunmuşdur.

2025-ci ildə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisi 18,6 faiz təşkil etmişdir. Bu isə 22 faiz səviyyəsində müəyyən edilmiş hədəf göstəricisindən 3,5 faiz bəndi azdır. Qeyd edək ki icmal büdcədə qeyri-neft gəlirlərinin payı 55,2 faizə çatmış və əvvəlki illə müqayisədə 2,8 faiz bənd artmışdır.

Dövlət borcunun idarə edilməsi sahəsində də müsbət dinamika qorunmuşdur. 2026-cı il iyunun 1-nə dövlət borcu 24,1 milyard manat və ya ÜDM-nin 18,4 faizi səviyyəsində olmuşdur. Bu göstərici ilin əvvəli ilə müqayisədə 11,9 faiz azalmışdır.

Dövlət istiqrazlarının orta ödəmə müddətinin 3,8 ilə çatması, 7 və 10 illik istiqrazların borc portfelindəki payı isə atrmışdır. Beləliklə, portfelin keyfiyyəti ciddi şəkildə yaxşılaşmışdır.

Dövlət Neft Fondunun 2026-cı ilin 1 yanvar tarixinə olan aktivləri 13,5 milyard ABŞ dolları artaraq 73,5 milyard ABŞ dollarına çatmış, makroiqtisadi sabitlik və inkişaf üçün güclü uzunmüddətli bufer yaradılmasına imkan vermişdir.

2025-ci ildə dövlət maliyyəsinin idarə olunması sahəsində də mühüm müsbət nəticələr əldə edilmişdir. Belə ki, ötən il dövlət büdcəsinin mədaxili 39,2 milyard manat olmaqla, proqnoza qarşı 829 milyon manat və ya 2,2 faiz, 2024-cü illə müqayisədə isə 2 milyard manat və ya 5,4 faiz çox icra edilmişdir. Qeyri-neft sektoru üzrə daxilolmalar proqnozla müqayisədə 311 milyon manat çox icra olunmaqla, 20,4 milyard manat təşkil etmiş və büdcə gəlirlərinin 52 faizi olmaqla, 2024-cü ilin göstəricisini 756 milyon manat üstələmişdir.

Dövlət büdcəsində qeyri-neft vergilərinin payının 59 faizə yüksəlməsi, əvvəlki illə müqayisədə isə 2,7 faiz bənd artması büdcənin neft gəlirlərindən asılılığının azalmasının mühüm bir göstəricisidir.

Ötən il vergi orqanlarının xətti ilə büdcəyə 16,4 milyard manat, gömrük orqanlarının xətti ilə isə 6,4 milyard manat vəsait təmin edilmişdir. Vergi orqanlarının xətti ilə daxil olmuş vəsaitin 12 milyard manatı və ya 73,4 faizi qeyri-neft, 4,4 milyard manatı və ya 26,6 faizi neft sektorunun payına düşmüşdür.

Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar 680 milyon manat və ya 2024-cü illə müqayisədə 132 milyon manat çox olmuşdur. Hesabat dövründə Neft Fondundan dövlət büdcəsinə transferi nəzərdə tutulduğu həcmdə, yəni 14,5 milyard manat məbləğində olmuşdur.

Qeyd etmək istərdim ki, 2025-ci ildə ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri və digər zəruri xərclərin icrası üçün tələb olunan məbləğdə maliyyə vəsaiti tam və vaxtında təmin edilmişdir.

2025-ci ildə dövlət büdcəsinin xərcləri proqnozun 93,2 faizi həcmində və ya 38,6 milyard manat icra edilmişdir. Bu da 2024-cü illə müqayisədə 891 milyon manat daha çoxdur. Bütövlükdə, ötən 5 ildə, yəni 2021-ci illə 2025-ci ili müqayisə etsək, dövlət büdcəsinin xərcləri 11,2 milyard manat və ya 41 faiz artmışdır.

Strukturuna görə dövlət büdcəsi xərclərinin 22,1 milyard manatı və ya 57,3 faizi cari xərclərə, 14,4 milyard manatı və ya 37,3 faizi əsaslı xərclərə, 2,1 milyard manatı və ya 5,4 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldilmişdir.

Qeyd olunmalıdır ki, hesabat ilində icra olunmuş 22,1 milyard manat məbləğində cari xərclərin 92 faizi və ya 20,4 milyard manatı qeyri-neft-qaz sektoru üzrə daxilolmaların hesabına qarşılanmışdır. Bu da bizim ana hədəflərimizdən birinə istiqamətlənmiş növbəti uğurlu nəticədir.

Hesabat ilində sosialyönlü xərclərin maliyyələşməsi üçün dövlət büdcəsi xərclərinin təxminən 40 faizi həcmində və ya 15,3 milyard manat

vəsait istifadə olunmuşdur. Bu, 2024-cü illə müqayisədə 602 milyon manat daha çoxdur.

Dövlət başçısının aztəminatlı, xüsusən sosial cəhətdən həssas olan insanlara qayğısının təzahürü kimi, ötən il növbəti sosial islahat zərfi reallaşdırılmış, islahat zərfi çərçivəsində minimum əməkhaqları və pensiyalar, sosial müavinət və təqaüdlər artırılmış, islahatın maliyyələşdirilməsinə dövlət büdcəsindən 400 milyon manatdan artıq vəsait sərf edilmişdir. Ümumilikdə, son 5 ildə sosialyönlü xərclər 3,9 milyard manat artmışdır.

Ötən ilin dövlət büdcəsindən müdafiə milli təhlükəsizlik xərclərinə dövlət büdcəsi xərclərinin 21 faizi həcmində və ya 8,1 milyard manat vəsait yönəldilmişdir. Həmin vəsaitin 57 faizi və ya 4,6 milyard manatı xüsusi müdafiə təyinatlı layihələr və tədbirlərlə bağlı xərclərin payına düşmüşdür.

Elm, təhsil, səhiyyə, sosial müdafiə, sosial təminat, mədəniyyət, bədən tərbiyəsi və gənclər siyasəti xərclərinin maliyyələşdirilməsi üçün hesabat ilində dövlət büdcəsi xərclərinin 29 faizi və ya 11,2 milyard manat vəsait sərf olunmuşdur.

Ötən il mənzil və kommunal təsərrüfatı, kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi xərclərinə 1,8 milyard manat vəsait xərclənmişdir. Bu göstərici də 2024-cü illə müqayisədə 40 milyon manat daha çoxdur.

Beynəlxalq və regional təşkilatlar, maliyyə institutları ilə əməkdaşlıq, xaricdəki diplomatik nümayəndəlik və konsulluqların fəaliyyəti, beynəlxalq və ölkə səviyyəli tədbirlər və xarici yardımlar üçün 655 milyon manat sərf edilmişdir.

Hesabat ilində kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə

bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 504 milyon manat vəsait sərf edilmişdir. Bu da 2024-cü illə müqayisədə 3,8 faiz çoxdur.

Ötən il güzəştli ipoteka kreditlərinin verilməsi üçün 85 milyon manat, sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə hesablanmış faizlərə görə subsidiyanın maliyyələşdirilməsi üçün isə 15 milyon manat olmaqla, cəmi 100 milyon manat məbləğində vəsait sərf olunmuşdur.

Hesabat ilində dövlət adından yaradılan və dövlət sifarişi əsasında görülən işlərin, xidmətlərin maliyyə təminatı üçün dövlət büdcəsindən 44 publik hüquqi şəxsə 968 milyon manat məbləğində vəsait ayrılmışdır.

2025-ci ildə iqtisadi fəaliyyətlə bağlı xərclər üçün 7,6 milyard manat vəsait və ya büdcə xərclərinin 19,6 faizi həcmində vəsait ayrılıb. Həmin mənbədən investisiya layihələrinin həyata keçirilməsi üçün 2,3 milyard manat vəsaitin yönəldilməsi təmin olunmuşdur. İnvestisiya xərclərinin 1,7 milyard manatı infrastruktur təyinatlı layihələrin, 303 milyon manatı sosial sferaya aid olan obyektlərin, 98 milyon manatı ölkənin müdafiə, məhkəmə, hüquq mühafizə və digər sahələri üzrə obyektlərin tikintisinə, yenidən qurulmasına və əsaslı təmirinə yönəldilmişdir.

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün ötən il dövlət büdcəsinin xərclərinin 4,5 milyard manatı həcmində vəsait ayrılmışdır. Bu vəsaitin 4 milyard manatı infrastruktur təyinatlı layihələrin, 440 milyon manatı sosial təyinatlı layihələrin, 10 milyon manatı müdafiə və hüquq mühafizə təyinatlı layihələrin maliyyələşdirilməsinə, 75 milyon manatı isə ərazilərin minalardan təmizlənməsinə yönəldilmişdir.

2025-ci ilin əvvəlinə Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun vəsaitinin qalığı 419 milyon manat təşkil etmişdir. Hesabat ili ərzində fonda 2,3 milyard manat məbləğində vəsait daxil olmuş, eyni zamanda, dövlət təşkilatlarının dövlət zəmanətli borcları üzrə

öhdəliklərinin qarşılanması üçün fonddan 2,6 milyard manat məbləğində vəsait xərclənmiş, beləliklə, ilin sonuna qalıq 164 milyon manat təşkil etmişdir.

Dövlət büdcəsinin ehtiyat fondlarının həcmi 2 milyard manat təşkil etmiş, onun 79 faizi və ya 1,6 milyard manatı istifadə olunmuşdur.

2025-ci ilin dövlət büdcəsinin yerli gəlirləri 873 milyon manat və ya proqnoza nisbətən 79 milyon manat çox, yerli xərcləri isə 717 milyon manat icra olunmuşdur.

Regionların mərkəzi büdcədən maliyyə asılılığının azalması da 2025-ci ilin müsbət nəticələrindəndir. Naxçıvan Muxtar Respublikasına ayrılan dotasiya əvvəlki illə müqayisədə 25,2 milyon manat və ya 13,6 faiz azalmışdır. Yerli gəlirlər hesabına xərclərini maliyyələşdirən şəhər və rayonların sayının artması regionların iqtisadi və maliyyə potensialının gücləndiyini göstərir.

Beləliklə, ötən il fiskal orqanlar tərəfindən daxilolmaların artıqlaması ilə təmin edilməsi və büdcə xərclərinin səmərəli və ünvanlı icrası hesabına dövlət büdcəsi profisitlə yerinə yetirilmişdir.

Əlavə olaraq qeyd etmək istərdim ki, 2025-ci il icmal büdcənin gəlirləri 48 milyard manat, xərcləri isə 44,6 milyard manat yerinə yetirilmişdir. İcmal büdcə də profisitlə icra olunmuşdur.

Ümumilikdə, ötən ilin nəticələri göstərir ki, ölkəmizdə makroiqtisadi sabitliyin qorunması, dövlət gəlirlərinin artırılması, qeyri-neft sektorunun genişləndirilməsi, borc dayanıqlılığının təmin edilməsi və sosial öhdəliklərin maliyyələşdirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.

Qarşıdakı dövrdə əsas hədəf müsbət nəticələri möhkəmləndirmək, qeyri-neft gəlirlərinin artımını sürətləndirmək, dövlət xərclərinin səmərəliliyini yüksəltmək, büdcə sisteminin nəticəyönümlülüyünü daha da

artırmaqdır. Əminik ki, həyata keçirilən məqsədyönlü iqtisadi və fiskal siyasət ölkəmizin maliyyə dayanıqlığının möhkəmlənməsinə, əhalinin rifahının yüksəlməsinə və inkişaf hədəflərinə xidmət edəcəkdir.

Hörmətli deputatlar, dövlət və icmal büdcənin icrası ilə bağlı göstəricilərlə yanaşı, hesabat ilində dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı görülən işlər barədə də məlumatları diqqətinizə çatdırmaq istərdim.

Bildiyiniz kimi, ötən ilin 25 avqust tarixində ölkə başçısı tərəfindən dövlət maliyyəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı müvafiq fərman imzalanmış və həmin fərmanla bir sıra tapşırıqlar verilmişdir. Bu tapşırıqlara uyğun olaraq, 2025-ci il ərzində Rəqəmsal dövlət maliyyə idarəetməsi sistemi yaradılmış, onun əsasnaməsi təsdiq edilmişdir. Görülən işlər nəticəsində bu sistemin əsas struktur elementlərindən olan “e-müqavilə”, “e-rüsum”, “büdcə məlumat idarəetmə”, “elektron büdcə bələdçisi”, “dövlət müəssisələrinin rəqəmsal monitorinqi” alt sistemləri, “maliyyə hesabatlılıq portalı” hazırlanaraq istifadəyə verilmişdir. Bu elektron sistemlər büdcə vəsaitlərinin səmərəli istifadəsinə imkan yaratmaqla bərabər, növbəti dövrlər üçün büdcə xərclərinin effektiv proqnozlaşdırılmasına, icrasına cari nəzarətin, şəffaflığın və ictimai açıqlığın təmin edilməsinə ciddi bir imkanlar yaradır.

Hesabat dövründə büdcə xərclərinin 98 faizi xəzinə müşayiətinə cəlb edilmiş, dövlət xəzinədarlığında cari risk əsaslı nəzarət mexanizminin tətbiqinə başlanılmış, xəzinədarlıq orqanları tərəfindən ödənişlərin sürəti iki dəfə artırılmışdır.

Bununla yanaşı, ötən il ərzində xəzinədarlıq orqanlarının inzibati idarəetmə sistemi təkmilləşdirilmiş, regional xəzinədarlıq orqanları

mərkəzləşdirilmişdir. Hazırda ölkə üzrə bütün ödənişlər yalnız bir xəzinə orqanı vasitəsi ilə icra olunur.

Hörmətli deputatlar, 2025-ci ildə dövlət və icmal büdcələri möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş prioritet istiqamətlərin, sosial təminat tədbirlərinin, ölkənin iqtisadi inkişafının, müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin, işğaldan azad edilmiş ərazilərimizin bərpa və yenidən qurulması tədbirlərinə yönəldilməklə icra edilmiş və hökumət qarşısında qoyulan vəzifələrin maliyyələşdirilməsi təmin edilmişdir.

Çıxışımın yekununda 2025-ci ilin dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsini dəstəkləməyi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Sahil müəllim.

Hörmətli deputatlar, bilirsiniz ki, Hesablama Palatası qanun layihəsinə rəy verib. Rəylər sizin hamınızda var. Bu barədə məlumat vermək üçün mən istərdim, Hesablama Palatasının sədri hörmətli Vüqar Gülməmmədova söz verim. Vüqar müəllim, Siz də kürsüyə buyurun.

**Vüqar Gülməmmədov,** *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və iclas iştirakçıları. 2025-ci ilin dövlət büdcəsinin icrası cənab Prezidentin apardığı diplomatik fəaliyyətin uğurlu nəticəsi hesab edilən, dövlətimizin suverenlik və ərazi bütövlüyünün tam bərpası ilə başa çatan, Zəfərin məntiqi davamı kimi dəyərləndirən Vaşinqton razılaşmasının paraflanması, hərbi gücümüzün artırılması, sosial layihələrin icra edilməsi ilə yanaşı, dövlət maliyyəsinin idarə edilməsi sahəsində aparılan islahatların davam etməsi ilə müşayiət olunur.

Hesablama Palatası tərəfindən Milli Məclisdən daxil olmuş 2025-ci ilin dövlət büdcəsinin icrasına dair qanun layihəsinə və onunla birgə təqdim olunan hesabata dair rəy hazırlanmışdır. Rəy dövlət büdcəsinin icrası barədə illik hesabatın və müvafiq qanun layihəsinin təsdiq olmuş göstəricilərə, mövcud qanunvericilik aktlarına, eləcə də ölkənin strateji sənətlərinə uyğunluğu, icra edilmiş dövlət büdcəsinin gəlirləri, xərcləri, dövlət borcu, büdcə kəsiri göstəricilərinin düzgünlüyü və tamlığı barədə kənar dövlət maliyyə nəzarət orqanının qiymətləndirici mövqeyini ifadə edir.

Dövlət vəsaitinin daha rasional istifadə edilməsini təşkilatların ən ümdə vəzifəsinə çevirmək əsas hədəf hesab edilməlidir. Bu iş ötən ilin dövlət büdcəsinin icrasının və ümumiyyətlə, dövlət maliyyə idarəetmə sisteminin intizam fəlsəfəsi üzərində qurulmasına xidmət edir. Bu məntiqlə çıxış edərək, 2025-ci il həm də ölkənin son illərdə ən vacib strateji sənəd hesab edilən “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın 4-cü ilinin icrası üzrə hədəflərin reallaşdırılması, qəbul edilmiş bir sıra dövlət proqramlarının və strategiyalarının icrasının bitməsi, həmçinin dövlət maliyyəsi müstəvisində Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üzrə strategiyanın 2022–2025-ci illər üzrə yenilənməsi çərçivəsinin icrası baxımından xüsusi əhəmiyyət kəsb edir.

Hörmətli millət vəkilləri, rəyimizdə əks olunmuş əsas nəticələri qruplaşdırmaqla təqdim etmək istərdim. İlk olaraq dövlət büdcəsinin icra edildiyi makro çərçivə barədə.

2025-ci ildə ümumi daxili məhsulun, o cümlədən neft-qaz və qeyri-neft-qaz sahələri üzrə ümumi daxili məhsulun proqnoz və fakt məbləğləri, demək olar ki, üst-üstə düşmüşdür. Ümumi daxili məhsulun məbləğinin proqnozdan kənarlaşmasına səbəb olan ənənəvi neft qiyməti amili hesabat

ili üçün aktual olmamış, bu göstərici üzrə proqnoz və fakt qiymətləri çox cüzi fərqlənmişdir. Lakin 2025-ci ilin baza ssenarisi üzrə təqdim edilən proqnozlar və icra parametrlər arasında müəyyən fərqlər müşahidə edilir.

Qanun layihəsi və illik hesabatın qanunvericiliyə uyğunluğu barədə. 2025-ci il ərzində dövlət büdcəsinin icrası ilə bağlı məlumatlar, "Büdcə sistemi haqqında" Qanunun 18-ci və 20-ci maddəsi ilə müəyyən edilmiş müddət və formalara əsasən uyğun təqdim olunmuş, tələb olunan məlumat və göstəricilər qanun layihəsinə və illik hesabata daxil edilmişdir. Aparılmış təhlillər qanun layihəsində əks etdirilmiş dövlət büdcəsi gəlirlərinin və xərclərinin, əsasən, düzgün olduğunu deməyə əsas vermişdir.

Fiskal intizamla bağlı. İlk öncə qeyd edim ki, 2025-ci ildə dövlət büdcəsinin gəlirləri müstəqilliyimizdən bəri ən yüksək həddə çataraq 39,2 milyard manat təşkil etmişdir. Gəlirlərin həcminin əhəmiyyətli artımı fonunda eyni ilə xərclər üzrə müşahidə edilən tarixi artım nəticəsində mütləq rəqəm 38,6 milyard manat olmuşdur. Lakin xərclər üzrə son 10 ildə ən aşağı icra faizi məhz ötən il 93,2 faiz nisbətində müşahidə edilmiş, proqnozla müqayisədə büdcə xərcləri 2,8 milyard manat az icra edilmişdir. Bu da digər fiskal intizam parametri olan büdcə balansına təsir etmişdir.

İcmal büdcədə də 2025-ci ildə profisit müşahidə edilmişdir. Bu göstərici müvafiq olaraq 3,3 milyard manat və ya ümumi daxili məhsulun 2,6 faizində müşahidə edilmişdir. Profisitin yaranması mənbəyi dövlət büdcəsi ilə yanaşı, Dövlət Neft Fondu, Dövlət Sosial Müdafiə Fondu, İşsizlikdən sığorta fondu, Naxçıvan Muxtar Respublikasının büdcəsində yaranan büdcə artıqlığıdır. Beləliklə, müstəqillik tarixində ilk dəfədir ki, icmal büdcənin 6 komponentinin 5-i üzrə büdcədə profisit müşahidə edilmişdir.

Fiskal qaydanın tətbiqi ilə bağlı. 2025-ci ilin büdcə qaydasının əsas göstəriciləri icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə

nisbəti 18,6, dövlət borcunun ümumi daxili məhsulun nisbəti 20,1 faiz olmuşdur. Hər iki göstərici üzrə əldə edilən nəticə qoyulan hədəfə uyğundur.

Burada xüsusi ilə birinci göstərici ilə bağlı bir məqam qeyd edilməlidir. Qeyri-neft ümumi daxili məhsulun yüksəlməsi qeyri-neft büdcə kəsirinin nisbətinin azalmasına səbəb olur. Eyni zamanda, əgər dövlət büdcəsinin xərcləri tam olaraq icra edilsə idi, o halda icmal büdcə xərclənin həcmi həmin nisbətdə böyüməli idi. Bu da qeyri-neft büdcə kəsirinin nisbətinin dəyişməsinə səbəb ola bilərdi. Yəni xərclərin icra edilməməsi sonda fiskal intizam normasına əməl edilməsinə səbəb olmuşdur.

Gəlirlər, o cümlədən vergilər barədə. Əvvəlki illə müqayisədə hesabat ilinin dövlət büdcəsinin gəlirlərinin tərkibində həm vergi gəlirləri, həm də qeyri-vergi gəlirlərində artım müşahidə edilmişdir. Belə ki, 2024-cü illə müqayisədə 2025-ci ildə vergi gəlirləri 1,5 faiz, qeyri-vergi gəlirləri 10,2 faiz artmışdır. Lakin cəmi gəlirlərdə vergi payının gəlirlərinin payı azalaraq 52,2 faizə, qeyri-neft gəlirlərinin payı isə artaraq 47,8 faizə çatmışdır.

Qeyd olunan dinamika qeyri-vergi gəlirlərinin artımda, əsasən, transferlər və digər alternativ mənbələrin həlledici rol oynadığını göstərir.

Transferlərlə bağlı. Hesabat ilində icra edilmiş dövlət büdcə xərclərinin 6,6 faizi büdcədən ayırmalar və transferlərlə bağlı olmuşdur. Büdcədən transferlər əvvəlki ilə nisbətən 8,9 faiz azalmışdır. Bu vəsaitlərin aylar üzrə təhlili proqnoz və icra göstəriciləri arasında əhəmiyyətli fərqlərin olduğunu göstərir. Dövlət büdcəsindən transferlərin əksinə olaraq, dövlət büdcəsinə transferlər üzrə aylıq göstəricilərin proqnoz və icra göstəricilərində, demək olar ki, kənarlaşma izlənilməmişdir.

2018-ci ildən başlayaraq büdcədə neft sektorunun payının qismən azalması da müşahidə edilmişdir. Ötən il bu rəqəm 48,1 faizə enmişdir.

Daha bir göstərici, Dövlət Neft Fondunun transferinin Dövlət Neft Fondunun gəlirlərinə nisbəti 84,3 faizə çatmışdır.

Dövlət proqramları ilə bağlı. Ölkədə ortamüddətli xərclər çərçivəsi islahatların mövcud tempini nəzərə alsaq, dövlət proqramlığı institutunun 2021-ci ildən yaradılmış yeni formatını daha aktiv şəkil aldığını qeyd edə bilərik. Nəticədə qeyd olunan tarixdən cari dövrədək, yəni son 5 ildə dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi əsasında 15 dövlət proqramı, həmçinin 6 strategiya, 2 konsepsiya, 3 fəaliyyət planı, ümumilikdə, 26 sənəd qəbul edilmişdir.

2025-ci il istər bu qayda əsasında, istərsə də əvvəlki dövrlərdə qəbul edilmiş bir sıra dövlət proqramlarının icrası bitmişdir. İcrası bitən 8 dövlət proqramı və digər 3 strateji sənədin heç də hamısı haqqında büdcə zərfində məlumatlara rast gəlinməmişdir. Digər tərəfdən, proqramlarla bağlı təqdim edilən informasiya yalnız bir il üzrə maliyyəşmənin izahında öz əksini tapır. Apardığımız hesablamalar dövlət büdcəsində proqramlarla bağlı 6,1 milyard manatdan çox vəsaitin yönəldildiyini deməyə imkan verir.

Hesablama Palatası olaraq, büdcə zərfində dövlət proqramları və digər strateji sənədlərin nəticəliyi, o cümlədən maliyyə və qeyri-maliyyə göstəricilərinin geniş əksini tapmasını məqsədəuyğun hesab edirik.

Fiskal risklərlə bağlı. Hesablama Palatası olaraq, fiskal risklərin icra prosesində reallaşmasının da təhlilini aparmışıq.

2025-ci ilin dövlət büdcəsinin layihəsi ilə bağlı büdcə sənədləşməsində əsas risklər kimi xam neftin qiymətinin dəyişməsi, dövlət borcu və zəmanəti üzrə maliyyə öhdəlikləri, büdcə xərclərinin dayanıqlı gəlir mənbəyi ilə təmin olunmaması və iqlim dəyişiklikləri şərh olunmuşdur. Bu risklərdən hesabat ilində neftin qiyməti və iqlim dəyişiklikləri aktual olmamış, dövlət borcu ilə

bağlı isə tələbatın, əsasən, qısamüddətli istiqrazların cəmlənməsi üzrə narahatlıq əsasən aradan qaldırılmışdır.

Sadalanan risklərlə yanaşı, Hesablama Palatası 2025-ci ilin dövlət büdcəsinin layihəsinə rəyində, eləcə də 2025-ci ilin 6 ayı üzrə dərc etdiyi yarım illik məlumatlarda aktual hesab etdiyi əlavə fiskal riskləri, eləcə də diqqətdə saxlanmalı məqamları da əks etdirmişdir. Bu risklərlə bağlı mövcud vəziyyəti diqqətinizə çatdırmaq istərdim.

Xəzinədən kənar əməliyyatların artması, hüquqi aktlarda dəyişikliklər bu riski aradan qaldırmışdır. Bəzi xərc istiqamətləri üzrə büdcə intizamının aşağı olmasının davam etməsi, hesabat ilində xərclər 93,2 faiz olmaqla icra edilmişdir. Dövlət büdcəsinə vergi borclarının artması. Hesabat ilində dövlət büdcəsinə olan vergi borcları 4,4 faiz artmışdır.

Təminat Fonduna qaytarılması nəzərdə tutulan məbləğin aşağı icrası. 2025-ci il ərzində təkrar borc sazişləri üzrə proqnozun aşağı icrası bu mənbənin effektivliyində problemlərin mövcudluğunu göstərməkdədir.

Büdcə və digər hesabatlılıqlarla bağlı. Bu il ilk dəfə dövlət auditi və rəqəmsal həllərinin tətbiqi vasitəsi ilə qanunvericilikdə müəyyən edilmiş hesabatların toplanmasına və müvafiq meyarlar əsasında qiymətləndirilməsinə çalışmışdıq. Bugünkü tarixə Hesablama Palatası tərəfindən 2025-ci ilin dövlət büdcəsinin icrasına dair rəyin tərtib edilməsi zamanı 200-dən yuxarı təşkilatdan 1700-dən çox hesabat alınmışdır. Bu, daha çox ola bilərdi. Lakin burada say önəmli deyil, önəmli olan bəzi dövlət təşkilatlarında hesabatlılıq işinin yetərli səviyyədə olmamasıdır. Bunu, əsasən, rəqəmsal alətlərinin natamam tətbiqi və peşəkar kadr potensialının sayının yetərsizliyi kimi amillərlə bağlamaq olar.

Hesabatları vaxtında təqdim edənlərin say ümumi sayın cəmi 40 faizi ətrafındadır. Nəzərə almaq lazımdır ki, hesabatı vaxtında təqdim edən

təşkilatın hesabatlarında da natamamlıq və xətalara rast gəlinir. Bu hesabatların sayı da əhəmiyyətlidir. Hesabatların hazırlanmasına formal yanaşma onların analitik dəyərini azaldır.

Hörmətli millət vəkilləri, rəyə 25 halda tövsiyələrimizin icrası, eləcə də təsdiqini tapan şərhlərimiz barədə məlumatı, habelə 46 yeni tövsiyəni daxil etmişik. Apardığımız araşdırmaların məntiqi nəticəsi kimi hörmətli millət vəkillərinə daha 3 təklifimizi təqdim etmək istərdim.

Hesab edirik ki, xarici ticarət əməliyyatlarının rəsmiləşməsi sisteminin əhatəsinin optimallaşması şəraitindən gömrük orqanları xətti ilə büdcə gəlirlərinin yığımı proqnozunu illər üzrə artan yekunla müəyyənləşməsi təcrübəsinə yenidən baxılmalıdır. Yəni idxal yığımlarının timsalında fiskal yükü ölkəmizin gömrük sərhədlərini optimallaşdırmaqla vergi intizamına əməl edən rezidentlərimizin iqtisadi aktivliyinin daha da təşviqinə üstünlük verməliyik.

İdxalda əlavə dəyər vergisi və ya gömrük rüsumları üzrə proqnoz göstəricilərin hesablanmasında milli iqtisadiyyatımızın əsas hədəfləri, yerli istehsalın və ölkədaxili iqtisadi aktivliyin stimullaşması üçün güzəşt və azadolmaların genişlənməsi kimi konseptual yanaşmalar diqqət mərkəzində saxlanılmalıdır.

İkinci təklifimiz "Büdcə sistemi haqqında" Qanunla bağlıdır. Bu qanun daha çox dövlət büdcəsi ilə bağlı ümumi prosedurları müəyyən edir.

Ümumən, dövlət sektorunun maliyyəsi və onun idarə edilməsi təfəkkürünü özündə tam ifadə etmir. Hesab edirik ki, dövlət sektorunun aktiv və öhdəliklərinin konsilə edilmiş hesabatlılığı, vergi tutumlarının təhlili və onların büdcəyə təsiri, iqtisadiyyatın sahələrinin büdcə gəlirinə təsirinin qiymətləndirilməsi ilə bağlı məlumatların "Büdcə sistemi haqqında"

Qanunda təsbit edilməsi, habelə bəzilərinin büdcə sənədləşməsinə daxil edilməsi də faydalı ola bilər

Nəhayət, üçüncü təklifimiz parafiskal ödənişlərlə bağlıdır. Parafiskal ödənişlər, yəni təkrar emal haqları, pullu yollar, üzvlük haqları və sair toplayan təşkilatlardan onlardan istifadə haqqında hesabat təqdim etməlidirlər. Dövlət qurumları bu vəsaitlərin səmərəliyinin təhlili və mümkün büdcənin yenidən bölüşdürülməsi ilə bağlı qərarlar qəbul edilə bilər. Bu dəyişikliklər, bir tərəfdən, hesabatlılığı və şəffaflığı, digər tərəfdən isə, büdcədə proqnozlaşma institutunun etibarlılığını artırmış olar.

Hörmətli millət vəkilləri, qeyd olunan araşdırmaların və təhlillərin nəticələrini ümumiləşdirərək Hesablama Palatası belə qənaətə gəlir ki, Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilmiş Azərbaycan Respublikasının 2025-ci ilin dövlət büdcəsinin icrası haqqında qanun layihəsi və Azərbaycan Respublikasının 2025-ci ilin dövlət büdcəsinin icrasına dair illik hesabat qanunvericiliyin müvafiq tələblərinə uyğun hazırlanmış və təqdim olunmuşdur. Büdcə müzakirələri zamanı nəzərə almanızı xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Vüqar müəllim.

Hörmətli həmkarlar, biz həm komitə sədrini, həm hörmətli nazirimizi və Hesablama Palatasının sədri hörmətli Vüqar Gülməmmədovu dinlədik. İndi isə müzakirələrə keçirik.

Yazılanlar çoxdur. Təklif var, 5 dəqiqəyə keçək. Hamı razıdır bununla?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Dəyərli hökumət və Milli Məclis üzvləri. Dövlət büdcəsinin icrası haqqında hesabat idarəçiliyin səmərəliliyini qiymətləndirmək üçün mühüm sənəddir.

2025-ci il Azərbaycan üçün mürəkkəb beynəlxalq şəraitdə keçib. Dünyada müharibələrin davam etdiyi, enerji bazarlarında qeyri-müəyyənliyin hökm sürdüyü bir dövrdə ölkəmiz maliyyə sabitliyini qoruyub saxlayıb, büdcə gəlirlərini təmin edib və sosial öhdəliklərini yerinə yetirib.

Prezident İlham Əliyevin ötən il Qarabağ Zəfərinin legitimliyini Vaşinqton zirvəsində tanıtdırması tarixi nailiyyətdir. Lakin parlamentin vəzifəsi uğurları göstərməklə bərabər problemləri və həlli yollarını da irəli sürməkdir.

Dövlətin iqtisadi gücü ümummilli məhsul istehsalı və dəyər yaratması ilə ölçülür. Son 10 ildə ölkəmizin idxalında ciddi struktur və coğrafi dəyişiklik baş verib. 2015-ci ildə idxal 9 milyard dollar idisə, 2025-ci ildə göstərici 18 milyard dollar səviyyəsinə yüksəlib, yəni 10 il ərzində idxal 2 dəfə artıb. Eyni ilə idxalın coğrafiyası da dəyişib.

Əgər 2015-ci ilin əvvəlində idxalda əsas payı regional dövlətlər – Rusiya, Türkiyə, Avropa Birliyi təşkil edirdisə, indi Çin idxalda 8 milyard manatlıq payla lider mövqeyə yüksəlib. Yəni ölkəmizin ümumi idxalının təxminən 25 faizi, konkret deyilsə, ölkəyə gətirilən hər dörd məhsuldan biri Çin mənşəlidir.

İdxalın strukturuna baxdıqda əsas yeri nəqliyyat vasitələri və avtomobillər təxminən 2-3 milyard dollar, maşın və sənaye avadanlıqları 2 milyard dollardan çox, elektronika və məişət texnikası 1,5 milyard dollar civarında, dərman preparatları 1 milyard dollara yaxın yer tutur.

Məhsulların böyük hissəsi ölkəmizdə istehsal və ya montaj edilə bilər. Prosesin sosial-iqtisadi tərəfləri da var. Bazarda yüksək standartlı Avropa

məhsulları ilə müqayisədə keyfiyyəti aşağı olan mallar artıb, yəni tələbin əsas hissəsi ucuz məhsullara yönəlir, keyfiyyət və istehlak meyarları dəyişir. Əhəmiyyətli hissəsini ölkədə istehsal etməyə mane olan əsas amil investisiyalara əlçatanlığın qeyri-bərabərliyi, bazara çıxışın məhdudluğu və sənaye güzəştlərinin mütənasib paylanmamasıdır.

Hesabatda kənd təsərrüfatına ayrılan 1 milyard 203 milyon manat vəsaitin 50 milyon manatının investisiya xərclərinin payına düşdüyü göstərilir, yəni ümumi kənd təsərrüfatı xərclərinin 4,2 faizi. Ona görə də artım cəmi 0,9 faiz olub, amma proqnoz 3,4 faiz idi.

Lakin bir daha sovet dönəminin statistikasına qayıdaq. 1980-ci illərdə minlərcə kənd öz məktəbi, xəstəxanası, enerji infrastrukturu ilə fəaliyyət göstərirdi. Qəsəbələşmə və böyük şəhərlər siyasəti onun nəticəsində formalaşırdı. Ona görə də Prezident kənd təsərrüfatına həsr olunan müşavirədə daxili miqrasiya məsələsinə xüsusi vurğu etdi. İnsanlar kənddən mərkəzlərə doğru can atır, məktəblər, tibb məntəqələri istifadəsiz qalır, min hektarlarla həyətyanı sahələr sovet dövründəki kimi aktiv becərilməni gözləyir. Əvəzində paytaxtda tunel və yol qovşaqlarına, əmək və mənzil bazarına daha çox yönəlməli oluruq. Niyə belədir? Çünki sərhəd kəndlərində tarif siyasəti əhalini daha çox orada saxlamağa imkan verməlidir. Elektrik, qaz, su, internet tariflərini bir neçə dəfə azaltmaqla, ilin 6-8 ayını soyuq iqlimdə keçirən dağ və sərhəd kəndlərində həyat şəraitini dəyişdirmək olar. Bir kənddə yaşayan sadə fermerlə Bakıda işləyən ofis işçi eyni kommunal tarif ödəyirsə, onda paytaxtda kirayə və əmək bazarında qeyri-mütənasib vəziyyət davam edəcək.

1970-ci illər Ulu Öndər  Heydər Əliyev elmi-texnoloji inkişafa və tədqiqatlara daha çox sərmayələr, vəsaitlər ayırırdı. 10 il ərzində elmi istehsalat birliklərinin sayı 70 dəfə, elm xərcləri 4 dəfə artmışdır. Elektron

sənayesinin əsasını təşkil edən cip və yarımkeçiricilər üzrə “Ozon” elmi istehsalat birliyi cəmi 5-6 respublikada vardı. 1990-cı illərdə onların çoxunu məhv etdilər.

2025-ci ildə elm xərcləri 1980-ci illərlə müqayisədə təxminən 4 dəfə azdı. Hər 10 min nəfərə düşən ilmi işlərimiz də ona görə azalıb. 1980-ci ildə elm xərclərinin həcmində İsrail ilə müqayisədə cəmi 2 dəfə fərq vardı, indi bu fərq böyüyüb. Ona görə elmimizin qarşısında ən böyük vəzifə alimlərin orta aylıq maaşı, laboratoriya bazalarının beynəlxalq standartlara uyğunluğu, xaricə beyin axınının qarşısının alınmasıdır.

Azərbaycan dövləti Vətən müharibəsini son model hərbi texnoloji, həm də elmi nailiyyətlərlə qazanıb. Ali Baş Komandan İlham Əliyevin akademiyanın 80-ci illiyində qarşıya qoyduğu strateji elmi vəzifələrə ayrılacaq milyardlarca manat vəsait elm üçün ÜDM-dəki 0,15 faizlik həddi keçməyə ümidvarıq ki, imkan verəcək. Bir daha, parlaq qələbəmizə səbəb olan elmimizi də zəfərə çatdırmaq üçün onun ÜDM-dəki payının 2030-cu ilə qədər 1 faiz...

**Sədrlik edən.** Çox sağ olun.

Əli Məsimli. Buyurun.

**Əli Məsimli.** Çox sağ olun, hörmətli sədr. 2025-ci ilin dövlət büdcəsinin icrasını, eləcə də Hesablama Palatasının rəyini yüksək qiymətləndiririk. Komitəmizdə bu məsələ müzakirə olunan zaman qaldırdığımız suallara kifayət qədər ətraflı cavab verildiyinə görə də təşəkkür edirik. Eyni zamanda, bəzi məqamlar var ki, iqtisadi siyasətimizdə və növbəti illərin büdcə tərtibatında nəzərə almaq lazımdır.

Bu nöqteyi-nəzərdən bir məqamı qeyd edim ki, büdcə çox vacib məsələ olan makroiqtisadi sabitlik şəraitində icra olunsa da, çox vacib bir komponentə görə, yəni ümumi daxili məhsulun artım tempinə görə 3,5

faizlik proqnozdan haradasa 1,4 faizə enməklə 2,5 dəfə yavaşıma şəraitində gedib. Bunu, əsasən, neft sektorundakı enmələrlə izah edirlər. Amma məsələ bundadır ki, bu ilin yanvar-may aylarında da bu iqtisadi artım tempi xeyli aşağı düşüb, artım olmayıb. Qeyri-neft sektorunda isə cəmi 0,4 faiz artım olub, bunun adı resessiyadır. Bu da izah olunur ki, bir sıra sahələrdə investisiyaların ertələnməsi ilə bağlıdır. Belə çıxır ki, Azərbaycanın iqtisadi artımının əsas səbəbi dövlət investisiyasıdır. Biz də hesab edirik ki, burada həqiqət var, amma yarımçıq həqiqətdir. Dövlət investisiyaları iqtisadi artıma təsir göstərir, amma o, yüz faiz müəyyənedici amil deyil.

Bu gün Azərbaycanda iqtisadi artım tempinin xeyli aşağı düşməsinin, yaşamağa başladığımız indiki dövrün tələblərinə uyğun sürətdə islahatların bir neçə amili var ki, onları sürətləndirmək lazımdır. O sahədə olan ləngimələr ilə bağlıdır ki, mütləq həmin istiqamətlərdə islahatları sürətləndirməliyik.

İkinci, əgər doğrudan da, investisiyalardan söhbət gedirsə, bizdə investisiyaların səviyyəsi ümumi daxili məhsulun 13 faizindən də aşağı düşüb. 13 faiz ilə sürətli, davamlı və dayanıqlı iqtisadi artıma nail olmaq mümkün deyil. Ona görə də həmin 13 faizə düşmüş ümumi daxili məhsul nisbətində investisiyaları 25 faizə qaldırmaq lazımdır ki, o, iqtisadi artımımıza bilavasitə ciddi təkan verə bilsin.

Bununla yanaşı, hesab edirəm ki, qeyri-neft sektorunda da artıq 0,4 faiz artım səviyyəsi böyük bir siqnaldır. Burada da bir sıra başqa şərtlərlə yanaşı, maliyyə və kredit istiqamətində əlverişli şərait yaratmaq üçün iki bankın – Aqrar Sənaye Bankının və innovasiyalar və inkişaf bankının, bu sistem yaradan bankların strukturu kimi, ayrı banklar kimi də ola bilər.

Amma bu, çox vacibdir ki, bu sahənin maliyyələşməsində çox ciddi rol oynasın.

Deputat həmkarım Zahid müəllimin fikri yarımçıq qaldı, onu davam elətdirim. Azərbaycan Prezidenti İlham Əliyevin keçən il noyabrın 3-də Milli Elmlər Akademiyasının 80 illiyinə həsr olunmuş çıxışında çox vacib bir məqam var. Çıxış çox konseptual xarakter daşıyır, amma çıxışımla bağlı məsələni deyim. Cənab Prezident deyir: “Hər kəs yaxşı bilir ki, təbii sərvətlər tükənən sərvətlərdir, gec-tez tükənəcək. Tükənməz sərvət isə intellektual potensialdır, amma o halda əgər buna sərmayə qoyulursa. O sərmayəni dövlət qoymalıdır. Ölkənin elm ictimaiyyəti, alimlər bu istiqamətdə öz səylərini göstərməlidirlər. Ona görə bu gün əsas vəzifələrdən biri texnoloji inkişafdır”.

Texnoloji inkişafın əsasını isə elm təşkil edir. Uzun illərdir, Azərbaycanda elmin inkişafına yönəlmiş vəsait ümumi daxili məhsulun 0,2 faizidir. 2025-ci ildə 0,2 faizdən də aşağı düşübdür. Bu da iqtisadi təhlükəsizlik nöqteyi-nəzərindən kritik hesab olunan həddən 10 dəfə aşağıdır. Elm sahəsində çalışanların əksəriyyətinin əməkhaqqı isə Azərbaycanın orta əməkhaqqından 1,5-1,8 dəfə aşağıdır.

Ona görə də hesab edirəm ki, elə belə mexaniki deyil, elm sahəsində ciddi islahatlar həyata keçirməklə elmə ayrılan vəsaitin həmin 0,2 faizdən əvvəlcə 1 faizə, ondan sonra da kritik həddən də yuxarı qaldırılması istiqamətində addımlar atılsın. Elm sahəsində çalışanların əməkhaqqının əvvəlcə orta əməkhaqqına çatdırılması, ondan sonra isə müqavilə münasibətləri və sair ilə də daha güclü qaldırılması istiqamətində addımlar atılsın.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Çox sağ olun. Hörmətli sədr, əziz həmkarlar, hörmətli hökumət üzvləri, qonaqlar. Bu gün müzakirəmizə təqdim olunan 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsini təhlil edərkən əminliklə deyə bilərik ki, bu sənəd Azərbaycanın iqtisadi suverenliyinin, postkonflikt dövrünün reallıqlarına adekvat və çevik dövlət idarəçiliyinin, qlobal miqyasda davam edən geosiyasi təlatümlərin, regional qeyri-müəyyənliklərin fonunda dövlətimizin nümayiş etdirdiyi qətiyyətli iqtisadi dayanıqlığın göstəricisi, milli və strateji maraqlarımızın maliyyə ekvivalenti olmaqla cənab İlham Əliyevin rəhbərliyi ilə yürüdülən strateji kursun növbəti təntənəsidir.

Görünən mənzərə odur ki, möhtərəm Prezidentin rəhbərliyi ilə həyata keçirilən iqtisadi şaxələndirmə və institusional islahatlar xətti 2025-ci ildə öz bəhrəsini açıq şəkildə verib. Həmçinin iqtisadi artımın əksərən qeyri-neft-qaz sahələri hesabına təmin edilməsi və bu sektorun ümumi daxili məhsulda payının yüksəlməsi də məhz dövlətin strateji hədəflərinə doğru necə inamla addımladığını, planlaşdırma və fiskal tənzimləmədə keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyulduğunu göstərir.

Büdcənin icrasını uğurlu hesab etməklə yanaşı, təbii ki, müzakirələrdə dövlət vəsaitlərinin idarə edilməsində qanunçuluq, şəffaflıq və büdcə intizamı prinsipləri ön plana çəkilməlidir. Bu istiqamətdə isə dövlət borcunun idarə edilməsi sahəsində aparılan yeniliklər, uğurlu strategiyanı, xarici borcun portfeldəki payının endirilməsi və xüsusən sərbəst xəzinə qalıqlarının yerli banklarda depozitə yerləşdirilməsi və buradan ciddi əlavə daxilolmanın təmin edilməsi dövlət aktivlərinin səmərəli idarə olunmasının bariz nümunəsidir və bu kimi proqressiv addımları yüksək qiymətləndirmək lazımdır.

Təbii ki, büdcənin icrasından danışırıqsa, bu məsələ ilk növbədə milli hədəflər zəminində təhlil edilməlidir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” kontekstində 2025-ci il dövlət büdcəsinin icrası birmənalı uğurlu və profisitli başa çatıb.

Prioritetlər üzrə qısa xülasə etsək, 2025-ci ildə büdcənin icrası analiz edilərkən aydın görünür ki, dövr üzrə qeyri-neft sektorunun artımı iqtisadi şaxələnməni sürətləndirməklə ilk prioritetimiz olan dayanıqlı iqtisadi artıma töhfə verib.

Sosial yönümlü xərclərin ümumi büdcənin üçdə birindən çoxunu təşkil edərək əhalinin sosial müdafiəsini daha da gücləndirməsi 2025-ci ili yüksək rifah cəmiyyəti quruculuğu üçün çox mühüm bir dövrə çevirib.

Müvafiq dövr üzrə elm, təhsil  və rəqəmsal texnologiyaların tətbiqi xərcləri artırılması rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanına çevirilmə istiqamətində önəmli addım olub.

Yaşıl enerji zonalarının yaradılması və ekoloji layihələrin maliyyələşdirilməsi 2025-ci ildə də milli prioritet çərçivəsində davam etdirilib.

2025-ci il əsas prioritetimiz olan Böyük Qayıdış üçün də önəmli bir dövr kimi tarixə düşüb. Hesabat dövrü ərzində Böyük Qayıdış proqramı çərçivəsində Qarabağa və Şərqi Zəngəzura bərpa edilmiş yaşayış məntəqələri üzrə, ümumilikdə, 3893 ailə olmaqla 15781 nəfər keçmiş məcburi köçkün köçürülüb. Şəxsi müraciətlər və dövlət ehtiyacları üzrə digər yerləşdirmələr də daxil olmaqla mənzillə təmin olunan sakinlərin ümumi sayı 17546 nəfərə – 4370 ailəyə çatıb.  Böyük Qayıdış çərçivəsində bərpa olunan və əhalinin qayıdışı reallaşan şəhər, qəsəbə və kəndlərin siyahısı coğrafi olaraq genişlənib və işğaldan azad edilmiş ərazilərdə bərpa edilərək və tikilərək istifadəyə verilmiş, əhalinin daimi məskunlaşdırılmasına

başlanılmış 10 şəhər, 3 qəsəbə və 31 kənd olmaqla yaşayış məntəqələrinin ümumi sayı 44-ə çatıb. Bax, budur reallıq.

Büdcənin uğurlu icrasını hər fürsətdə "iqtisadiyyat çökür" deyə ucuz manipulyasiyalarla gündəm axtaran ünsürlərə, psevdo iqtisadçılara, populist şüarlardan uzağa gedə bilməyən, maliyyə savadından və hüquqi təfəkkürdən məhrum radikallara, Qarabağda və Şərqi Zəngəzurda aparılan nəhəng quruculuq işlərini, ordumuzun müdafiə qüdrətinin maliyyələşdirilməsini görməzdən gələnlərə, qənaət rejimini "maliyyə böhranı" kimi qələmə verməyə çalışanlara, qərbin anti-Azərbaycan dairələri və onların yerli uzantıları olan antimilli şəbəkəyə bundan yaxşı cavab ola bilməzdi.

Bu mənada 2025-ci ilin dövlət büdcəsinin icrasını konstitusion niyyət və məqsədlərimizə doğru uğurlu bir dövr, Azərbaycana qarşı yönələn hər növ daxili və xarici spekulyasiyalara isə verilən ən layiqli hüquqi, siyasi və iqtisadi cavab kimi qəbul edərək təqdim olunmuş qanun layihəsini dəstəkləyir, həmkarlarımızı da möhtərəm cənab Prezidentin rəhbərliyi ilə yürüdülən strateji kursun növbəti təntənəsi olan bu sənədin lehinə səs verməyə çağırıram.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Tahir Mirkişili. Buyurun.

**Tahir Mirkişili.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli hökumət üzvləri. 2025-ci ilin dövlət büdcəsinin icrasına dair təqdim olunmuş hesabat və Hesablama Palatasının verdiyi rəy onu göstərir ki, ötən il dövlət maliyyəsinin idarə olunması baxımından uğurlu bir il olmuşdur. Büdcə gəlirləri proqnozu üstələmiş, büdcə profisitli icra edilmiş, strateji valyuta ehtiyatlarımız yüksək səviyyədə qorunmuşdur.

Müzakirəyə təqdim olunan sənədlər 2025-ci il dövlət büdcəsinin icrası zamanı, ümumilikdə, dövlət maliyyəsinin sabitliyini və büdcə intizamının qorunduğunu göstərir. Dövlət borcunun aşağı olması, strateji valyuta ehtiyatlarımızın qorunması, iqtisadi müstəqilliyimizi 2025-ci ildə daha da gücləndirmiş və milli maraqlara xidmət etməsinə imkan yaratmışdır.

Möhtərəm Prezident cənab İlham Əliyevin xüsusi diqqət yetirdiyi Böyük Qayıdış proqramının sürətlə icra olunmasına, böyük qələbəmizin möhkəmlənməsinə xüsusi zəmin yaratmışdır. Dövlət büdcəsi 2025-ci ildə bu məqsədlərə nail olmaqda mühüm rol oynamış və lazımi zəmin yaratmışdır.

Hörmətli həmkarlar, dövlət büdcəsi dövlətin ən vacib maliyyə sənədi olması ilə yanaşı, həm də iqtisadiyyatın bir güzgüsüdür. Hesab edirəm ki, büdcənin icrasını qiymətləndirərkən yalnız fiskal rəqəmlər ilə kifayətlənməməli, həmin göstəricilərin arxasında duran iqtisadi prosesləri təhlil etməli, nəticələrin keyfiyyətinə, uzunmüddətli dayanıqlığına diqqət yetirməliyik. Bu kontekstdə bəzi fikirlərimi sizinlə bölüşmək istərdim.

Dövlət büdcəsinin icrası ilə bağlı hesabata Hesablama Palatasının təqdim etdiyi rəyin təhlili bir sıra maraqlı məqamları üzə çıxarmışdır. Diqqət cəlb edən məqamlardan biri iqtisadi artım tempi ilə bağlıdır. Təqdim edilmiş sənədlərdə keçən il ümumi daxili məhsulun artım tempinin 1,4 faiz, qeyri-neft-qaz ümumi daxili məhsulun artım tempinin isə 2,7 faiz təşkil etməsi göstərilmişdir. Qeyd edim ki, həmin göstəricilər 2024-cü ildə 4,1 faiz və 6,2 faiz təşkil etmişdir.

Qeyd etmək istərdim ki, iqtisadi siyasətdə yüksək artım tempi heç də hər zaman inkişafın göstəricisi sayılmır. Eyni zamanda, aşağı artım tempi də hər zaman zəif inkişaf demək deyildir. Ümumi daxili məhsulun aşağı

artım tempi ilə də daha keyfiyyətli inkişafa nail olmaq mümkündür. Burada əsas məsələ artımın sürəti deyil, onun mənbəyi və keyfiyyətidir.

Məsələn, əgər iqtisadiyyat ildə 1 faiz artırsa, amma məhsuldarlıq yüksəlir, texnologiya tətbiq olunur, ixrac şaxələnir, gəlirlər artırsa, bu, sağlam inkişaf sayılır. Bu, bəzi qonşu ölkələrdə kredit köpüyü və reeksport hesabına əldə edilən illik 6-7 faizlik iqtisadi artımdan daha yaxşı artım sayılır.

Hesab edirəm ki, burada diqqət çəkən əsas məsələ ölkəmizdəki iqtisadi artım tempinin dalğalı olmasıdır. Xüsusi ilə də qeyri-neft-qaz sektorunda formalaşan ümumi daxili məhsulun artım tempinin dalğalı olması, bu məsələnin daha dərindən təhlilinə və onun səbəblərinin neytrallaşmasına daha çox diqqət yetirməsinə ehtiyac yaratmışdır. Çünki dalğalanmalar investisiyalara, məşğulluğa, dövlət büdcəsinə mənfi təsir edir.

İkinci məsələ. Palatanın təhlili göstərir ki, iqtisadi artımın əsas yükünü nəqliyyat və ticarət sektoru daşımışdır. Bu göstəricilər onu göstərir ki, iqtisadiyyatımızda artımın daha geniş əsaslar üzərində formalaşmasına nail olmağa ehtiyac vardır. Belə ki, biz artıq daha çox xidmət sektorunun hesabına böyüyürük. Lakin məhsuldarlıq və yeni dəyər yaradan sahələrdə inkişaf tempinin sabit artımına nail olmağa ehtiyac vardır.

Üçüncü məsələ nəticə yönümlü büdcələşmə ilə bağlıdır. Biz xərc maddələrinin icrası ilə bağlı hesabat alırıq. Xeyli məlumatlar təqdim olunur, – mən bunu faydalı sayıram, – amma eyni zamanda, fikrimcə, xərclənən vəsaitlərin hansı nəticələr yaratdığı barədə daha geniş məlumatlara sahib olmaq effektiv ola bilərdi. Ümumiyyətlə, mən hesab edirəm ki, büdcə idarəçiliyinin növbəti mərhələsi vəsaitlərin mənimsənilməsindən nəticələrin ölçülməsinə keçid olacaqdır.

Dördüncü məsələ yerli büdcələrin maliyyə müstəqilliyinin artırılmasına bağlıdır.

Hörmətli xanım sədr, mən son 2 gün ərzində Yeni Azərbaycan Partiyasının tədbirləri çərçivəsində Şərqi Zəngəzur iqtisadi rayonunda sakinlər, sahibkarlar və xüsusi nümayəndəlik təmsilçiləri ilə görüşlərdə iştirak etmişəm. Çox yaxşı nəticələr əldə olunub. İqtisadi sahələr canlanır. İşğaldan azal olunmuş ərazilərdə yaradılan xüsusi nümayəndəlik institutu özünü doğruldur. Sakinlər çox razılıq edirlər.

Bu kontekstdə qeyd etmək istəyirdim ki, fikrimcə, xüsusi nümayəndəlik institutunun sərbəst gəlir mənbələrinin formalaşması üçün qanunvericilik aktlarında müəyyən dəyişiklik etməyə ehtiyac yaranmışdır. Bu, yerli institutların daha çevik, daha effektiv olmasına şərait yarada, dövlət büdcəsinin xərclərini azalda bilər.

Müasir təcrübədə də xeyli belə nümunələr var. Məsələn, bir çox ölkələrdə otellərdə ödənən “city taxes”, resursların istismarı və digər məsələlərlə bağlı ödənişlərin bir hissəsi yerli büdcələrə yönəldilir.

Sonuncu məsələ isə inflyasiya ilə bağlıdır. Hesab edirəm ki, inflyasiyanın formalaşması, həm xarici, həm də daxili amillərin təsir etməsi bu sahədə hökumətlə Mərkəzi Bankın birgə fəaliyyətini motivasiya etməkdədir.

Hörmətli həmkarlar, hesab edirəm ki, ümumilikdə, 2025-ci ilin dövlət büdcəsinin icrası makroiqtisadi sabitliyin qorunması və dövlətin sosial müdafiə və inkişaf prioritetlərinin maliyyələşməsi baxımından müsbət qiymətləndirilməlidir.

Yekun olaraq hesabatın qəbul edilməsini məqsədə uyğun hesab edirəm. Sizi bir daha 15 iyun qurtuluş bayramı münasibəti ilə təbrik edirəm və fəaliyyətinizdə uğurlar arzu edirəm.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Tahir müəllim.

Sadiq Qurbanov. Buyurun.

**Sadiq Qurbanov.** Çox dəyərli Sahibə xanım, hörmətli parlament üzvləri, hökumət nümayəndələri. Bu gün müzakirəmizə təqdim olunan qanun layihəsi və Hesablama Palatasının bununla bağlı rəyi gələcəyə yönəlmiş milli vizionumuzun konseptual göstəricisidir. Təqdimat edənlərə öz təşəkkürümü bildirirəm.

Qeyd etmək istəyirəm ki, həmkarımız Tahir müəllimin qeyd etdiyi kimi, rəqəmlər hər zaman dəyişə, iqtisadi göstəricilər qlobal bazardan asılı olaraq dalğalana bilər, lakin dəyişməz olan bir həqiqət vardır, bu da Azərbaycanın iqtisadi siyasət fəlsəfəsinin dayanaqlıq, daxili resursların diversifikasiyası və gələcək nəsillərin rifahı üzərində qurulmasıdır.

Mən çıxışımda diqqətimi büdcə icrasının fundamental, konseptual istiqamətlərinə, enerji təhlükəsizliyinə, ekoloji ekosistemimizə və yaşıl gələcəyə keçid strategiyamıza yönəltmək istəyirəm.

Birinci istiqamət qlobal konyunktur və dekarbonizasiya trendidir ki, dünya bu gün sürətli və qaçılmaz bir transformasiya dövrünü yaşayır. Hesabat ili görsətdi ki, ənənəvi enerji sektorunda qlobal konyunktur səbəbindən daralmalar müşahidə olunsa da, ölkəmizin ümumi iqtisadi artımı tamamilə qeyri-neft sektorunun, yəni real sənayenin, innovasiyaların və xidmət sahələrinin hesabına təmin edilmişdir. Bu, cənab Prezidentimizin rəhbərliyi ilə uzun illərdir həyata keçirilən iqtisadiyyatın şaxələndirilməsi strategiyasının nəticəsidir.

Bununla belə, biz reallığı düzgün qiymətləndirməliyik. Büdcə gəlirlərimizin strukturunda ənənəvi enerji sektorunun çəkisi hələ də əhəmiyyətli dərəcədə qalmaqdadır. Bu amil bizə bir strateji öhdəlik qoyur.

Biz neft rasionallığından yaşıl enerji rasionallığına keçidi daha da sürətləndirməli və daxili iqtisadiyyatımızın strukturunda ekoloji innovasiyalara dayanan sahələrin sayını artırmalıyıq.

İkinci istiqamət "yaşıl büdcə" və ekoloji fondların effektiv idarə edilməsidir ki, bu da Azərbaycanın ortamüddətli inkişaf strategiyasında təmiz ətraf mühit və yaşıl artım ölkəsinin milli priotetlərindən biri kimi təsbit edilmişdir. Biz dövlət büdcəsinin icrasına milli prioritetləri maliyyələşdirən strateji alət, "yaşıl büdcə" prizmasından da yanaşmalıyıq.

Hesabatda məqsədli büdcə fondlarının idarəetmə mexanizmində edilmiş hüquqi dəyişikliklər və vəsaitlərin vahid xəzinə sistemində təmərküzləşməsi qeyd olunur. Xüsusi ilə mineral xammal bazasının bərpası, habelə su bioresurslarının mühafizəsi və artırılması ilə bağlı fondların fəaliyyəti konseptual olaraq yenidən dəyərləndirilməlidir.

Layihə dövründə adıçəkilən "yaşıl büdcə" ilə bağlı, təəssüf ki, büdcənin icrası ilə əlaqədar təqdim edilmiş sənədlərdə müfəssəl məlumatlara rast gəlmirik. Düşünürəm, bizim yanaşmamız belə olmalıdır ki, təbii resurslardan istifadəyə və ekoloji haqlara görə büdcəyə daxil olan hər bir manat birbaşa olaraq həmin resursların bərpasına və ölkədə sıfır tullantı fəlsəfəsinin qurulmasına xidmət etməlidir.

Üçüncü istiqamət işğaldan azad edilmiş ərazilərdə ağıllı mühit və dayanıqlı investisiyalar olmalıdır ki, bu investisiya xərclərinin dinamikası dövlətimizin quruculuq fəaliyyətinin miqyasını göstərir.

Qarabağın və Şərqi Zəngəzurun bərpası mərhələsində böyük struktur, infrastruktur layihələri öz ilkin mərhələsini tamamladıqca bizim qarşımızda yeni vəzifələr dayanır. Dövlət əsaslı vəsait qoyuluşlarının səmərəliliyi yoxlanarkən bu layihələrin icra sürəti, keyfiyyəti xüsusi nəzarətdə saxlanılmalıdır. Su idarəsi, tullantıların səmərəli idarə olunması və

alternativ enerji şəbəkələrinin inteqrasiyası sayəsində hər hansı bir ləngimə yaşıl zona konsepsiyamıza xələl gətirə bilər. Hökumətin əsaslı vəsait qoyuluşu siyasətində ekoloji komponent hər zaman ən mühüm meyar olaraq qəbul edilməlidir.

Eyni zamanda, qanunvericiliyin tələblərinə tam əməl etməklə, investisiya xərclərinin sektoral icrası ilə bağlı məlumatların, xüsusi ilə maliyyə və qeyri-maliyyə məlumatlarının bizə təqdim olunan sənədlərdə birgə verilməsi bu sənədlərin analitik dəyərlərinin artırılmasına, görülən işlərin qiymətləndirilməsinə xidmət edə bilər.

Qeyd olunan konseptual hədəfləri, tövsiyələri rəhbər tutaraq mən Azərbaycan Respublikasının 2025-ci ildə dövlət büdcəsinin icrası haqqında qanun layihəsini dəstəkləyirəm və deputat həmkarlarımı da dəstəkləməyə dəvət edirəm.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Kamran Bayramov. Buyurun.

**Kamran Bayramov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar və hökumət nümayəndələri. Bu gün müzakirəmizə təqdim olunan 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsi və ona dair Hesablama Palatasının rəyi ölkəmizin qlobal siyasi, iqtisadi gərginliklər fonunda nümayiş etdirdiyi makroiqtisadi sabitliyin və yüksək fiskal intizamın bariz nümunəsidir.

Sənədlərdən göründüyü kimi, hesabat ilində dövlət büdcəsinin gəlirləri nəzərdə tutulan proqnozu üstələyib, qeyri-neft sektorundan daxilolmalarda müsbət dinamika müşahidə olunub. Xüsusi ilə vurğulamaq lazımdır ki, büdcə xərclərinin optimallaşdırılması, rəqəmsallaşmanın dərinləşməsi və

şəffaflığın artırılması nəticəsində ötən ilin dövlət büdcəsi profisitlə başa çatıb.

Eyni zamanda, büdcənin sosial yönümlü xarakteri qorunub, əhalinin rifahının yüksəldilməsi, hərbi qüdrətimizin artırılması və işğaldan azad olunmuş ərazilərin yenidən qurulması kimi strateji hədəflərin maliyyə təminatı tam həcmdə yerinə yetirilib. Strateji valyuta ehtiyatlarımızın artması isə iqtisadiyyatımızın xarici təsirlərə qarşı dayanıqlığını bir daha sübut edir.

Fürsətdən istifadə edərək seçildiyim 100 saylı Göygöl–Daşkəsən–Kəlbəcər seçki dairəsinin bəzi yaşayış məntəqələrində keçirtdiyim görüşlər zamanı seçicilər tərəfindən qaldırılmış və təcili olaraq həll edilməsi tələb olunan cəmi bir məsələnin iclasda iştirak edən hökumət nümayəndələrinin diqqətinə çatdırmaq istərdim.

Belə ki, cənab Prezidentin 2014-cü il 4 iyul tarixli "Göygöl rayonunun Yeni Zod–Çaykənd–Qarabulaq–Quşçu–Sarısu avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncamına uyğun olaraq həmin avtomobil yolunun tikintisi həyata keçirilib. Həmin avtomobil yolunun 4-cü kilometrində 1960-cı illərdə inşa edilmiş tağlı körpü yerləşir. Aparılmış texniki baxış zamanı körpünün dayaqlarında və daşıyıcı konstruksiyalarında ciddi aşınma və dağılma halları, yol örtüyündə çökmələr, kənar hissələrdə isə sürüşmə əlamətləri müəyyən edilib. Ərazinin dağlıq relyefə malik olması və dağlardan gələn sel sularının intensiv təsiri nəticəsində torpaq yuyulması prosesi sürətlənib, körpünün konstruktiv dayanıqlığı əhəmiyyətli dərəcədə zəifləyib, onun uçması ehtimalı olduqca yüksəkdir.

Mövcud vəziyyət nəqliyyat vasitələrinin maneəsiz hərəkəti üçün ciddi təhlükə yaradır. Sözügedən avtomobil yolu 5 yaşayış məntəqəsinin və təxminən 5 min nəfər əhalinin rayon mərkəzi ilə yeganə nəqliyyat əlaqəsidir.

Yaz aylarında yağıntıların artması isə sel sularının təsirini daha da gücləndirib və mövcud vəziyyəti daha da təhlükəli həddə çatdırıb.

Körpünün mövcud vəziyyətinin fövqəladə hadisə riski yaratması ehtimalı nəzərə alınaraq, yerində texniki qiymətləndirmənin aparılması və zəruri təhlükəsizlik tədbirlərinin görülməsi məqsədi ilə rayon icra hakimiyyəti tərəfindən aidiyyəti qurumlara dəfələrlə müraciətlər ünvanlanıb, lakin problemin həlli bir az ləngiyir.

Hörmətli hökumət nümayəndələrindən, xüsusi ilə də Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən qeyd etdiyim problemin həlli üçün zəruri və təxirəsalınmaz tədbirlərin görülməsini xahiş edirəm.

Layihəyə gəldikdə isə, bütövlükdə, layihəyə səs verəcəyəm, həmkarlarımı da ona səs verməyə dəvət edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, saat 1-dir. Fasiləsiz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən təklifi səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Təklif qəbul edildi. Biz fasiləsiz işləyirik.

Xahiş edirəm, siyahını göstərin. Növbəti çıxış Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. İlk növbədə mən də hər kəsi Milli Qurtuluş Günü münasibəti ilə təbrik edirəm. Bu, sadəcə olaraq, bir tarixi hadisə deyil, Azərbaycanın taleyini həll edən bir hadisə idi. Əgər 15 iyun 1993-cü il olmasaydı, hesab edirəm ki, Azərbaycanın müstəqilliyi böyük bir sual altında olardı. Azərbaycanın parçalanması, Azərbaycanda vətəndaş müharibəsinin tək həmin dövrdə deyil, onilliklərlə davam etməsi tamam real bir ssenari olardı. Ancaq Ulu Öndər Heydər Əliyevin böyük siyasətə qayıdışı, Azərbaycan xalqının böyük oğlunun gördüyü fəaliyyətin Azərbaycanın bugünkü inkişafını təmin etdiyini göstərdi. Bugünkü Azərbaycanın bütün reallıqları məhz həmin gündən başlanan yolumuzun nəticəsidir. Torpaqlarımız işğaldan azad olunub, Azərbaycan beynəlxalq birlikdə yüksək nüfuza malikdir, Azərbaycan müstəqil surətdə öz daxili və xarici siyasətini müəyyənləşdirir.

Eyni zamanda, 2 gündən sonra 2021-ci ildə Şuşada Azərbaycanla Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsinin 5 illiyidir. Bu hadisənin özü də göstərdi, Azərbaycan dost seçimində düzgündür. Azərbaycanla qardaş Türkiyənin dostluğu həm Azərbaycanın, həm də Türkiyənin müstəqilliyinin möhkəmlənməsində, qarşılarında duran problemin həllində böyük rol oynayır.

Müzakirə etdiyimiz məsələ ilə bağlı isə bildirmək istəyirəm ki, biz, əslində, bir büdcəni deyil, iki büdcənin icrasını müzakirə edirik. Birinci, dövlət büdcəsinin, ikincisi isə, işğaldan azad olunan ərazidə görünən işlərin vəziyyəti ilə bağlı büdcəni. Düzdür, işğaldan azad olunan ərazilərdə gördüyümüz işlər ümumdövlət büdcəsinin tərkib hissəsidir, amma orada görülən işlər büdcəmizin həm möhkəmlənməsi, həm də gələcəkdə büdcəmizin daha böyük olması üçün bir zəmanət rolunu oynayır.

Vaxtaşırı verilən hesabatlar onu göstərir ki, orada görülən işlər dövlətin, şəxsən cənab Prezidentin nəzarətindədir, vaxtaşırı cənab Prezidentimizin həmin ərazilərə səfərləri, ayrı-ayrı obyektlərin açılışı, artıq 40-dan çox yaşayış məntəqəsinə 80 mindən çox insanın geri qayıtması, işlə təmin edilməsi, bütün bunlar Azərbaycanın sosial-iqtisadi inkişaf xəttinin düzgün olduğunu göstərir.

Bizə verilən hesabat göstərir ki, büdcə məsələsində dövlətin apardığı siyasət nəticəsini verir. Maliyyə durumumuz möhkəmdir. Azərbaycanın milli valyutası olan manat artıq 8 ildir ki, stabildir. Cənab Prezidentimiz bir müddət əvvəl Çexiyanın Baş naziri ilə görüşdə bunu xüsusi ilə vurğuladı. Əlbəttə, iqtisadi siyasət düzgün olanda, dövlət məsələlərini diqqətdə saxlayanda, azad sahibkarlığa yardım edəndə, bazar münasibətlərinə şərait yaradılanda iqtisadi inkişaf nəticəsini verməlidir.

Səsləndirilən rəqəmlər də kifayət qədər ciddidir. Büdcənin 40 faizə qədəri sosial yönümlüdür, büdcəyə daxil olan 52 faiz gəlirlər qeyri-neft sektorundan gələn gəlirlərdir və bu rəqəm artmaqda davam edir. Büdcə öhdəlikləri də bir qayda olaraq yerinə yetirilir, büdcə intizamı möhkəmdir. Eyni zamanda, iqtisadi inkişafımızın perspektiv sahələri vaxtaşırı çox ciddi surətdə müzakirə olunur.

Məsələn, bir müddət əvvəl cənab Prezidentin sədrliyi ilə Bakı və Abşeronda su təchizatı məsələlərinin geniş müzakirə edilməsi, aqrar sektordakı vəziyyət və onun inkişafı ilə bağlı müzakirələr göstərdi ki, perspektiv məsələlər vaxtında gündəliyə qoyulur, vaxtında onunla bağlı müzakirələr keçirilir. Eyni zamanda, mən çox istərdim ki, bu sahə ilə məşğul olan strukturlar vaxtaşırı deputat qruplarını da bu istiqamətdə görülən işlərlə daha geniş tanış edərdilər. Yerlərə bizim səfərlərimiz təşkil olunardı ki,

məlumatımız birbaşa bizim öz təəssüratlarımızla, aldığımız rəqəmlərlə görünərdi.

Büdcənin icrası məsələsinin müzakirəsində deputatların öz seçildiyi regionlarla bağlı məsələlər qaldırmaları normal bir haldır. Seçicilərlə görüşürük və bu, eyni zamanda, bu və ya digər sahədəki vəziyyətin müvafiq qurumların, rəhbərlərin diqqətinə çatdırılmasını vacib edir. Mingəçevirdən, seçildiyim Mingəçevir şəhəri ilə bağlı iki məsələni mən hökumətin, konkret olaraq hörmətli Sahil müəllimin diqqətinə çatdırmaq istəyirəm.

Mingəçevir iri sənaye şəhəri olub və sənaye şəhəri olmaqda davam edir. Amma iş burasındadır ki, keçid dövründə iri sənaye müəssisələrinin bir hissəsi fəaliyyətini dayandırdı, düzdür, yeniləri yaranır, iş yerləri yaradılır. Mingəçevir...

**Sədrlik edən.** Xahiş edirəm, Siz çıxışın davamını yazılı sürətdə çatdırın.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mikrofon verin. Fərid müəllim, deyin, versinlər. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Mingəçevirdə 11 ailə yataqxanası var. Minlərcə insan orada yaşayır və bu insanların böyük əksəriyyətinin yeni mənzil almaq üçün, çox təəssüf ki, imkanları yoxdur. Düzdür, bəziləri ev alırlar, amma onların yerinə yeniləri gəlir. Mən təklif edirdim ki, Mingəçevirdəki o keçmiş zavod-fabrik yataqxanaları ilə bağlı xüsusi bir proqram qəbul edilsin. Orada yaşayan insanlar üçün sosial evlər tikilərdi və bu həmin problemin tədricən aradan qaldırılmasına kömək edər.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Rizvan Nəbiyev. Buyurun.

**Rizvan Nəbiyev.** Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, həmkarlar. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü iqtisadi və maliyyə siyasəti nəticəsində Azərbaycanda güclü makroiqtisadi və makrofiskal dayanıqlıq formalaşıb. Bu gün ölkəmizin strateji, valyuta və qızıl ehtiyatları ümumi daxili məhsulun həcmini üstələyir, xarici borcun səviyyəsi isə davamlı olaraq azalır. Dövlətimizin düzgün maliyyə idarəçiliyi, eləcə də enerji və iqtisadi şaxələndirmə siyasətinin nəticəsi olaraq, strateji, valyuta ehtiyatlarımız 88 milyard ABŞ dolarını ötüb. Bunun sayəsində və Prezidentin strateji baxışlarına uyğun, ölkəmizin uzunmüddətli inkişaf proqramlarının həyata keçirilməsi üçün möhkəm maliyyə bazası formalaşdırılıb. Dövlət Neft Fondundan transferlərin növbəti illərdə azaldılması planlaşdırılıb.

Başqa bir məsələ iqtisadiyyatın şaxələndirilməsindən əldə olunan konkret nəticələrdir. Ötən il ümumi daxili məhsulda qeyri-neft sektorunun payı 71 faiz olub, başqa sözlə, neft-qaz sektorunun payı isə 30 faizdən aşağı olub. Bütün bu məsələlərlə bağlı biz bu günlər həm hörmətli maliyyə nazirinin, həm də hörmətli iqtisadiyyat nazirinin mətbuatda geniş müsahibələri ilə tanış olduq. Burada, həqiqətən, növbəti illərdə çox müsbət bir mənzərə və eyni zamanda, konkret faktlar barədə onların fikrini eşitdik. Başqa bir vacib məsələ isə çağırışlarla bağlıdır və biz gördük ki, hökumətin çox aydın strategiyası var. Bu mənada bu məsələlərlə bağlı bizim profil komitənin, hörmətli Azər müəllimin təqdimatını da mən tam şəkildə bölüşürəm və ümumi olaraq konseptual məsələlərlə bağlı fikirlərimi bölüşmək istəyirəm. Çünki Prezident İlham Əliyevin də vurğuladığı kimi, iqtisadi inkişafa nail olmaq, sosial rifahın təmini, dövlətimizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi üçün vacib olan şərt təhlükəsizliyin təmin olunmasıdır.

Təhlükəsizliyin təmin olunması da, təbii ki, dövlətin malik olduğu resursları, coğrafi mövqenin üstünlüklərini nəzərə almaqla yönəltməsi və digər əlaqəli faktorlarla bağlıdır. Burada bu gün bizim əldə etdiyimiz uğurlar vurğulandı. Mən bir məqamı xüsusi vurğulamaq istəyirəm. O da Azərbaycanın formallaşdırdığı sülh gündəliyidir. Bəli, bu inkarolunmaz faktdır ki, bu sülh gündəliyi regionda bundan sonrakı dayanıqlı inkişafın əsasında dayanır və Ermənistanda keçirilən seçkilərdə hökumətin seçki platformasının əsasında Azərbaycanın sülh gündəliyi dayanırdı. Biz gördük ki, seçkilərə təsir edən güc mərkəzləri var və onlar açıq şəkildə də öz namizədlərini dəstəkləyirdilər, resurslarını ortaya qoyurdular. Azərbaycanın mövqeyi passiv mövqe idi. Biz sülh gündəliyini formalaşdırdıq. Prezidentin sülh təşəbbüsləri qarşı tərəfi məcbur etdi ki, revanşizmdən geri çəkilsin. Biz bilirik ki, hazırki hökumət heç də hakimiyyətə gələndə sülh çağırışları ilə hərəkət etmirdi və onlar hətta anneksiya etmək, işğalın nəticəsini leqallaşdırmaq istəyirdilər. Məhz Azərbaycanın sülh gündəliyinin nəticəsində regionda yeni bir siyasi reallıq yarandı. Ermənistanda da elektoratın sülh gündəliyini dəstəkləməsini biz müsbət dəyərləndiririk. Çünki sülh gündəliyinin digər tərəfi Ermənistan hökumətidir və bundan sonra paraflanmış sülh sazişinin imzalanması, həyata keçirilməsi, implementasiyası bunun üzərində qoyulub. Bizim hələ heç diplomatik münasibətlərimiz də yoxdur. Çox vacibdir ki, sülh sazişi bizim şərt yerinə yetiriləndən sonra imzalansın, ratifikasiya olunsun və orada yer almış 17 bəndin hər birinin həyata keçirilməsi üçün üzərinə götürdüyü öhdəlikləri yerinə yetirsin. Çünki işğal zamanı bizə dəyən ziyan ən konservativ hesablamalara görə 150 milyard ABŞ dollarından çoxdur. Bu gün orada olan bərpa, quruculuq işləri, təbii ki, dövlət üçün bir maliyyə yüküdür, bu, inkarolunmaz bir faktdır. Ötən illərdə, Zəfərimizdən sonra 25 milyard

manatdan çox vəsait ayrılıb və növbəti illərdə də bu milyardlar həmin bölgələri gözləyir.

Burada da mən bir müsbət dinamikanı vurğulamaq istəyirəm, çünki regionların profilinə uyğun, deməli, sənaye imkanlarının gücləndirilməsi idi. Misal üçün, Ağdam Sənaye Parkının region üzrə profili fərqlidir, Arazvadisi iqtisadi zonasının profili isə tamamilə fərqlidir. Çünki burada Zəngəzur dəhlizinin verdiyi üstünlüklərdən istifadə etməklə logistik imkanlarının gücləndirilməsi, nəqliyyat tarif funksiyasının gücləndirilməsi məsələləri öndə dayanır.

Vurğulamaq istədiyim başqa bir məsələ aqrar sektorla bağlıdır. Bu günlərdə Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirildi və orada proqram xarakterli strateji hədəflər müəyyənləşdirildi. Bilirsiniz, 2004-cü ildən bəri regionların inkişaf proqramları nəticəsində biz müəyyən nəticələrə nail olmuşuq, xüsusi ilə 2026–2030-cu illəri əhatə edəcək yeni dövlət proqramı isə bu sahədə, deməli, məsələlərin həlli istiqamətində çox aydın strateji hədəf müəyyənləşdirir. Burada vacib bir məsələ dövlət–özəl tərəfdaşlığı məsələsidir. Növbəti illərdə biz 5 milyard manat məbləğində vəsaitin hər iki sektorun hesabına mobilizasiya edilməsinin, deməli, planlarını görürük.

Bu mənada mən hökumətin hesabatını dəstəkləyirəm və dövlət büdcəsi haqqında qanunun da lehinə səs verəcəyəm.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Rizvan müəllim. Siz çox düzgün bir ifadə işlətdiniz. “Azərbaycanın passiv münasibəti” o ifadə çox düzgündür. Çünki Ermənistanda keçirilən seçki çox həssas məsələdir. Gördünüz, Fəzail müəllim Sahib müəllimin çıxışından sonra dərhal reaksiya verdi. Ancaq Sahib müəllimin dediyi də elə bu fikir idi ki, passiv münasibət. Çünki cənab

Prezident özü bax, bu zalda demişdi ki, "bizim qələbəmiz bir çox layları tərpətdi" və regionda da situasiyanı tamam dəyişdirdi. Çox sağ olun.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli qonaqlar, hörmətli millət vəkilləri. Mən də təqdim olunan qanun layihəsini dəstəkləyirəm və səs verəcəyəm. Eyni zamanda, birinci oxunuşun tələblərinə uyğun olaraq, bir sıra konseptual məsələlərə diqqəti çəkmək istərdim.

Əvvəla, təbii, vacib, eyni zamanda, müsbət konseptual məsələlərdən biri ondan ibarətdir ki, cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən siyasət həm ÜDM-də, həm də fiskal gəlirlərimizdə qeyri-neft-qaz sektorunun payının artmasına gətirib çıxarıb. Təbii, təqdim olunan rəqəmlər də göstərir ki, bu dinamika müsbətdir. Eyni zamanda, 2025-ci ildə əldə edilən müsbət dinamika 2026-cı ildə də davam etdiriləcək və mövcud proqnoza əsasən bu, 57 faizə qədər yüksələcək. Sözsüz, fiskal diversifikasiya və fiskal dayanıqlıq, eyni zamanda, dövlət büdcəsinin gəlirlərində qeyri-neft-qaz sektorunun payının artması ilə birbaşa bağlıdır. Biz, təbii ki, həm təqdim olunan icra sənədində, həm də 2026-cı ilin proqnoz sənədində da məhz bu pozitiv dinamikanı müşahidə edirik.

Eyni zamanda, bir sıra konseptual çağırışları da təqdim etmək istərdim. Təbii ki, vacib konseptual çağırışlardan biri büdcə proqnozlaşdırılmasında olan metodologiyanın tətbiqi istifadəsi ilə bağlıdır. 2025-ci ilin büdcəsinin icrası ilə bağlı sənəd də göstərir ki, proqnozlarda və xüsusən də xərc proqnozunda icra ilə müqayisədə xeyli kənarlaşmalar var. Nəzərə alaq ki, 2025-ci ildə dövlət büdcəsinin xərclərinin 41,1 milyard manat olacağı proqnozlaşdırılmışdı və nəticədə icrada bu, 38,6 milyard manat oldu. Praktik olaraq bu ondan xəbər verir ki, 2025-ci ildə

proqnozlaşdırılan 2,8 milyard manat xərclənmədi. Bu, 7 faizə yaxın kənarlaşma deməkdir. Bu ondan xəbər verir ki, əslində, proqnozlaşma metodologiyasına baxılmalıdır. Xüsusən də nəzərə alsaq ki, 2025-ci ildə makroiqtisadi stabillik qorunub saxlanıldı, həm daxili, həm də xarici faktor olaraq proqnoza təsir göstərən xüsusi dəyişikliklər baş vermədi, o baxımdan, bir tərəfdən, konseptual olaraq proqnozlaşma metodologiyasının təkmilləşdirilməsi, digər tərəfdən isə, vəsaitin az xərclənməsinin iqtisadi təsirlərinin ayrıca qiymətləndirilməsi vacibdir. Çünki nəzərə alaq ki, 3 milyard manata yaxın vəsaitin xərclənməməsində iqtisadiyyata və eləcə də ümum daxili məhsuldakı artıma təsirlərin ayrıca qiymətləndirilməsinə ehtiyac var.

Konseptual olaraq təqdim etmək istədiyim digər təklifim, bir sıra ölkələrdə təqdim olunan büdcə ili ilə təqvim ilinin fərqləndirilməsi ilə bağlıdır. Nəzərə alaq ki, xüsusən də biz aylar və rüblər üzrə iqtisadi artım trendinə baxsaq, ilin əvvəllərində iqtisadi artım nisbətən az olur. 2025-ci ildə də birinci rübdə 0,13 faiz iqtisadi artım qeydə alınsa da, ilin yekununda bu, 1,4 faiz oldu. Sözsüz, buna təsir göstərən fərqli iqtisadi faktorlar var, amma eyni zamanda, etiraf etmək lazımdır ki, büdcə xərcləmələri də iqtisadi fəallığa və eləcə də ÜDM-dəki artıma təsir göstərən əsas faktorlardan biridir. Artıq bir sıra inkişaf etmiş ölkələr, eləcə də Böyük Britaniya, Yaponiya, Kanada və uğurlu model kimi təqdim olunan Sinqapurda, eləcə də resursla zəngin olan Küveyt və Qətərdə təqvim ili ilə büdcə ili fərqləndirilir. Əgər təqvim ili yanvarın 1-dən başlayırsa, büdcə ili aprelin əvvəlindən başlayır. Düşünürəm ki, xüsusən də ilin əvvəlindəki nisbətdən az iqtisadi artım faizi kontekstindən bunun da Azərbaycan hökuməti tərəfindən qiymətləndirilməsi və bu imkanlara baxılması məqsədəuyğun olardı.

Digər məqam konseptual olaraq prioritet xərclər üzrə səmərəlilik meyarlarının müəyyənləşdirilməsi və hesabatda öz əksinin tapması ilə bağlıdır. Öncə mənim hörmətli həmkarlarım da qeyd etdilər. Cənab Prezidentin sədrliyi ilə kənd təsərrüfatının inkişafı ilə bağlı müşavirə keçirildi və cənab Prezident tərəfindən qeyd edilən məqamlardan biri də məhz subsidiyalarla bağlı idi. 2025-ci ilin sənədi göstərir ki, bu sektora kifayət qədər böyük həcmdə subsidiyalar yönəldilib. Amma bütövlükdə, biz iqtisadi sektor olaraq baxsaq, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq 7,6 milyard manatlıq bir dəyər formalaşdırıb. Bu, ölkə üzrə ÜDM-nin cəmi 5,9 faizidir. Ona görə də bu sektor daxil olmaqla fərqli sektorlara ayrılan subsidiyaların həmin sektordakı aktivliyə və yaranan dəyərə təsirinin ayrıca qiymətləndirilməsi və bu istiqamətdə də subsidiya mexanizminə, həm də məbləğlərinə baxılması məqsədəuyğun olardı.

Eləcə də, OECD-nin təklif etdiyi prinsiplər üzrə, düşünürəm, – xüsusi ilə nəzərə alsaq ki, OECD 10 beynəlxalq standartlar üzrə qiymətləndirilmənin aparılmasını tövsiyə edir, – o baxımdan, büdcənin icrası ilə bağlı sənəddə həm gender, həm də yaşıl iqtisadiyyat və digər meyarlar nəzərə alınmaqla hesabatın hazırlanması, təqdim olunması məqsədəuyğun olardı.

Bütövlükdə, sənədi dəstəkləyirəm və səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hicran Hüseynova. Buyurun.

**Hicran Hüseynova**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli hökumət nümayəndələri, həmkarlar və hörmətli media nümayəndələri. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi və Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası barədə

illik hesabat yüksək səviyyədə hazırlanmışdır. Belə ki, hesabatda 2025-ci ildə ölkədə formalaşmış makroiqtisadi mühit, dövlət büdcəsində nəzərdə tutulmuş gəlir və xərclərin, habelə dövlət proqramlarının, işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması, bərpası üçün ayrılmış vəsaitlərin icrası haqqında və digər mühüm məlumatlar öz əksini tapmışdır.

Hesabatdan da göründüyü kimi, geosiyasi gərginliyin, qlobal çağırışların artdığı bir zamanda Azərbaycanda makroiqtisadi sabitlik təmin edilmişdir.

Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ardıcıl olaraq iqtisadi və sosial islahatlar həyata keçirilir. Aztəminatlı və həssas təbəqədən olan insanların sosial müdafiəsinin gücləndirilməsi üçün nəzərdə tutulan layihələr davam etdirilir. İşğaldan azad edilmiş ərazilər yenidən qurulur, qısa müddət ərzində nəhəng tikinti işləri görülür. Yollar, körpülər, sosial infrastruktur layihələri, yenidən qurulan kəndlər, şəhərlər, bütün bunlar Azərbaycan dövlətinin  iqtisadi imkanlarının göstəricisidir.

Mən fürsətdən istifadə edib Azərbaycan Respublikasının 2025-ci ilin dövlət büdcəsinin icrası haqqında qanun layihəsini və Azərbaycan Respublikasının 2025-ci ilin dövlət büdcəsinin icrası barədə illik hesabatı hazırlayan hökumətə və müvafiq dövlət qurumlarına öz təşəkkürümü bildirirəm. Hesabatda bir çox istiqamətlər üzrə ayrılmış vəsaitlər haqqında geniş məlumatlar verilmişdir. Məişət zorakılığına, insan alverinə, erkən nikaha məruz qalmış şəxslər, uşaqlara dair strategiyanın həyata keçirilməsi, uşaqların doğumunadək cins seçiminin qarşısının alınması, 11 rayonda fəaliyyət göstərən uşaq və ailələrə dəstək mərkəzlərinin fəaliyyətinin təmin edilməsi və digər tədbirlərin maliyyə təminatı üçün 2025-ci ilin dövlət büdcəsindən müvafiq dövlət qurumlarına 6,9 milyon manat vəsait ayrılmışdır. Bu da 2024-cü illə müqayisədə 11,2 milyon manat və ya

3 faiz çoxdur. Hər il ayrılan vəsait artır və bu, ailə institunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsinin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, dövlətin belə həssas və vacib səhiyyə diqqətinin bariz nümunəsidir.

Mən fürsətdən istifadə edərək istərdim, diqqətinizi iki məsələyə yönəldim. Son illərdə dövlət büdcəsinin icrası haqqında illik hesabatda ortamüddətli xərclər çərçivəsinin tətbiqi, proqram və nəticə əsaslı büdcə mexanizminə keçid sahəsində görülmüş işlər barəsində məlumatlar verilir. Burada təhsil, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, sosial müdafiə və sosial təminat sektorlarının fəaliyyəti, büdcə vəsaitlərindən təyinatı üzrə səmərəli və effektiv istifadənin icra vəziyyəti təhlil olunur. Müqayisəli təhlil əsasında strateji hədəflərin icrası və dövlət proqramlarının həyata keçirilməsi məqsədi ilə ayrılmış vəsaitlər haqqında şərhlər verilir. Bununla yanaşı, biz ümumi rəqəmləri görürük. Çox yaxşı olardı ki, bu vəsaitlərdən faydalananlar haqqında da daha detallı indikatorlar göstərilsin. Əgər biz nəticə yönümlülük prinsipini əsas götürürüksə, burada büdcə xərclərinin effektivliyi, qadın və kişilər, qız və oğlanlar üçün yaranan real sosial və iqtisadi nəticələr qiymətləndirilməlidir. Onu da qeyd edək ki, göstəricilər də göstərir ki, bu, hesabatda da öz əksini tapsa, daha yaxşı olardı. Bu göstəricilər daha da geniş olsun.

Bildiyiniz kimi, Prezident İlham Əliyevin sərəncamı ilə 2026–2028-ci illər üçün gender...

**Sədrlik edən.** Hicran xanım, mən Sizdən xahiş edirəm, çıxışın davamını yazılı sürətdə katibliyə verin. Siz dəstəkləyirsiniz, çox açıq bilindi.

Hörmətli, həmkarlar, təklif var, səsə qoyaq. Hamı razıdır bu fikirlə?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, onda biz münasibət bildirək. Mən məsələnin müzakirəsindən qabaq məsələ haqqında məlumat verəndə dedim, bu məsələ komitə iclasında üç saatdan çox müzakirə olunub. Elə deyilmi, Azər müəllim? Bir iclas keçirildi, bütün suallara çox ətraflı cavablar verildi və burada da səslənən bütün çıxışlarda, əslində, çox müsbət fikirlər söylənildi. Təkliflər də var, mən düşünürəm ki, növbəti komitə iclasında bu təkliflərə də baxılacaq.

İndi isə, hörmətli həmkarlar, gəlin, qanun layihəsinə birinci oxunuşda münasibət bildirək. Buyurun, səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul olundu.

Mən bizim qonaqlarımıza "sağ olun" deyirəm və sizi hörmətlə yola salırıq. Sağ olun.

Hörmətli həmkarlar, biz isə işimizə davam edirik. Nəzərinizə çatdırım ki, gündəliyin dörd məsələsindən biri beynəlxalq sənədlə bağlıdır, digəri səfirliyin təsis edilməsi haqqındadır, ikisi isə uyğunlaşdırma xarakteri daşıyır. Odur ki, bu qanun layihələri, bilirsiniz, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək. Biz indi gündəliyin 2-ci məsələsinə keçirik və bu məsələ "Gəmilərdə zərərli çirklənmə əleyhinə sistemlərə nəzarət haqqında" Beynəlxalq Konvensiyaya qoşulmaq barədə qanun layihəsidir. Bu qanun

layihəsinə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitə sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun. Dəyərli Sahibə xanım və çox hörmətli həmkarlar. “Gəmilərdə zərərli çirklənmə əleyhinə sistemlərə nəzarət haqqında” 2001-ci il tarixli Beynəlxalq Konvensiyaya qoşulmaq barədə bu beynəlxalq sənədin mahiyyətini izah etmək istəyirəm. Bu sənəd bizə nə üçün lazımdır? Bu, Azərbaycan Respublikasının ətraf mühitin qorunması, dayanaqlı inkişaf, yaşıl iqtisadiyyat, beynəlxalq əməkdaşlıq sahəsində həyata keçirdiyi strateji siyasətin mühüm bir tərkib hissəsidir. Son illər Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında ölkəmizdə ekoloji təhlükəsizlik, təbii sərvətlərdən səmərəli istifadə, yaşlı enerji mənbələrinin inkişafı, iqlim dəyişikliklərinin təsirlərinin azaldılması, bir çox digər məsələlər əsas istiqamətlərdən birinə çevrilmişdir. Bu siyasət iqtisadi inkişafla ətraf mühitin mühafizəsi arasında balansın təmin edilməsinə xidmət edir. Bu gün ratifikasiyası müzakirə olunan bu sənəd dəniz mühitinin mühafizəsinə yönəlmiş ən mühüm beynəlxalq sənədlərdən biri kimi qiymətləndirilir. Konvensiyanın əsas məqsədi gəmilərin gövdələrində istifadə edilən, dəniz ekosisteminə zərər verən çirklənmə əleyhinə sistemlərin istifadəsinə nəzarət etmək, təhlükəli maddələrin tətbiqini məhdudlaşdırmaq və təhlükəsiz alternativlərin istifadəsini təşviq etməkdir.

Məlumdur ki, keçmiş dövrlərdə bəzi gəmi örtüklərində istifadə olunan maddələr su hövzələrində yaşayan canlı orqanizmlərə mənfi təsir göstərmiş, biomüxtəlifliyin azalmasına, dəniz ekosisteminin pozulmasına səbəb olmuşdur. Buna görə də Beynəlxalq Dəniz Təşkilatı tərəfindən bu

sahədə vahid standartların müəyyən olunması zərurəti yaranmışdır və konvensiyanın əsas tərəfləri aşağıdakılardır.

Birinci, ətraf mühitə təhlükə yaradan örtük sistemlərindən istifadənin qadağan edilməsi və məhdudlaşdırılması.

İkinci, ekoloji baxımdan təhlükəsiz alternativ texnologiyaların tətbiqi.

Üçüncü, gəmilərin sertifikatlaşdırılması və texniki yoxlamalardan keçirilməsi.

Dördüncü, liman dövləti nəzarətinin həyata keçirilməsi.

Nəhayət, beynəlxalq monitorinq və məlumat mübadiləsi mexanizmlərinin tətbiqi.

Bu tələblər yalnız dəniz mühitinin qorunması deyil, həm də beynəlxalq gəmiçilikdə şəffaflığın, təhlükəsizliyin və bərabər rəqabət şəraitinin təmin edilməsinə xidmət edir.

Bu məqamda xüsusi ilə qeyd etmək istəyirəm ki, Azərbaycan bu sahədə ratifikasiyadan əvvəl də məsuliyyətli mövqe nümayiş etdirirdi. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin istismar etdiyi gəmilərdə tətbiq olunan alt örtük sistemləri uzun müddətdir ki, konvensiyanın prinsiplərinə uyğun şəkildə seçilir və ətraf mühitə zərər verə biləcək maddələrin istifadəsindən könüllü imtina edilmişdir. Bu fakt onu göstərir ki, ölkəmizin dənizçilik sektoru beynəlxalq standartların tətbiqində yalnız hüquqi öhdəlikləri deyil, həm də ekoloji məsuliyyəti əsas rəhbər tutur. Lakin hesab edirik ki, ətraf mühitin qorunması yalnız ayrı-ayrı operatorların könüllü yanaşması ilə məhdudlaşmamalıdır və Xəzər dənizinin qorunması bütün gəmi operatorlar üçün eyni səviyyədə vacib olmalıdır. Buna görə də artıq praktikada tətbiq olunan bu müsbət yanaşmanın qanunvericilikdə möhkəmləndirilməsi və bütün operatorlara şamil olunması mühüm əhəmiyyət kəsb edir.

Ratifikasiya məhz bu məqsədə xidmət edir və sənəd qəbul olunarsa, nə baş verəcəkdir? Dəniz mühitinin qorunması güclənəcək, ekoloji risklər azalacaq, beynəlxalq tərəfdaşlar qarşısında etibarlılığımız artacaq, gəmiçilik və logistika sektorunun rəqabət qabiliyyəti yüksələcək və beynəlxalq standartlara uyğun təmin ediləcək.

Eyni zamanda, qeyd edilməlidir ki, beynəlxalq texniki və ekoloji standartlardan kənarda qalmaq gələcəkdə əlavə maliyyə xərclərinə, beynəlxalq bazarlarda rəqabət imkanlarının azalmasına və bəzi hallarda liman xidmətlərindən istifadənin məhdudlaşdırılmasına da səbəb ola bilər.

Deputat həmkarlarımı bu mühüm sənədi dəstəklənməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim.

Hörmətli həmkarlar, bu qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. İndi hörmətli Səməd Seyidova söz vermək istəyirəm. Səməd müəllim, buyurun, rəyinizi bildirin.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, xanım sədr. Sadiq müəllim konvensiya haqqında çox geniş və ətraflı danışdı. Doğrudan da, bu konvensiyanın qəbul olunması həddindən artıq vacib bir məsələdir. Sadəcə, bir məqamı qeyd etmək istəyirəm. Azərbaycan həmişə beynəlxalq qanunlara, sazişlərə, konvensiyalara, protokollara, anlaşma memorandumlarına çox ciddi yanaşıb. Mən, sadəcə, iki rəqəmi çatdırıram, yəqin ki, bu, göstərici rəqəmlər olacaq. Biz 2025-ci il payız sessiyasında 24 qanun layihəsini qəbul etdik. 2026-cı ilin yaz və növbədənkənar sessiyalarında bu sazişlə yanaşı, 13 qanun layihəsi, bu il ərzində cəmi 37 konvensiya, saziş, protokol, anlaşma memorandumu qəbul olunmuşdur. Bu, bir də onu göstərir ki, Azərbaycan

beynəlxalq qanuna çox ciddi və hörmətlə yanaşan bir dövlətdir. Bu baxımdan qəbul edəcəyimiz bu saziş də xüsusi əhəmiyyət daşıyır. Sadiq müəllim bu barədə danışdı. Komitəmiz tam lehinədir, xahiş edirəm, səsverməyə qoyasınız. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Sizin səsləndirdiyiniz o rəqəmlər çox vacibdir. Çox sağ olun.

Hörmətli həmkarlar, görürəm, çıxış etmək istəyən yoxdur və mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Biz növbəti məsələyə keçiririk. Azərbaycan Respublikasının Portuqaliya Respublikasında (Lissabon şəhərində) Səfirliyinin təsis edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə də Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Yenə də mən, Səməd müəllim, sözü Sizə verirəm. Buyurun, məlumat verin.

**Səməd Seyidov.** Çox sağ olun, hörmətli xanım sədr. Doğrudan da, gözəl bayram ərəfəsində xarici siyasətimizin növbəti mühüm bir addımını parlamentdə təqdim etmək özü böyük bir şərəfdir. Bu da bir qurtuluşdur. Azərbaycanın xarici siyasəti bu gün öz təntənəsini yaşayır. Dünyada bizim 72 səfirliyimiz, 5 daimi nümayəndəmiz, 1 nümayəndəlik, təmsilçilik ofisimiz, 10 baş konsulluğumuz fəaliyyət göstərir. Ümumən, 90-a yaxın. Bu, çox

böyük bir rəqəmdir. Yadınızdadır, keçən il biz burada Bəhreyndə səfirliyin açılmasını müzakirə etdik. İndi isə Avropanın ən mühüm ölkələrindən biri olan Portuqaliyada, Lissabon şəhərində biz artıq səfirliyin təsis olunması ilə bağlı qanun layihəsinə baxırıq.

Portuqaliya bizim üçün çox vacib və əhəmiyyətli, Avropada xüsusi əhəmiyyətə malik olan bir ölkədir. Heç də təsadüfi deyil ki, Portuqaliyanın nümayəndələri Avropa Birliyində, Avropa strukturlarında mühüm vəzifələr tuturlar. Avropa Birliyi Şurasının Prezidenti cənab Koşta və başqaları.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, ən vacib məqamlardan biri ondan ibarətdir ki, biz başqa bir məsələyə də xüsusi diqqət yetirməliyik. Biz yalnız səfirliklər açmırıq. İndi elə bir dövr başlayır ki, Azərbaycanda səfirliklər açılmağa başlayır. Azərbaycana dünyanın diqqəti çoxalır. Bu yaxınlarda Azərbaycan Xarici İşlər Nazirliyində Portuqaliyanın xarici işlər naziri ilə keçirilmiş görüş nəticəsində konkret razılıq əldə olunmuşdu. Biz Portuqaliyada səfirlik açırıq, Azərbaycanda isə bu yaxınlarda Portuqaliyanın səfirliyi öz işinə başlayacaq. Bu, çox mühüm və vacib bir məsələdir ki, ölkəmizdə xarici ölkələrin nümayəndəlikləri daha çox olsun, daha geniş təmsil olunsun.

Bu nöqteyi-nəzərdən belə bir qanun layihəsini təqdim etmək və səfirliyin açılması ilə bağlı məruzə etmək özü gözəl bir işdir. Komitəmiz tam bunun lehinədir və bu sazişin, bu qanun layihəsinin təsdiq olunmasını xahiş edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Mən görürəm ki, Portuqaliya ilə dostluq qrupunun sədri kimi Samir Vəliyev yazılıb. Mən artıq dünən öz tapşırıqlarımı vermişəm, qanun qüvvəyə minən kimi Səməd müəllimlə bir yerdə səfərə gedəcəksiniz. Buyurun, Samir müəllim, mən

düşünürəm, Siz hamımızı təbrik edəcəksiniz, Siz də daxil olmaqla. Buyurun.

**Samir Vəliyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, təbii ki, Azərbaycan Respublikasının Portuqaliyada səfirliyinin açılması, belə bir qanun layihəsi ölkəmizin xarici siyasət prioritetlərinə, milli maraqlarına, eyni zamanda, beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsinə xidmət edən mühüm təşəbbüslərdən biridir. Hörmətli Səməd müəllim qeyd etdi, Portuqaliya Respublikası Avropa İttifaqının, eləcə də NATO-nun üzvü kimi Avropanın mühüm siyasi, iqtisadi və humanitar mərkəzlərindən biridir. Azərbaycan ilə Portuqaliya arasında münasibətlər qarşılıqlı hörmət və dostluq prinsipləri üzərində qurulmuşdur və mövcud əməkdaşlıq potensialı əlaqələrin daha da dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır. Lissabon şəhərində Azərbaycan Respublikasının səfirliyinin təsis edilməsi siyasi dialoqun intensivləşməsinə, iqtisadi, ticarət əlaqələrinin genişlənməsinə, investisiya, eləcə də enerji, turizm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın yeni mərhələyə yüksəlməsinə mühüm töhfə verəcəkdir.

Bununla yanaşı, səfirliyin fəaliyyətə başlaması parlament diplomatiyasının inkişafına da əlavə impuls verəcəkdir. Xüsusi ilə Azərbaycan Respublikası Milli Məclisi ilə Portuqaliya Respublikası Assambleyası arasında əlaqələrin genişlənməsi, parlamentlərarası əməkdaşlığın institusional əsaslarının möhkəmləndirilməsi və gələcəkdə Portuqaliya parlamentinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun yaradılmasına dair verəcəyi qərar, təbii ki, münasibətlərə xüsusi təkan verəcəkdir.

Belə bir dostluq qrupunun formalaşması qanunverici orqanlar arasında birbaşa dialoqun güclənməsinə, qarşılıqlı səfərlərin təcrübə mübadiləsinin və beynəlxalq platformalarda əməkdaşlığın genişlənməsinə

xidmət edəcəkdir. Eyni zamanda, Azərbaycanın regionda yaratdığı yeni reallıqların, ölkəmizin sülh gündəliyinin və milli maraqlarının Portuqaliya parlamentində daha dolğun şəkildə təqdim olunmasına əlavə imkanlar yaradacaqdır.

Eyni zamanda, onu da nəzərə almalıyıq ki, hazırda NATO-nun Parlament Assambleyasının prezidenti Marcos Perestrello məhz Portuqaliyadan olan siyasətçidir. Bu da gələcəkdə əlaqələrin daha da yaxınlaşması baxımından xüsusi önəm kəsb edəcəkdir.

Səfirliyin təsis edilməsi, təbii olaraq, Portuqaliyada yaşayan Azərbaycan vətəndaşlarının hüquq və mənafelərinin qorunmasına, onlara göstərilən konsulluq xidmətlərinin daha operativ və səmərəli təşkilinə də mühüm töhfə verəcəkdir. Müasir dövrdə diplomatik nümayəndəliklər yalnız siyasi münasibətlərin deyil, həm də iqtisadi diplomatiyanın, humanitar əməkdaşlığın və parlament diplomatiyasının mühüm alətlərindən birinə çevrilmişdir.

Bu səbəbdən, təqdim olunan qanun layihəsini dəstəkləyir və onun qəbul edilməsini məqsədəmüvafiq hesab edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik və bu məsələ Torpaq Məcəlləsində, “Torpaq icarəsi haqqında” Qanunda və digər 4 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Tahir Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**Tahir Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hörmətli deputat həmkarlar. Adları seçilən qanunlara edilmiş dəyişikliklər “Dövlət–özəl tərəfdaşlığı haqqında” Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədardır. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin ayrılması qaydalarını və şərtlərini müəyyən edir. Qanunun müvafiq normaları sahəvi qanunlarda öz əksini tapır və Torpaq Məcəlləsinin, “Torpaq icarəsi haqqında”, “Torpaq bazarı haqqında”, “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” qanunların müvafiq maddələrində uyğunlaşdırma xarakterli dəyişikliklər edilir.

Belə ki, dövlət–özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi məqsədi ilə bələdiyyə mülkiyyətində olan torpaq sahəsi özəl tərəfdaşın mülkiyyətinə ötürüldükdə açıq torpaq hərracları və müsabiqələri keçirilir. Özəl tərəfdaşa dövlət mülkiyyətində olan torpaq sahəsi icraya verildikdə isə özəl tərəfdaşla səlahiyyətli orqan arasında icarə müqaviləsi bağlanır. Nəzərə alınmasını xahiş edirəm.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Siz vurğuladınız, bu qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır.

Hörmətli həmkarlar, qanun layihəsinə iki komitədə də baxılıb. Birinci komitə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Komitənin rəyini bildirmək üçün komitənin üzvü Rövşən Muradova söz verirəm. Buyurun.

**Rövşən Muradov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Çox sağ olun, xanım sədr. Qanun layihəsi ilə bağlı Tahir müəllim ətraflı məlumat verdi, ona təşəkkürümü bildirirəm. Qanun layihəsi 6 maddədən ibarətdir. Bu 6 maddədən 2-si də üzvü olduğum İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin profilinə uyğun olaraq, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa 4-cü və 6-cı, "Tənzimlənən qiymətlər haqqında" Qanuna isə 3.5-ci yeni maddələrin əlavə edilməsini nəzərdə tutur. 4-cü maddə ilə bağlı onu demək istəyirəm ki, "Dövlət–özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 3.2-ci maddəsinə əsasən "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu dövlət–özəl tərəfdaşlığı sahəsində tənzimlənən münasibətlərə şamil edilmədiyi üçün həmin qanuna yeni 4.0.5-ci maddənin əlavə edilməsi təklif olunur. Bu maddə qanunun tətbiq dairəsini məhdudlaşdırmaqla "Dövlət–özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, bağlanılmış dövlət–özəl tərəfdaşlığı müqaviləsindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi hallarını istisna edir.

Digər, 6-cı maddə ilə əlaqədar, onu bildirmək istəyirəm ki, "Dövlət–özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 25.2.5-ci maddəsinə əsasən özəl tərəfdaşa müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (burada Nazirlər Kabineti nəzərdə tutulur) razılaşdırmaqla dövlət tərəfindən müsabiqənin şərtlər toplusunda nəzərdə tutulmuş dövlət dəstəyi və təminatlarından biri kimi, tənzimlənən qiymətlərin

səviyyəsinə dair təminat verilə bilər. Belə ki, “Tənzimlənən qiymətlər haqqında” Azərbaycan Respublikasının Qanununa əlavə edilən 3.5-ci maddə müsabiqə sənədlərində əvvəlcədən müəyyən olunmuş şərtlər əsasında özəl tərəfdaşa qiymət səviyyəsi üzrə təminat verilməsinə imkan yaradır. Bu təminat layihənin maliyyə modeli, kreditləşdirilməsi və investisiya cəlbediciliyi üçün mühüm risk azaltma aləti kimi çıxış edir.

Həmçinin qeyd olunmalıdır ki, dövlət–özəl tərəfdaşlığı layihələrinin əhəmiyyətli hissəsi su təchizatı, tullantıların idarə olunması, nəqliyyat və digər ictimai xidmət sahələrində həyata keçirilir və bu sahələrdə xidmət haqları dövlət tərəfindən tənzimlənir. Tariflərin gələcək səviyyəsi ilə bağlı qeyri-müəyyənlik isə, investorlar və maliyyələşdirici qurumlar üçün əsas risk amillərindən biridir. Bu səbəbdən, tənzimlənən qiymətlərə dair veriləcək təminatlar gələcəkdə investorların risklərini azaldacaq, layihələrin maliyyə dayanıqlığını və beynəlxalq maliyyə institutlarının bu sahəyə maraqlarını artıracaq, kreditləşdirilməni asanlaşdıracaq və özəl investisiyaların cəlb edilməsinə münbit şərait yaradacaqdır. Nəticədə dövlət üçün prioritet hesab edilən infrastruktur layihələrinin həyata keçirilməsi üçün daha çox investisiyanın cəlb olunması ilə bərabər, büdcə vəsaitlərindən də daha səmərəli istifadə olunacaqdır.

Təklif olunan dəyişikliklər qəbul ediləcəyi halda torpaq qanunvericiliyi, dövlət əmlakının özəlləşdirilməsi rejimi və tənzimlənən qiymətlər üzrə təminat mexanizmi “Dövlət–özəl tərəfdaşlığı haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq müddəaları ilə uyğunlaşdırılacaqdır.

Çıxışımın sonunda hər birinizi qanun layihəsinə səs verməyə çağırıram. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Komitənin rəyini Rövşən müəllim Muradov verdi. Təşəkkür edirik.

Hörmətli həmkarlar, qanun layihəsinə Regional məsələlər komitəsində də baxılıb. Hörmətli Siyavuş müəllimə söz verirəm. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Təklif olunan qanun layihəsi barədə hər iki komitə tərəfindən məlumat verildi. Regional komitədə bu məsələyə baxılıb və “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının Qanuna yeni bir maddə əlavə olunur. Bu eyni düzəliş digər qanunlarda olduğu kimi, bələdiyyələrlə əlaqədar qanunda da olunacaqdır.

Qanun layihəsinə komitədə baxılıb, Milli Məclisin plenar iclasına təqdim olunubdur. Səs verməyinizi xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim.

Hörmətli həmkarlar, görürəm, müzakirəyə heç kim yazılmayıb. Səsverməyə keçirik. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, biz 5-ci məsələyə keçirik. Bizim məsələmiz “Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında” Qanunda

dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Mədəniyyət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Polad müəllim Bülbüloğluya söz verirəm. Polad müəllim, buyurun.

**Polad Bülbüloğlu,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli media nümayəndələri. Bildiyiniz kimi, Azərbaycanda "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Qanun mövcuddur.

Bildiyiniz kimi, bizim bütün ərazilərdə, Qarabağ ərazilərində və xüsusi ilə Şuşada böyük təmir, bərpa, tikinti işləri aparılır. Bununla bağlı həmin qanunun 5.2-ci maddəsinə əlavə etmək zərurəti yaranıb.

Deməli, bərpa işlərini görmək üçün layihələri müəyyən edilmiş orqanlarla razılaşdırmaq lazımdır. Komitədə baxıldı, heç bir ayrı təklif yoxdur. Xahiş edirəm, səsə qoyulsun.

**Sədrlik edən.** Çox sağ olun, Polad müəllim.

Mən görürəm ki, müzakirə, çıxış üçün Fatma xanım yazılıb. Fatma Yıldırım. Buyurun, Fatma xanım.

**Fatma Yıldırım.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Müzakirə etdiyimiz qanun layihəsi ilk baxışdan texniki xarakter daşısa da, əslində, çox mühüm bir məsələyə – tarixi və mədəni irsimizin qorunmasına xidmət edir.

Bu gün işğaldan azad olunmuş ərazilərimizdə, o cümlədən Şuşada geniş quruculuq və bərpa işləri aparılır. Uzun illər işğal altında qalmış şəhərimiz öz tarixi görkəminə qaytarılır, həyat yenidən canlanır. Bu prosesdə ən vacib məsələlərdən biri də Şuşanın tarixi simasının, mədəni irsinin və əsrlər boyu formalaşmış dəyərlərinin qorunub saxlanılmasıdır.

Bildiyiniz kimi, Şuşa şəhəri Azərbaycan xalqının mədəniyyət tarixində xüsusi yer tutur. Şuşa milli yaddaşımızın, mədəni irsimizin və mənəvi dəyərlərimizin mühüm simvollarından biridir. Məhz buna görə də burada yerləşən tarix və mədəniyyət abidələrinin qorunması məsələsi daim diqqət mərkəzində olmalıdır.

Bu istiqamətdə Şuşa şəhəri Dövlət Qoruğu İdarəsinin fəaliyyəti xüsusi qeyd olunmalıdır. İdarə tərəfindən şəhərin tarixi-memarlıq irsinin qorunması, abidələrin bərpası, tarixi mühitin saxlanılması və gələcək nəsillərə çatdırılması istiqamətində mühüm işlər görülür. Şuşanın yenidən qurulması zamanı tarixi irsə və şəhərin özünəməxsus memarlıq üslubuna göstərilən həssas yanaşma təqdirəlayiqdir.

Hesab edirəm ki, bu məsələyə yalnız hüquqi müstəvidə baxmaq kifayət etmir. Burada söhbət həm də milli məsuliyyətdən gedir. Tarixi irs dövlət qurumları ilə yanaşı, bütövlükdə, cəmiyyətin qoruduğu dəyərlər olmalıdır.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa işləri dünyada nadir nümunələrdən biridir. Möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu siyasət nəticəsində şəhərlərimiz yenidən qurulur, tarixi abidələrimiz bərpa edilir və milli-mədəni irsimiz öz həqiqi simasına qovuşdurulur. Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı kimi inkişaf etdirilməsi, burada beynəlxalq tədbirlərin keçirilməsi və tarixi irsin qorunmasına göstərilən diqqət dövlətimizin bu sahəyə verdiyi yüksək önəmin bariz nümunəsidir. Qanunvericilikdə edilən bu dəyişikliklər də bu siyasətin tərkib hissəsi kimi qiymətləndirilməlidir.

Hörmətli həmkarlar, hesab edirəm ki, bu qanun layihəsində təklif edilən dəyişikliklər qeyd olunan istiqamət üzrə normativ hüquqi bazanın daha da təkmilləşdirilməsinə, qanunvericilikdə vahid yanaşmanın formalaşmasına və tarixi-mədəni irsimizin daha etibarlı qorunmasına xidmət edəcəkdir.

Bu baxımdan qanun layihəsini dəstəkləyirəm və həmkarlarımı da səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Fatma xanım.

Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi üçüncü oxunuşda olan qanun layihələrdir. İndi isə biz 6-cı məsələyə keçirik. Bu məsələ “Yaşıllıqların mühafizəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bilirsiniz ki, layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Tahir müəllim, mən Sizə söz verirəm. Komitənizin məsələsidir, buyurun, məlumat verin.

**Tahir Rzayev.** Çox sağ olun. Hörmətli sədr, hörmətli deputat həmkarlar. “Yaşıllıqların mühafizəsi haqqında” Qanunda edilmiş dəyişiklər barədə ikinci oxunuşda ətraflı məlumat verildi. Onun əhəmiyyəti, mahiyyəti barədə geniş müzakirələr oldu. Bu müzakirələrdə çıxış etdiklərinə görə deputat həmkarlarıma minnətdarlığımı bildirirəm ki, onlar müsbət münasibət bildirdilər.

Üçüncü oxunuş zamanı komitəyə heç bir təklif, irad daxil olmayıb. Ona görə də nəzərə alınmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Tahir müəllim.

Hörmətli həmkarlar, bu qanun layihəsinə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində də baxılmışdır. Sadiq müəllim, Sizdən xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**Sadiq Qurbanov.** Komitənin rəyi müsbətdir, nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, üçüncü oxunuşdur, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul olundu.

Hörmətli həmkarlar, biz indi növbəti məsələyə keçirik. Bu isə İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə, bilirsiniz ki, Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Yenə də komitənin üzvü hörmətli Kamal Cəfərov qanun layihəsi haqqında bizə məlumat verəcək. Buyurun, Kamal müəllim.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Layihədə hər hansı bir dəyişiklik olmadığı üçün olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Heç kimin sözü, sualı yoxdur. Mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.51 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Gündəliyimizdə növbəti məsələ artıq səkkizinci məsələdir. “Dövlət qulluğu haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihə ikinci oxunuşda müzakirəyə təqdim olunur. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Komitənin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar. Bu layihə ilə bağlı biz təqdimat etmişik. Mahiyyəti budur ki, Naxçıvanda cənab Prezidentin səlahiyyətli nümayəndəsinin statusu daha da yüksəlir və bu status dövlət qulluğunda birinci kateqoriyaya aid olacaq, yəni siyasi vəzifələrə.

Hörmətli sədr, mən fürsətdən istifadə edib bu layihəni dəstəkləmiş bütün həmkarlarıma, o cümlədən Naxçıvanı təmsil edən hörmətli həmkarlarıma təşəkkür etmək istəyirəm ki, layihənin mahiyyəti ilə bağlı çox dəyərli fikirlər söylədilər, hamı müdafiə etdi. İkinci oxunuşda da müzakirə edilib səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, ikinci oxunuşdur. Artıq mən dedim və ona görə də biz qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsini əsas kimi səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Ancaq görürəm ki, heç kim yazılmayıb. Ona görə səsverməyə keçirik.

Hörmətli həmkarlar, qanun layihəsində 2 maddə var. Mən 1-ci maddəni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi, çox sağ olun.

İndi isə mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə iki məsələmiz qalır və hər iki məsələ birinci oxunuşda olan qanun layihələridir. Elə indidən mən xahiş edirəm ki, birinci oxunuşun tələblərinə riayət edəsiniz. Artıq 12 nəfər yazılıb. İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Onu da qeyd edim ki, məsələ ilə əlaqədar Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini hörmətli Rəşad Həsənov buradadır. Rəşad müəllim, Sizə bir də “xoş gəlmisiniz” deyirik.

Hörmətli həmkarlar, bu layihəyə İnsan hüquqları komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Zahid Oruca söz vermək istəyirəm. Zahid müəllim, buyurun.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. Reaksiyalarınızın fərqindəyik, amma rica edirəm ki, kiçik bir səbir nümayiş etdirəsiniz. Çox əhəmiyyətli bir qanun layihəsidir, amma sizi əmin edirəm ki, özüm də söz ixtisarlarını sürətlə aparmağa çalışacağım.

Müzakirənizə təqdim olunan "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda təklif edilən köklü dəyişikliklərə dair mühüm qanun layihəsi sosial şəbəkə platformalarından uşaqların istifadəsini və onun şərtlərini tənzimləyir.

Qanun layihəsinin uğurlu ictimai təqdimatına və cəmiyyətimizdə qazandığı kütləvi dəstəyə görə ilk növbədə, hörmətli sədr, Sizə xüsusi təşəkkür etmək istəyirik.

Üç komitənin birgə tədbirinə dəvət olunan çoxsaylı dövlət və hökumət nümayəndələri, müvafiq təhsil və səhiyyə orqanlarının rəhbərləri, media və üçüncü sektorun aparıcı təmsilçiləri hüquqi təşəbbüsün millətimiz üçün əhəmiyyətini xüsusi vurğuladılar, dövlətimizin mövqeyinin əhaliyə düzgün və səmərəli bir dillə, dialoq və qarşılıqlı anlaşma mühitindən çatdırılmasına yardımçı oldular. Yəni qanunvericilik, sadəcə, bir direktiv sənəd kimi izah olunmadı. Keçən 5 gün ərzində ümumi müşahidələr göstərir ki, məktəb kollektivlərindən, psixoloqlardan, ictimai platformalarda aktiv olan blogerlərdən və digər ictimai rəy liderlərindən də məsələyə müsbət reaksiyalar var.

Qısaca, ikinci bir fikir, bəlkə bu senzuradır, texnologiyaya məhdudiyyətdir, internet resurslarına hər hansı bir çərçivələrdir və sair

deyil, tam əksinə. İndi çalışacağam, bəzi məqamları vurğulayaq ki, əksinə, o kontentlər müsbət, düzgün, zəngin, yararlı, milli, əhəmiyyətli olan kontentlər ilə əvəz olunsun.

Bir daha vurğulamaq istəyirik ki, kimsə şəbəkələrə hər hansı bir çərçivələr qoymur, əksinə, o istiqamətdə tənzimləmələr, şəbəkə savadlılığı, rəqəmsal yetkinliyi və sair yaradır. Bu ifadə, ümumiyyətlə, bir neçə Avropa ölkələrinin qəbul etdikləri qanunlar və ya aktlarda dilə gətirilir.

“Rəqəmsal yetkinlik” çox bəyəniləcək bir ifadədir. Başqa bir mühüm məsələ beynəlxalq tədqiqatlar, araşdırmalardır. Harvard Universitetinin elmi araşdırmaları göstərir ki, sosial media alqoritmləri beynin dopamin sistemini kazino mexanizmləri, siqaret və alkoqola bənzər şəkildə aktivləşdirir.

Proqram uşaq psixologiyaları üzərində qurulub, onun üzərində dizayn olunub. Ona görə də sonsuz sürüşdürmə, yəni “infinite scroll” deyilən, avtomatik video oynatma, “autoplay” deyilən və qaçırma-qorxusu FOMO sistemləri uşaqlar üzərində qurulmuş böyük hakimiyyətdir. Bunların hamısı dediyimiz kimi, o laboratoriyalarda sınaqdan keçirilibdi. Ona görə də “rəqəmsal sakin”, “rəqəmsal miqrasiya”, “rəqəmsal kənd” və sair ifadələrin hər birinin ikili mənası var.

“Netflix”dən sızdırılan bir tədqiqat olmuşdu. Onların məşhur epiqrafı, sloqanı vardı. “Bizim əsas rəqibimiz yuxudur”. Uşaqları, doğrudan da, daha çox sistemində saxlasınlar ki, qazana bilsinlər. Mən statistikalarının üzərində geniş dayanmıram. Dediyimiz kimi, yaratdığı şəraitə görə onlar bir neçə gün ərzində həm media məkanında, həm də dinlənmələrdə vurğulanıbdır.

Azərbaycanla bağlı bir neçə vacib statistikanı burada söyləmək yerinə düşər. 2025-ci ildə aparılmış ictimai rəy sorğusuna görə ölkəmizdə 10-17

yaş qrupunun 89,4 faizi smartfon istifadəçisidir. Onun 76,6 faizi gündəlik sosial mediaya daxil olur. Həmin yaş qrupunda, onların gündəlik istifadə müddəti 4 saat 12 dəqiqədir, yəni uşağın oyaq qaldığı vaxtın 30 faizidir. Saat 23-2 arasında 42 faizi bilavasitə həmin o dediyimiz sosial media sistemlərində olur.

Beynəlxalq təcrübə, qısa olaraq onları demək istəyirəm. İlkin olaraq bilirsiniz, Avstraliya 2024-cü ilin noyabrında qəbul etdi. O cümlədən həmin o qlobal Meta korporasiyalarla ki, təkcə Metanın özünün aktivləri 1,5 trilyon dollardır. Bu, təxminən 40 ölkənin ümumi daxili məhsulundan artıqdır, ümumi daxili məhsulundan, gəlirindən, büdcəsindən demirik. Təbii ki, ona görə də onlar şərtləri diktə edirlər, amma cərimələr 49,5 milyon dollardır.

Mən istəyirəm deyəm ki, Fransada həmin o rəqəmsal yetkinlik yaşı qanunu 2025-ci ildə qəbul olunubdur, parlamentin 83 faizi ona səs verib, Fransa parlamenti üçün çox da xarakterik deyil, amma burada bir konsensus olub. İspaniya onun ardınca qəbul edib. Britaniyada yaşa uyğun dizayn kodeksi qəbul olunub.

Azərbaycan cəmiyyətinin bu məsələlərə münasibəti dövlət hakimiyyət orqanları tərəfindən 2 ilə yaxın bir dövrdə ciddi bir şəkildə analiz olunub. Elm və Təhsil Nazirliyinin təmsilçisi də o məsələlərin təhsil sistemində necə hiss olunduğunu bəyən etdi.

1100 respondent arasında aparılmış sorğuya görə Azərbaycan valideynlərinin 87 faizi bu sferada tənzimləməni, onun tətbiqini müdafiə eləyir. Bu, kifayət qədər yüksək göstəricidir.

İnkaredilməz faktdır ki, rəqəmsal texnologiyalar uşaqlarımız üçün misilsiz imkanlar açır. Yəni dünya kitabxanalarına daxil ola bilirlər, onlayn təhsil platformaları yaranır, yaradıcılıq alətləri, beynəlxalq ünsiyyət və sair. Süni intellekt kodlaşdırma, rəqəmsal dizayn – bunlar gələcəyin

ixtisaslarıdır. Övladlarımız texnologiyadan, təbii ki, uzaqlaşmır, amma bu məsələnin düzgün anlaşılması bir daha lazımdır.

Möhtərəm cənab Prezident bəyan etmişdi ki, o, Səlcuq Bayraqdarı, türk dünyasında parlayan həmin o texnoloji ulduzu Azərbaycan gəncliyinin gələcəyinin simvolu, idealı kimi görür və bəyan edir.

Ailə büdcəsinə təsirlərin üzərində də yalnız bir rəqəm səsləndirmək istəyirəm. O, “loot box” deyilən sistemlər var, daim sanki mükafatlanırsan, bir bonus var, sən onu əldə edirsən. Yeri gəlmişkən, Belçika–Hollandiya bunu elə qumar oyunları kimi də tövsif eləyib. Bu, ailə büdcəsini 6-12 faizə qədər istismar edir.

“İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanuna görə 16 yaşa qədər uşaqlarımız üçün sosial mediaya daxil olma təxirə salınır. 16-18 yaş arası isə bilavasitə onların hüquqi nümayəndələrinin, yəni valideynlərinin razılığı tələb olunur. Qanun uşaqları qətiyyən internetdən məhrum eləmir, onlayn təhsilə yaradıcılıq platformalarına mesajlaşma tətbiqlərinə qətiyyən toxunulmur.

Dövlətimiz bir sıra digər sayələrdə də yaş senzini tətbiq edir – siqaret, alkoqol, soyuq silah satışı, qeyri-əxlaqlı məzmun, bu məsələdə rəhbər tutulan prinsip eynidir. Ona görə də məqsəd uşaqların əlindən telefon almaq deyil, onun həyatını kitab, elm, idman, yaradıcılıq, ailə ünsiyyəti və real sosial münasibətlər ilə zənginləşdirməkdir. Əgər Zəfər nəslini böyütmək istəyiriksə, əminəm ki, kiber məkanda da uşaqlarımızı qoruyacağıq. Ümidvaram, millət vəkilləri buna müsbət səs verəcək.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə daha 2 komitədə baxılıb. Birinci komitə Ailə, qadın və uşaq məsələləri komitəsidir. Komitənin rəyini bilmək

üçün komitənin sədri hörmətli Hicran Hüseynovaya söz verirəm. Hicran xanım, buyurun.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Zahid müəllim qanun layihəsi ilə bağlı çox ətraflı məlumat verdi. Mən də onun sözlərinə qoşulmaq istəyirəm ki, hörmətli xanım sədr, yaratdığınız bu şəraitə görə təşəkkür edirik. Bir neçə komitə, o cümlədən də aidiyyəti qurumlar, qeyri-hökumət təşkilatlarının mütəxəssislərinin iştirakı ilə çox geniş müzakirə keçirildi. Ümumiyyətlə, təqdim olunan qanun layihəsi, doğrudan da, cəmiyyətdə böyük bir rezonans doğurub və müxtəlif müzakirələr aparılır. Biz görürük ki, əksəriyyət, demək olar, hamı, istər dövlət qurumları, istər vətəndaş cəmiyyəti, istərsə də valideynlər bu layihəni dəstəkləyirlər.

Bu da təbiidir. Ona görə ki, nəzərdə tutulan əlavə və dəyişikliklər uşaqların hüquqlarının qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Əsas məqsəd – uşaqları qorumaq, hüquqlarını müdafiə etmək, övladlarımızın həm fiziki, həm mənəvi, həm də psixi sağlamlığına mənfi təsirlərin azaldılması və onların təhlükəsizliyini təmin etməkdir. Hazırda elə bir sahə yoxdur ki, yeni nəsil texnologiyaların xidmətindən istifadə edilməsin. Bu bir reallıqdır ki, internet, sosial media hər kəsə informasiyaya rahat çıxış imkanı yaradır. İndi, demək olar ki, əlçatmaz informasiya yoxdur. Əlbəttə ki, hər bir inkişafın pozitiv və neqativ tərəfləri var.

Dövlət başçısı İlham Əliyev dəfələrlə öz çıxışlarında bildirib ki, hər bir dövlətin uğurlu inkişafı texnoloji təminata əsaslanır. Dövlətimiz tərəfindən həyata keçirilən rəqəmsal inkişaf, innovasiya siyasəti prioritet məsələlərdəndir. Bu sahədə kompleks yanaşma nümayiş etdirilir. Belə ki,

müvafiq strateji sənədlər, normativ hüquqi aktlar, fəaliyyət planları qəbul edilir. Həmçinin institusional mexanizm formalaşdırılır.

Cənab Prezident İlham Əliyevin Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı imzaladığı fərmanla Rəqəmsal İnkişaf Şurası yaradılıb. Şuranın sədri Birinci vitse-prezident Mehriban Əliyevadır.

Rəqəmsal inkişaf dövlətimiz üçün, qlobal çağırışlara hazır olmağımız, uşaqlarımızın bilik və bacarıqlarının artırılması üçün mühümdür. Bu siyasət düşünülmüş şəkildə vətəndaşlarımız, o cümlədən uşaqlarımız üçün faydalı şəkildə həyata keçirilir. Mümkün ola biləcək fəsadların qarşısının alınması üçün müvafiq tədbirlər görülür. Mövcud qanunvericiliyə ediləcək əlavə və dəyişikliklər əsasında yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarının fəaliyyəti, tələblərin pozulması ilə bağlı inzibati qaydada məsuliyyət müəyyən edir.

Sosial şəbəkə platformaları tərəfindən qanunvericiliyin tələblərinin yerinə yetirilməməsinə görə vəzifəli və hüquqi şəxslər üzrə müxtəlif cərimələr nəzərdə tutulur.

Azərbaycanın qoşulduğu beynəlxalq konvensiya və milli qanunvericiliyə əsasən 18 yaşadək şəxslərin uşaq sayıldığını nəzərə alaraq, uşaqların sosial şəbəkə platformalarının təsirlərindən qorunması üçün 16 yaşadək və 16-18 yaş arası yanaşması seçilmişdir. 16 yaşadək uşaqların platformalarda hesab yaratmasına yol verilmir, 16-18 yaş arası uşaqlar üçün isə bunu valideyn icazəsi ilə edə bilərlər.

Qanun 12 aydan sonra qüvvəyə minəcəkdir. Bu müddət ərzində yaş yoxlaması tətbiq ediləcək sosial şəbəkə platformalarının siyahısının müəyyənləşdirilməsi, maarifləndirmə, məlumatlandırma, təlimlər, texniki həllərin seçimi həyata keçiriləcəkdir.

Bu gün müzakirə etdiyimiz məsələnin məqsədi aydındır – uşaqları kibertəhdidlərdən, zorakılıqdan, zərərli məzmundan və mənfi zehni sağlamlığa təsirlərdən qorumaq.

Azərbaycanda 2018-ci ildə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanun qəbul edilib. Eyni zamanda, uşaqların hüquqlarının qorunması ilə bağlı digər sahələrdə də yaş məhdudiyyətləri tətbiq olunmuşdur. Məsələn, uşaqlara siqaret, alkoqol, soyuq silah satışına, pornoqrafik məzmunlara çıxışına məhdudiyyət qoyulub və bu tədbirlər uşaqların sağlamlığı və rifahı üçün tətbiq edilib.

Həmçinin uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnun həyata keçirilməsi ilə əlaqədar uşaqların onlar üçün zərərli informasiyadan qorunması tədbirləri müəyyən edilmiş və bu sahədə yaranan münasibətlər tənzimlənmişdir. Həmin prosesin davamı olaraq indiki dövrdə bu məsələlərin sosial şəbəkələrdə həllinə yönəlmiş addımlar atılır. Bu gün müzakirə edilən məsələnin əsas mahiyyəti də budur.

Xüsusi ilə qeyd etmək istərdim ki, qanunvericiliyə təklif edilən bu əlavə və dəyişikliklər heç bir halda uşaqların məlumat, bilik və bacarıqlar əldə etmək hüququnu məhdudlaşdırmır. Əksinə, uşaqların təhlükəsizliyini təmin edir. Burada əsas məsələ, yeniyetmələr üçün bilik, ünsiyyət və dəstək mənbəyi ola biləcək onlayn məkanları bağlamaqdan deyil, bu məkanlarda mövcud olan şərtləri dəyişdirməkdir.

Uşaqların sosial şəbəkələrinin zərərli təsirlərin qorunması günümüzün tələbidir. Onların müdafiəsi üçün hər birimiz mənəvi və sosial məsuliyyət daşıyırıq.

Bəzən düşünürük ki, uşaq evdədir. Qonşu otaqda kompüter arxasında və ya telefonla vaxt keçirir. Biz rahatlaşırıq. Ancaq bu o demək deyil ki, övladımız hansısa təsirlərdən, təhlükələrdən uzaqdır. Təhlillər də göstərir

ki, ekran qarşısında oturaq şəkildə saatlarla hərəkətsiz qalmaq, yaşına uyğun olmayan məzmunlara baxmaq uşaqlarda psixoloji gərginliyi artırır, qeyri-adi davranışa, müxtəlif cür zərərli vərdişlərə və hərəkətlərə, kobud davranışa və hətta intihara cəhd edilməsi kimi hallara gətirib çıxarır. Bu isə həm uşaqların həyatında, həm də cəmiyyətdə ciddi fəsadlar yaradır.

Beləliklə, mövcud qanunvericiliyə edilən dəyişikliklər uşaqlarımızın hüquqlarının qorunması sahəsində növbəti uğurlu bir addımdır. Biz də bu dəyişiklikləri qəbul etməklə onlara daha təhlükəsiz bir həyatı təmin etmiş oluruq.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, 2-ci bir komitədə də baxılıb. Əli müəllim, bu sizin komitədir – Hüquq siyasəti və dövlət quruculuğu komitəsi. Xahiş edirəm, komitənin rəyini bildirin.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Bizim komitənin profilinə aid olan məsələ İnzibati Xətalar Məcəlləsinə təklif edilən yeni bir maddədir.

Belə ki, artıq hörmətli həmkarlarımın da məruzə etdiyi məsələlərdən, yəni məhdudiyyətlərdən irəli gələrək, İnzibati Xətalar Məcəlləsinə 388-4-cü maddəsi, “Yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarının fəaliyyəti ilə bağlı tələblərin pozulması”na görə məsuliyyət nəzərə tutulur. Məsuliyyət cərimə formasındadır.

Xüsusi vurğulamaq istəyirəm ki, burada subyekt vəzifəli şəxslər və hüquqi şəxslərdir. Hesab edirik ki, nəzərdə tutulan o cərimə sanksiyaları bu əməllərə qarşı adekvatdır. Həmkarlarımızdan dəstəkləməyi xahiş edirik.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Həmişə olduğu kimi, Sizin bu lakonik rəyiniz komitənin münasibətini ifadə etdi.

Mən müzakirəyə keçməzdən əvvəl istəyirəm, üzümü Zahid müəllimə tutam. Zahid müəllim, əsas komitə sizin komitənizdir. Dünən komitə sədrlərinin iclasında Siz artıq bizdən ayrılmışdınız və həmin iclasda hörmətli Əhliman müəllim haqlı olaraq dedi ki, bizim komitəmiz niyə dəvət olunmayıb? Mən düşünürəm, tək Əhliman müəllimin rəhbərlik etdiyi komitənin üzvləri deyil, həmçinin Elm və təhsil komitəsinin, bir çox komitələrin üzvləri, bax, bu məsələnin müzakirəsində çox maraqlı olardılar. Ona görə də xahiş edirəm, ikinci oxunuşda mütləq şəkildə təşəbbüs gərək Sizdən gələ. Ona görə də fikirləşin, baxın, hansı komitənin üzvlərini dəvət edəcəksiniz.

Mən dünən dedim, Polad müəllimin komitəsinin, yəni Mədəniyyət komitəsinin üzvləri də dəvət oluna bilərlər. Sonra Şahin müəllimin rəhbərlik etdiyi komitənin üzvləri də burada ola bilərlər. Ona görə də daha geniş keçirin, dəvət edin.

Mən həmişə buradan çağırışlar edirəm ki, xahiş edirəm, dinləmələrə, müzakirələrə ayrı-ayrı komitələri dəvət edin. Bunun çox böyük faydası var.

İndi isə, hörmətli həmkarlar, müzakirəyə keçirik.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, 5 dəqiqədir. Biz artıq iclasın əvvəlində qəbul etmişik. İndi 16 nəfər yazılıb. Amma mən bildiyimə görə, komitənin bütün üzvləri dinləmələrdə iştirak etmişdilər.

Azay Quliyev. Buyurun.

**Azay Quliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bizim hörmətli həmkarlarımız, komitə sədrləri layihə ilə bağlı ətraflı məlumat verdilər. Hərə bir istiqamətdən, bir prizmadan məsələni təqdim etdi.

Amma, hörmətli xanım sədr, bilirsiniz ki, bu məsələ dəfələrlə Milli Məclisdə müzakirə olunubdur və bir növ sosial sifarişdir. Sizin rəhbərliyinizlə və birbaşa dəstəyinizdən keçirilən ictimai dinləmədə də bütün aidiyyəti qurumlar dəvət olundu. Sonradan ictimai müzakirələrdə də biz müşahidə etdik ki, doğrudan da, bu qanun layihəsinin, yəni bu müddəaların Azərbaycan qanunvericiliyinə gətirilməsi nə qədər aktualdır və nə qədər vacibdir.

Bilirsiniz ki, qanunda, hazırda təklif olunan layihədə bir çox yeniliklər var. Bunlardan biri hüquqi anlayışlardır. Çox təqdirəlayiq haldır ki, ilk dəfədir "sosial şəbəkə platforması" anlayışı qanunvericiliyə gətirilir. Eyni zamanda, "yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformasının provayderi" anlayışı da qanunvericiliyə gətirilir. Çünki bu anlayışlar olmadan məhz bu sahədə hüquqi tənzimləməni həyata keçirmək, demək olar ki, mümkün deyildir.

İkinci, vacib məsələlərdən biri yaş məhdudiyyəti üçün şəffaf və açıq, eyni zamanda, işlək bir mexanizm tətbiq olunur. Yəni burada qeyd olundu, yaş həddi 16 müəyyənləşdirilir. Bu, kifayət qədər optimal bir təklifdir. 16-18 yaş arası olan bizim uşaqlarımızın konkret bəlli qaydalar çərçivəsində sosial şəbəkələrdən istifadəsi müəyyənləşdirilir. Burada valideynlərin üzərinə müəyyən vəzifələr qoyulur.

Eyni zamanda, bütövlükdə, dünya praktikasında həmişə müzakirəyə səbəb olunan əsas məsələ, bu yaş məhdudiyyəti mexanizmi necə müəyyənləşəcək, hesab edirəm, Azərbaycan təcrübəsində, eyni zamanda, beynəlxalq təcrübə nəzərə alınaraq, çox doğru şəkildə qeyd olunub. Burada konkret valideynin razılığı ilə bank kartından istifadə olunması, mobil telefon əlaqəsi, e-mail əlaqəsi və sair imkan verəcək ki, doğrudan da, yaş məhdudiyyətini biz dəqiqləşdirək

Üçüncü, ən vacib məsələdən biri sosial şəbəkə platformasının vəzifələrinin dəqiqləşdirilməsidir. Bu vəzifələr, təbii ki, çoxdur bir neçə istiqamətdə var. Ən vaciblərindən biri budur ki, provayder topladığı məlumatları saxlaya, başqasına, yaxud da üçüncü tərəfə ötürə bilməz, eyni zamanda, topladığı məlumatlar istifadə edildikdən sonra dərhal silinməlidir.

Bundan da vacib, hesab edirəm, o məsələdir ki, biz bu barədə, – xanım sədr, dəfələrlə danışmışıq, – təhlükəli alqoritmlərin qarşısının alınması üçün konkret müddəa var. Bu da ondan ibarətdir ki, uşaqların fiziki və psixi sağlamlığına zərər vuran və asılılıq yaradan, uşağın həyatına və sağlamlığına, cinsi toxunulmazlığına, şərəfinə, ləyaqətinə və qanunla qorunan, digər hüquq və azadlığına təhlükə yaradan məzmunların qarşısı alınır. Əgər belə məzmunlar aşkar olunarsa, provayderlər 24 saatdan gec olmayaraq müvafiq addımlar atmalıdır.

Şəffaflıqla bağlı daha mühüm bir məqam ondan ibarətdir ki, hər ilin yanvarın 15-nə qədər provayderlar Azərbaycanın müvafiq dövlət qurumuna görülən işlərlə bağlı hesabat verməlidir və sair. Bu da, hesab edirəm ki, çox dürüst və dəqiq bir təklifdir.

Nəhayət, vacib hesab etdiyim və bizim hamımızın dəfələrlə müzakirə etdiyimiz məsələlərdən biri də budur ki, provayderlərin qeydiyyatı və buna görə məsuliyyəti qanunvericiliyə gətirilir və çox açıq şəkildə qeyd olunur. Bu da ilk növbədə müvafiq dövlət qurumunun siyahısında olan qurumlar, provayderlər müvafiq qaydada qeydiyyata alınmalıdır. Dövlət qurumları ilə asan və operativ şəkildə əlaqə yaratmaq üçün əlaqə mərkəzi yaratmalıdır və eyni zamanda, bu əlaqə mərkəzinə müraciət Azərbaycanın dövlət dilində olmalıdır.

Bilirsiniz, bunlar yenə də deyirəm, dünyada çox geniş şəkildə tətbiq olunan qaydalardır. Hesab verəm ki, bu, imkan verəcək ki, həmin

provayderlər öz məsuliyyətlərini dərk etsinlər və üzərlərinə düşən vəzifələri lazımi səviyyədə icra etsinlər. Təbii ki, belə bir halda, əgər provayderlər qeyd olunan qanunvericiliyin tələblərinə müəyyən mənada əməl etməzlərsə, pilləli şəkildə, xəbərdarlıq, ondan sonra cərimə sanksiyaları və ondan sonra da müəyyən mənada reklam verilməsinin qadağan edilməsi və sair və ilaxır. Bundan sonra da internet trafikinin azaldılması.

Hesab edirəm ki, bayaq burada həmkarlarım dedi, yenə deyirəm, bu norma bütün dünyada tətbiq olunan normadır və biz də bunu, təbii ki, qəbul etməliyik.

Nəhayət, hesab edirəm, platformalar üçün müəyyən vaxt tanınır. Qanun imzalandıqdan sonra 1 il müddətində qüvvəyə minəcək ki, bu da Azərbaycan dövlətinin xoş niyyətini, eyni zamanda, həmin provayderlərin hazırlıq üçün kifayət qədər vaxtının olmasını nəzərdə tutur.

Bütövlükdə, layihəni dəstəkləyirəm. Hesab edirəm, hamımız üçün bu, vacib olan təklifdir.

**Sədrlik edən.** Sağ olun.

Kamal Cəfərov. Buyurun.

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Bu gün uşaqların zərərli informasiyadan qorunması rəqəmsal suverenlik məsələsidir. Qlobal çağırışlara qarşı çevik reaksiya bəzən problemin həllindən daha çox əhəmiyyət daşıyır.

Cari ilin əvvəlində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında” Sərəncam imzaladı. Məhz həmin sərəncamdan irəli gələrək biz bu gün müvafiq qanunlarda dəyişiklikləri müzakirə edirik.

Düşünürəm ki, rəqəmsal suverenliyimizin gücləndirilməsi istiqamətində bu islahatları daha da genişləndirməliyik.

Bildiyiniz kimi, sosial şəbəkələrdən iki növ istifadəçi var. Birincisi, əsasən, sosial şəbəkələrdən istifadə edənlər, ikinci isə məzmun yaradanlar. Bu gün qəbul edəcəyimiz qanun layihəsi məhz istifadəçilərlə bağlıdır və çox mühüm tənzinləmədir. Hesab edirəm ki, sosial şəbəkələrdə məzmun yaradanlarla da bağlı islahatlar həyata keçirilməlidir, ona görə bununla bağlı konseptual təklifim var.

Çin təcrübəsinə əsasən sosial şəbəkələrdə tibb, hüquq, maliyyə və ya təhsil sahəsində çıxış edənlərin rəsmi diplomu və ya lisenziyası olmalıdır. Çünki bəzi hallarda heç bir təhsili və ya lisenziyası olmayan blogerlər sosial şəbəkələrdə cəmiyyəti çaşdıran kütləvi hüquqi və ya psixoloji məsləhətlər verirlər. Gənc ailələri manipulyasiya edərək onlara boşanmağa inandırırlar. Onlar üçün əl çatması mümkün olmayan saxta xoşbəxt həyat modeli yaradırlar. Hər kəsə eyni pəhriz proqramları təklif edirlər. Maliyyə savadlığı olmayan "ekspertlər" məsuliyyətsiz tövsiyələr verirlər. Bu cür əsası olmayan çıxışlar isə fiziki və psixoloji sağlamlığa ciddi zərər vurur, geri dönüşü olmayan hüquqi nəticələrə gətirib çıxarır. Ən təəssüfedici hissəsi isə ondan ibarətdir ki, bu cür tövsiyələrə qulaq asıb əməl edən şəxslər isə bəzən heç manipulyasiya olunduğunu da hiss etmirlər.

Ona görə, hesab edirəm ki, biz bu qabaqcıl təcrübəni dərindən araşdırmalıyıq, qanunvericiliyimizi bu istiqamətdə genişləndirməliyik və vətəndaşlarımızın psixi, fiziki və maddi sağlamlığını qorumaq üçün ciddi islahatlara getməliyik.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Fariz İsmayılzadə. Buyurun.

**Fariz İsmayılzadə.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Müzakirə olunan qanun layihəsi uşaqlarımızın tərbiyəsi üçün həddindən artıq vacib layihədir. Sirr deyil ki, hazırda bizim informasiya məkanımızda, o cümlədən sosial şəbəkələrdə kifayət qədər liberal atmosfer hökm sürur. İstənilən insan, qurum, hərəkat səhifə və ya hesab yaradaraq təbliğat işləri apara bilir. Bu kontentin içində bəzən milli dəyərlərə zidd, dövlətçilik əleyhinə olan və yeniyetmələrin tərbiyəsini pozan paylaşımlar da olur. Uşaqlarımız bu nəzarətsiz vəziyyətdə ziyanlı məzmunu saatlarla izləyir, istifadə edir və yayır. Belə vəziyyət, eyni zamanda, dövlətimizin informasiya təhlükəsizliyinə və milli suverenliyinə də yeni təhdidlər yaradır. Əhalinin ideoloji durumu müxtəlif mənbələrdən idarə edilə bilir.

Hesab edirəm ki, bu qanun layihəsinə çoxdan ehtiyac var idi. Bu dəyişikliyi etməklə biz uşaqları və yeniyetimələri daha saf, dürüst, təhlükəsiz və faydalı yolla sosial şəbəkələrdən istifadəyə yönəltmiş oluruq, ziyanlı məzmundan qoruya bilirik. Eyni zamanda, onların diqqətini və vaxtını daha çox dərs prosesinə və tədris materiallarına sərf etməyə vadar edirik.

Bu təcrübə artıq bir neçə ölkədə, o cümlədən Fransada, Kanadada, Avstraliyada tətbiq edilib və ciddi fayda verib. Belə ki, uşaqların psixoloji durumu və tərbiyəsi daha effektiv qorunur və sağlam mühitdə valideynlərin nəzarətində inkişaf etdirilir.

Qanun layihəsini dəstəkləyirəm, ona səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Əminə Ağazadə. Buyurun.

**Əminə Ağazadə.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu gün müzakirə etdiyimiz qanun layihəsi yalnız informasiya

texnologiyaları və ya sosial şəbəkələrin fəaliyyəti ilə bağlı texniki tənzimləmə deyil. Bu layihə ilk növbədə uşaqların hüquqlarının müdafiəsi məsələsidir. Etiraf etməliyik ki, son illərdə uşaqların həyatının mühüm hissəsi rəqəmsal mühitdə keçir. Əgər bir vaxtlar valideynlər övladlarının küçədə, məktəbdə və ya digər ictimai yerlərdə təhlükəsizliyindən narahat olurdularsa, bu gün həmin narahatlıq virtual məkana da şamil olunur.

Təəssüf ki, internet və sosial şəbəkələr uşaqlar üçün təkcə bilik və ünsiyyət məkanı deyil, eyni zamanda, zorakılığın, təhqirin, manipulyasiyaların, asılılıq yaradan məzmunun və şəxsi məlumatlardan sui-istifadənin mənbəyinə çevrilə bilir.

Konstitusiyamız dövlətin uşaqların müdafiəsini təmin etmək vəzifəsini müəyyən edir. Azərbaycan Respublikasının qoşulduğu BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyası da uşaqların inkişafına zərər vura biləcək informasiya təsirlərindən qorunmasını dövlətlərin üzərinə öhdəlik kimi qoyur. Buna görə də rəqəmsal mühitdə uşaqların müdafiəsi artıq seçim deyil, hüquqi zərurətdir.

Müzakirə olunan layihənin əsas üstünlüyü ondan ibarətdir ki, o məsuliyyəti yalnız valideynlərin üzərinə qoymur. Layihə sosial şəbəkə platformalarının və onların provayderlərinin də konkret öhdəliklərini müəyyən edir. Çünki milyonlarca istifadəçidən gəlir əldə edən platformalar həmin mühitdə yaranan risklərə görə də müəyyən məsuliyyət daşımalıdırlar. Xüsusi ilə diqqətəlayiq hal ondan ibarətdir ki, layihə uşaqların şəxsi məlumatlarının qorunmasına, zərərli məzmunun qarşısının alınmasına, yaşın müəyyənləşdirilməsi mexanizmlərinə və təhlükəsiz istifadə rejiminin təmin edilməsinə yönəlmişdir və təhlükəsiz istifadə rejiminin təmin edilməsinin hüquqi çərçivələrini müəyyən edir. Bu yanaşma artıq bir çox ölkələrdə formalaşan beynəlxalq təcrübə ilə də səsləşir. Biz

çox vaxt uşaqların fiziki təhlükəsizliyindən danışırıq, amma unutmamalıyıq ki, müasir dövrdə rəqəmsal təhlükəsizlik də ən az fiziki təhlükəsizlik qədər əhəmiyyətlidir. Uşaq küçədən necə müdafiə olunursa, virtual məkanda da eyni dərəcədə müdafiə olunmalıdır.

Hesab edirəm ki, bu qanun layihəsi məhz belə bir məqsədə, uşaqlarımız üçün daha təhlükəsiz, daha məsuliyyətli və daha sağlam rəqəmsal mühitin formalaşdırılmasına xidmət edir. Bu səbəbdən layihəni dəstəkləyirəm və bütün həmkarlarımı da layihə səs verməyə çağıram.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Elçin Mirzəbəyli.

**Elçin Mirzəbəyli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media mənsubları. Qanun layihəsi yeni dövrün ən həssas məsələsinə – uşaqların və yeniyetmələrin rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunmasına həsr olunub. Bu baxımdan layihənin məqsədini, strateji hədəfini və mahiyyətini tam dəstəkləyirəm.

Eyni zamanda, düşünürəm ki, təklif olunan əlavə və dəyişiklərin tətbiqi zamanı bir sıra məsələlərin əlavə izahına və gələcəkdə daha geniş hüquqi tənzimləmələrə ehtiyac duyulacaq. Toxunmaq istədiyim ilk məqam terminoloji anlayışlarla bağlıdır. Qanun layihəsində, əsasən, sosial şəbəkə platforması anlayışından istifadə olunur, lakin rəqəmsal texnologiyalar sürətlə dəyişir və bu gün klassik sosial şəbəkə mesajlaşma xidmətləri arasındakı sərhədlər faktiki olaraq aradan qalxıb. Telegram, WhatsApp və digər oxşar sistemlər artıq, sadəcə, mesaj üçün vasitə deyil. Bu platformalarda kütləvi kanallar, ictimai qruplar, video yayım xidmətləri, sosial icmalar və həm də daha geniş auditoriyaya yönəlmiş məzmun paylaşımı imkanları var.

Başqa sözlə desək, bu tətbiqlər və yaxud platformalar həm də sosial platforma funksiyasını yerinə yetirirlər və uşaqlar üçün yarana biləcək risklər baxımından ənənəvi sosial şəbəkələrdən heç də az təhlükəli deyillər. Bu səbəbdən gələcəkdə hüquqi tənzimləmələr hazırlandığı zaman paralel olaraq həm də "rəqəmsal kommunikasiya platformaları" anlayışına da diqqət yetirilməsinin vacib olduğu qənaətindəyəm. Bununla yanaşı, qanunvericiliyə "sosial şəbəkə reyestri" anlayışının gətirilməsinin sosial şəbəkələrlə bağlı təsnifatın daha da genişləndirilməsi və müasir çağırışlar nəzərə alınmaqla müəyyənləşdirilməsinin də zəruri olduğunu düşünürəm. Bu gün uşaqların həyatına təsir göstərən əsas texnologiyalardan biri də süni intellekt sistemləridir. Süni intellekt tətbiqləri uşaqların məlumat əldə etməsinə, qərar qəbul etməsinə, davranış modellərinə və hətta dünya görüşünə təsir göstərmək imkanına malikdir. Zənnimcə, yaxın gələcəkdə uşaqların süni intellekt sistemlərindən istifadəsi onların fərdi məlumatlarının qorunması, alqoritmik təsirlərdən müdafiəsi və yaşa uyğun təhlükəsizlik standartlarının müəyyən olunması ilə bağlı ayrıca hüquqi tənzimləmələrin hazırlanmasına da ehtiyac yaranacaq.

Qanun layihəsinin müəlliflərinə həm də ona görə təşəkkür etmək istəyirəm ki, sənəd bizə daha mühüm bir məsələyə nəzər salmaq imkanı yaradır. Uşaqların, yeniyetmələrin təhlükəli rəqəmsal mühitdən qorunması, məhdudiyyətlərin tətbiqi zəruridir və tamamilə doğru yanaşmadır. Amma eyni zamanda, alternativlər haqqında düşünmək də lazımdır. Hörmətli Zahid müəllim təqdimatında bəzi məqamlara aydınlıq gətirdi, yəni nəticə etibarı ilə bu sənəd uşaqların digər resurslardan kənarda qalınmasına imkan vermir. Nəticə etibarı ilə prosesə hər hansı bir müdaxilə baş verməyəcək. Amma nəzərə almaq lazımdır ki, bu gün dünyanın müxtəlif ölkələrində uşaqlar və yeniyetmələr üçün xüsusi təhlükəsizlik standartları

əsasında fəaliyyət göstərən reqəmsal platformaların yaradılması istiqamətində də təşəbbüslər həyata keçirilir. Bu baxımdan, düşünürəm ki, ölkəmizdə məktəblilər və yeniyetmələr üçün təhlükəsiz rəqəmsal ekosistemin formalaşdırılması istiqamətində addımlar atıla bilər, alqoritmləri yerli provayderlər tərəfindən istiqamətləndirən sosial şəbəkə və təhsil, mədəniyyət platformalarının hibrid modelinin yaradılması da mümkündür. Bu, eyni zamanda, sosial şəbəkə reyestri ilə bağlı səsləndirdiyim fikirləri də əsaslandırır. Çünki yerli sosial şəbəkələrin mövcudluğu bu istiqamətdən də qanunvericilik çərçivəsində bu məqamların tənzimlənməsinə imkan yaradır.

Bəlli olduğu kimi, Azərbaycanda media reyestri var və media resursları bu reyestr çərçivəsində üzərlərinə müəyyən öhdəliklər götürürlər. Belə olduğu təqdirdə, eyni informasiya siyasəti ilə məşğul olan sosial şəbəkələr üçün də reyestrin formalaşmasına əsas olduğu qənaətindəyəm.

Qanun layihəsinin, bütövlükdə, rəqəmsal dövrün çağırışlarına verilən mühüm hüquqi cavab kimi qiymətləndirirəm. Bu səbəbdən, layihəni dəstəkləyir, eyni zamanda, qeyd etdiyim məqamların da gələcək təkmilləşmə prosesində nəzərə alınmasını xahiş edirəm.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Məndən hörmətli Musa müəllim Qasımlı söz istəyir. Musa müəllim, mən indi sözü Sizə verirəm. Buyurun.

**Musa Qasımlı.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Təqdim edilən qanun layihəsinə dair bəzi mülahizələrimi bildirmək istəyirəm. Layihəni müzakirə edərkən özümüzə bir neçə əsas sualı verməliyik. Bizim üçün başlıca məqsəd nədir? Millətimizin və dövlətimizin gələcəyi olan yetkinlik yaşına çatmayanların, gənclərimizin sağlam böyüməsi, yad

təsirlərin altına düşməməsi, kökləri minilliklərə gedib çıxan milli-mənəvi dəyərlərimizi qorumaqla müasirləşməyimiz, milli təhlükəsizliyimizin tərkib hissəsi olan informasiya təhlükəsizliyimizin etibarlı qorunması, yoxsa dünyanı başına alıb gedən qarmaqarışıq, xaos kimi görünsə də, əslində, məqsədləri tam aydın olan informasiya mübarizəsində yayıcılarının yalnız öz maraqlarını güdən siyasətinin bir parçasına çevrilmək.

Burada əyləşənlər və millətimizin, dövlətimizin bu günü və gələcəyini dərindən düşünən hamı üçün cavab aydın və birmənalıdır. Gənclərimizin sağlamlığı, yad təsirlərin altına düşməməsi, milli-mənəvi dəyərlərimizin mühafizəsi və informasiya təhlükəsizliyimizin etibarlı qorunması seçicilərimizin də istəyidir. Onlar bu məsələlərin qanunla tənzimlənməsini tələb edirlər. İnformasiya məkanımız bizim həm də ərazimizin bir parçası olduğundan onun yad təsirlərdən qorunması, quru ərazimizin, su sahəmizin və hava məkanımızın qorunması qədər həyati əhəmiyyət kəsb edir.

Biz xalqımızın övladlarının sağlamlığına, beyinlərinin yad qüvvələr tərəfindən yuyulub işğal edilməsinə laqeyd qala bilmərik. Bu gün biganə qalmaq, qanunun gücünü tətbiq etməmək gələcəkdə düzəldilməsi mümkün olmayacaq çoxlu ağır fəsadlar törədə bilər. Qanun layihəsi böyük axın olan sosial şəbəkələrdən istifadəni qətiyyən məhdudlaşdırmır, suveren dövlətimizin qanunları tənzimləməyi, istifadəni sağlamlaşdırmağı və övladlarımızın sağlamlığını qorumağı nəzərdə tutur. Seçicilərimizlə görüşlərdə onlar internet televiziya kanallarının və digər yayımların da lisenziyalaşdırılmasını tələb edirlər. Düşünürəm ki, bu məsələlərə də baxmağın zamanı gəlib çatıb.

Qanun layihəsinin lehinə səs verəcəyəm. Diqqətinizə görə sağ olun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim.

Hörmətli həmkarlar, təklif var, qanun layihəsini səsə qoyaq. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, indi isə qanun layihəsinə birinci oxunuşda münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.34 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, hörmətli həmkarlar, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli qonağımızı da biz hörmətlə yola salırıq. Çox sağ olun.

Zahid müəllim, xahiş edirəm, ikinci oxunuşda dediyim komitələrin üzvlərini mütləq dəvət edin və yenə də geniş bir müzakirə aparın.

Hörmətli həmkarlar, biz gündəliyimizin sonuncu 10-cu məsələsinə keçirik. Bu məsələ Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin ölkə daxilində köçürülmüş şəxslərin statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Musa müəllimə söz verirəm. Musa Qasımlıya. Buyurun, Musa müəllim.

Musa müəllim, çox-çox üzr istəyirəm. Mən Quliyev əvəzinə Qasımlı dedim, çox üzr istəyirəm. Musa müəllim çıxış edəndə o qədər həyəcanlandım ki, ona görə. Buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Qanun layihəsi olduqca aktual bir məsələnin müzakirəsinə həsr olunub və keçmiş məcburi köçkünlərin ata-baba yurdlarında dayanıqlı məskunlaşmasının hüquqi əsaslarının təkmilləşməsini, işğaldan azad olunmuş ərazilərə köçürülən şəxslərin statusunun və onlara göstərilən sosial dəstək mexanizmlərinin tənzimlənməsini nəzərdə tutur.

Məcburi köçkün soydaşlarımız uzun illər Azərbaycan dövlətinin və cəmiyyətinin xüsusi diqqət və qayğısı ilə əhatə olunmuşdur. Onların sosial və digər problemlərinin həlli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın daim diqqət mərkəzində olmuşdur. Təkcə bir faktı söyləmək kifayətdir ki, məcburi köçkünlərin sosial problemlərinin həlli ilə bağlı Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2004–2019-cu illər ərzində 75 fərman və sərəncam imzalanmış, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 11 qanun qəbul edilmiş, Nazirlər Kabineti tərəfindən 224 qərar və sərəncam verilmişdir. Torpaqlarımızın işğal altında olduğu dövrdə, məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə 121 yeni qəsəbə və hündür mərtəbəli binalardan ibarət yaşayış kompleksi tikilərək onların istifadəsinə verilmişdir. 62 mindən çox məcburi köçkün ailəsinin, yəni 300 min nəfərdən çox məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır.

Dövlətimiz tərəfindən məcburi köçkün ailələrinə uzun illər ərzində təhsil və vergi güzəştləri, vahid aylıq müavinət, ünvanlı sosial yardım, məşğulluq proqramları, tibbi-sosial reabilitasiya və digər sosial müdafiə mexanizmləri çərçivəsində davamlı dəstək göstərilmişdir.

Məcburi köçkünlərə göstərilən diqqət və qayğı torpaqlarımız işğaldan azad olunandan sonra da davam etmişdir. 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının tarixi qələbəsi ilə başa çatdıqdan dərhal sonra işğaldan azad olunmuş ərazilərdə bərpa və geniş quruculuq işlərinə başlanılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmış, yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədi ilə Prezidentin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair birinci dövlət proqramının tədbirlər planı təsdiqlənmişdir.

Böyük Qayıdışa dair birinci dövlət proqramının icrasına başlanmasından ötən 4 il ərzində bu məqsədlə dövlət büdcəsindən 28 milyard manata yaxın vəsait ayrılmış, Qarabağda və Şərqi Zəngəzurda 40-dan çox yaşayış məntəqəsində keçmiş məcburi köçkünlərin daimi yaşayışı təmin edilmişdir. Hazırda işğaldan azad edilmiş ərazilərdə 85 minə yaxın soydaşımız yaşayır, təhsil alır və işləyir.

Birinci dövlət proqramının icrası ilə bağlı möhkəm hüquqi baza yaradılmış, qanunvericilikdə müvafiq dəyişikliklər edilərək, Qarabağda və Şərqi Zəngəzurda işləyən və məskunlaşan şəxslər üçün yeni muavinət növü təsis edilmiş məzuniyyət, vergi, sosial sığorta güzəştləri və imtiyazları müəyyən olunmuşdur.

Hörmətli həmkarlar, bu gün müzakirəyə çıxardığımız Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında təklif edilən dəyişikliklər də

məhz bu sahədə görülən işlərin hüquqi bazasının təkmilləşdirilməsi, məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə yaşayış sahələrinə köçürülməsi, onların mülkiyyət hüququnun təmini və məcburi köçkün statusunun itirilməsi ilə bağlı qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır.

Belə ki, Mənzil Məcəlləsində ediləcək dəyişiklik nəticəsində yeni institut – İşğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşma fondu yaranacaq və bu fonda daxil olan yaşayış sahələri məcburi köçkünlərin köçürülməsi və bu sahələrin onların mülkiyyətinə verilməsi məqsədi ilə istifadə olunacaqdır.

Eyni zamanda, "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda təklif edilən dəyişiklikliyə əsasən məcburi köçkün statusunun itirilməsi halları da konkretləşdiriləcəkdir. Yeni təklifə əsasən şəxs yaşadığı regionda müəyyənləşdirilmiş ölçüdə başqa yaşayış yeri ilə əvvəlki yaşayış yerinin əvəzinə təmin ediləcək, bununla da dövlət tərəfindən yeni yaşayış sahəsinin verilməsi vətəndaşın mülkiyyət hüququnun tam bərpasına xidmət edəcəkdir. Həmçinin sözügedən qanunda təklif olunan dəyişikliyə görə şəxs dövlət tərəfindən təklif olunan həmin yaşayış yerlərindən imtina etdikdə də məcburi köçkün statusunu itirəcəkdir.

Layihədə sosial müdafiə tədbirlərinin müddətinə də aydınlıq gətirilir. Mövcud 3 illik güzəşt müddətinin hesablanması şəxsin statusunu itirdiyi və ya mənzildən imtina etdiyi tarixdən müəyyən ediləcəkdir.

Bundan başqa, "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində təklif olunan dəyişikliyə əsasən məcburi köçkünlərin köçürülməsi mexanizmi də dəqiqləşdirilir. Yeni qaydalara əsasən dövlət

öhdəliyi yaşayış sahəsinin təklif edilməsi ilə icra olunmuş hesab ediləcək. Bununla da həm məcburi köçkünlərin mənzil hüquqları, həm də üçüncü şəxslərin maraqları arasında balans təmin olunacaqdır.

Hörmətli millət vəkilləri, bir daha qeyd etmək istəyirəm ki, keçmiş məcburi köçkün vətəndaşlarımızın statusunun itirilməsi heç də onların güzəşt və imtiyazlarının dərhal ləğv olunması anlamına gəlmir. Onların bütün imtiyazları və güzəştləri daha 3 il müddətində saxlanılacaqdır. Dövlətimizin bu humanist yanaşması keçmiş məcburi köçkün bacı və qardaşlarımızın ata-ana yurdlarında yenidən məskunlaşması, yeni mühitə adaptasiyası, sosial inteqrasiyası, məşğulluğunu və özəl biznesini təmin etməsi üçün əlavə dəstək vermək məqsədi daşıyır.

Qanun layihəsi Azərbaycan Respublikası Milli Məclisinin Əmək və sosial siyasət, İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında ətraflı müzakirə edilmiş və birinci oxunuşda baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə olunmuşdur.

Çıxışımın sonunda bir daha vurğulamaq istəyirəm ki, qanun layihəsi keçmiş məcburi köçkünlərin doğma yurdlarında yenidən məskunlaşmasına dair qəbul edilən qanunların və qərarların məntiqi davamı kimi əhəmiyyətlidir və Böyük Qayıdış prosesində hüquqi bazanın daha da genişlənməsinə və möhkəmlənməsinə xidmət edəcəkdir.

Qanun layihəsini dəstəkləməyinizi sizdən xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Çox ətraflı məlumat verdiniz.

Hörmətli həmkarlar, Musa müəllim artıq dedi. Bu layihəyə 2 komitədə də baxılıb. Zahid müəllim, məsələyə sizin komitənizdə – İnsan hüquqları komitəsində də baxılıb. Xahiş edirəm, məlumat verin.

**Zahid Oruc**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, Siz səhər-səhər Milli Qurtuluş Günü ilə bağlı çox uğurlu çıxışla başladınız. Bir neçə həmkarımız öz rəylərini söylədilər və bu iki səhnəni – 1993-cü ilin məhz bu günündə parlamentdə olan müzakirələr və köçkünlərin axını, vəziyyətini və bugünkü müzakirəni ekranda canlandırmaq lazımdır ki, bu layihə ilə bağlı dövlətimizin və millətimizin haradan-hara keçdiyi yol görünsün. Ona görə də mən həmkarlarımızdan sonuncu kiçik bir anlayış göstərmələrini xahiş edirəm. Özüm üçün də xoş deyil ki, bu vəziyyətdə daha çox zaman istismarı baş versin. Amma bu məsələ haqqında fikir bildirmək hər birimizin tərcümeyi-hal hadisəsidir, mühüm ictimai-siyasi hadisədir. Ona görə də mütləq bir neçə vacib məsələləri söyləmək istəyirəm.

Müzakirəyə təqdim olunan qanun layihəsi Vətən müharibəsində qazanılan tarixi qələbədən, ərazi bütövlüyünün və suverenliyin tam bərpasından sonra vətəndaş hüquqlarının bütövləşməsidir, məcburi köçkünlük dövrünün yaratdığı hüquqi və sosial fərqliliyin aradan qalxmasıdır. Dünyadakı vəziyyətlə müzakirə etdiyimiz qanun layihəsi arasında kəskin təzad var. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına görə, Azərbaycan müharibənin ağır nəticələrini yaşayanda, yəni 1994-cü ilin sonunda həmin komissarlığın mandatı üzrə 23 milyon qaçqın vardı. 2024-cü ilin sonunda isə zorla yerindən didərgin salınan insanların sayı 123 milyona çatıb.

Azərbaycan xalqı 30 il əvvəl həmin beynəlxalq statistikada dünya köçkünlərinin içərisində idi, XXI əsrdə həmin siyahıdan çıxan tək xalqıq. 35 il ərzində parlament daha çox qaçqınlıq, məcburi köçkünlük qanunları, müvəqqəti məskunlaşma və dövlət yardımı ilə bağlı hüquqi aktlar qəbul etmişdi. İndi isə qanunvericilik gündəliyinə Böyük Qayıdış, daimi məskunlaşma, mülkiyyət hüququnun bərpası və azad edilmiş ərazilərdə

yeni həyatın hüquqi əsasları daxil olur. Başqa sözlə, artıq normativ aktlarımız da işğal və məğlubiyyət mirasından xilas olur.

Layihə Milli Məclisin nəinki dövlət müstəqilliyini qazanandan sonra, eləcə də Sovetlər Birliyi və Cümhuriyyətdən ötən 100 ildə siyasi tariximizdə qanun quruculuğu prosesində ilk hadisədir, ona görə də qəbul edilən silsilə aktları Böyük Qayıdış qanunları adlandırmağı təklif edirik.

Hörmətli Musa müəllim burada qeyd etdi, layihədə nəzərdə tutulan İşğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşma fondunun yaradılması mühüm hadisədir. İndiyə qədər mövcud olan hüquqi çərçivədə məcburi köçkünlərə dövlət tərəfindən verilən yaşayış sahələri xüsusi fondun balansına keçirdi və nə özgəninkiləşdirilə, nə bağışlana, nə də kirayə verilə bilərdi. Yeni qanunda vətəndaşa verilən yaşayış sahəsi artıq müvəqqəti deyil, daimi hüquqi əsas daşıyır. Dövlət məcburi köçkün statuslu, torpaqlarından və hüquqlarından məhrum edilən vətəndaşını doğma yurdunun və evinin tam hüquqlu sahibinə çevirir. Sadə xalq dili ilə desək, vətəndaş ona verilən evin və mülkiyyətin “kupçasını” alır, ölkəmizdə mənzil sahibi olan milyonlardan birinə çevrilir. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilən mülkiyyət hüququ tam gerçəkləşir.

Qanun layihəsinin digər mühüm tərəfi ondan ibarətdir ki, indiyədək hüquqi statusu müəyyənləşməmiş mənzil fondunun da taleyinə aydınlıq gətirilir. Dövlətin balansında, müxtəlif fondlarda və müvəqqəti istifadə rejimində olan yaşayış sahələrinin artıq yeni hüquqi statusu var. Yəni təkcə insanlar deyil, mənzillər də status qazanır.

Məcburi köçkün statusunu daimi saxlamağı təklif eləyənlər, əslində, millətimizi çadır və vaqon şəhərciklərində əbədi saxlamaq istəyənlərdir. Bir millətin statusu daimi köçkünlük ola bilməz. Ötən on illər ərzində dövlət tərəfindən verilən mənzil və evlərdə yaşayan insanların məcburi köçkün

statusunu saxlaması təbii və hüquqi baxımdan başa düşülən idi, çünki həmin insanlar hələ öz doğma yurdlarına qayıtmamışdılar, müvəqqəti məskunlaşma şəraitində yaşayırdılar. Lakin indi öz ata-baba torpaqlarında əbədi köçkün statusunda qalmağı təklif eləyənlərin məqsədi tam aydındır. Öz evinin sahibi olandan sonra da bir zəngilanlını, yaxud kəlbəcərlini köçkün adının qirovluğunda, hətta əsarətində saxlamaq istəyənlər mahiyyətcə 1990-cı ilin işğalına səbəb olan və xalqımızın vahid status qəbul etməsinə qarşı olanlardır. 2020-ci ildən sonra körpələrin artıq bütöv Azərbaycanda dünyaya gəlməsi ən böyük tituldur. Tam hüquqlu vətəndaş və bütöv Azərbaycandan yüksək status ola bilməz. Ona görə də yeni tarixi qanun üç məsələni həll edir.

Birincisi, mülkiyyət hüququ.

İkincisi, daimilik prinsipi.

Üçüncüsü, sosial müdafiənin davamlılığı.

Məcburi köçkün statusundan sonra belə sosial müdafiə tədbirləri 3 il müddətində qorunur saxlanır, yəni dövlət vətəndaşı yeni mərhələdə də tək qoymur. Keçid müddəalarına görə qanun qüvvəyə minənədək artıq yeni ərazilərdə mənzil almış məcburi köçkünlər də təklif olunan hüquqdan faydalanacaqlar.

BMT-nin qayıdışın könüllü olması prinsipi qanun layihəsinin əsas ideyasını təşkil edir və BMT-nin köçkünlərinin hüquqları üzrə 6 müddəasından biridir. Bir şəmkirli və ya astaralının Bakıda yaşaması necə normaldırsa, bir ağdamlının da öz yaşadığı yerdə qalmaq hüququ var. Torpaqların işğaldan azad edilməsi Bakıdan və digər şəhərlərdən məcburi köçkünlərin ucdantutma çıxarılması kimi başa düşülməməlidir. Ona görə də layihədə dövlətin yaşayış sahəsi təklif etməsi öhdəliyi icra olunmuş sayılır. Məqsəd dövlətin mənzil təminatı vəzifəsi, vətəndaşın seçim imkanı və

üçüncü şəxslərin hüququ arasında balans yaratmaqdır. Dövlət real yaşayış sahəsi təklif edirsə, həmin təklifin də qanuni nəticələri müəyyən olunmalıdır. Əks halda, qayıdış prosesi qeyri-müəyyən və sonsuz vaxta qədər uzanar və yanlış gözləntilər yaradılardı.

Lakin qayıdışın əsas ideyası Qarabağın bir daha müharibələrə məruz qalmaması üçün orada insanların, ailələrin daimi kök salması, uşaqların böyüməsi, savadlı nəslin yetişməsi, əmək ənənələrinin ora daşınmasıdır. Ona görə də biz Böyük Qayıdış gününün təsis olunmasını və ilkin olaraq bunun 19 iyulda həyata keçirilən hadisə olaraq rəsmiləşdirilməsini, protokolunun yaradılmasını, onun dövlət hakimiyyəti orqanları, ictimai sektor, Vətən müharibəsi qəhrəmanlarının həm yola salınmasında, həm də qarşılanmasında iştirakını təklif edirik. Köç sözündən imtina eləməyi xahiş edirik. Bununla bağlı, BMT-nin müxtəlif günləri var, Ümumdünya Qaçqınlar Günü və sair. Azərbaycan ilk nümunədir, biz qayıdış gününün beynəlxalq miqyasda da rəsmiləşməyini istəyirik. Bu prosesdə aktiv iştirak edən və böyük vətən quruculuğunda yer alan insanların vətən quruculuğunda xidmətlərinə görə medalı ilə də təltif olunmasını xahiş edirik.

Yekun olaraq, nəhayət, müxtəlif tribunalardan qaçqınlar, məcburi köçkünlər, didərginlər kimi təqdim olunan Azərbaycan vətəndaşları konstitusion haqlarına qovuşaraq yeni hüquqi kimlik qazanırlar. Onlar artıq yardım alan insanlar deyil, öz torpağının, evinin, gələcəyinin sahib olan xalqın nümayəndələridir. Ümidvarıq ki, bu layihəyə səs veriləcək.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Bu qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılıb. Komitənin sədri Əli müəllim, mən Sizə söz verirəm. Buyurun.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Biz bu fikirdəyik ki, belə bir mühüm qanun layihəsinin Milli Qurtuluş Günü ərəfəsində təqdim olunması həm də rəmzi məna daşıyır. Çünki bu gün çıxışlarda, hörmətli sədr, Siz və digər həmkarlarım da xüsusi vurğuladılar ki, Qarabağın işğaldan qurtuluşu həm də qurtuluş günündən başlamışdı.

Bu gün isə Ali Baş Komandan, cənab Prezident tərəfindən məcburi köçkünlərin Qarabağa və Şərqi Zəngəzura, sadəcə, qayıdışı deyil, ləyaqətli qayıdışı prosesi həyata keçirilir. Bizim indi üzərimizə düşən vəzifə isə onların, əslində, bərpa olunmuş mülki hüquqlarının tam həyata keçirilməsi ilə bağlı layihəni qəbul etməkdir. Tam ona görə ki, bizim qanunvericiliyə görə mülkiyyət hüququnu təsdiq edən sənəd Daşınmaz Əmlakın Reyestri Xidmətindən əldə olunan çıxarışdır. Məhz bu qanun layihəsi də vətəndaşlara, keçmiş məcburi köçkünlərə belə bir hüququn tətbiq olunmasına imkan verəcək.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyi müsbətdir. Hesab edirəm ki, belə bir hüququ əldə etməklə vətəndaşlarımız, eyni zamanda, digər iqtisadi hüquqların da həyata keçirilməsində daha sərbəst olacaqlar.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Tamamilə düz dediniz. Layiqli qayıdış, hətta mən deyərdim ki, bu, qələbə qayıdışıdır.

Hörmətli həmkarlar, biz üç komitənin də rəylərini dinlədik və mən görürəm, səsə qoymaq təklifi də var. Əslində, bu gün siz çıxışlarınızda da bu məsələyə öz münasibətinizi bildirmişdiniz. Mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

**Səsvermənin nəticələri** (saat 14.53 dəq.)

| | |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı sizə deyiləcək.

Sağ olun.

## *EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ*

## ***<u>12 iyun 2026-cı il</u>***

**Afət Həsənova.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, habelə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsini nəzərdə tutan bu fundamental qanun layihəsi, sadəcə, hüquqi tənzimləmə aktı deyil. Bu layihə dövlətimizin mənəvi təhlükəsizlik strategiyasının, milli genofondumuzun və gələcək nəslimizin virtual təhdidlərdən qorunmasının hüquqi sipəri, əsasıdır. Təqdim olunan dəyişiklikləri konseptual olaraq dəstəkləyir və həmkarlarımı layihənin lehinə səs verməyə çağırıram.

Biz bu gün virtual məkanın daxilində formalaşmış elə bir mütəşəkkil və sosioloji təhlükə ilə üz-üzəyik ki, buna bir anlıq belə göz yummaq gələcəyimizə qarşı böyük məsuliyyətsizlik və xəyanət olardı. Bu gün ölkəmizdə heç bir hüquqi öhdəlik daşımayan, rəsmi qeydiyyatı, vergi öhdəliyi olmayan bəzi transmilli sosial platformalar və xarici tanışlıq proqramları virtual məkanda sanki "hüquqdan kənar, tənzimlənməyən bir zona" tapmışlar. Gizlətməyək, bu gün həmin platformaların böyük bir qismi daxili alqoritmləri ilə birbaşa mənəvi aşınmaya, cəmiyyətin əxlaqi dəyərlərinin zədələnməsinə və qeyri-etik şəbəkədaxili istismara xidmət edir. Ən acınacaqlısı isə odur ki, bu rəqəmsal bataqlığın, qurulmuş bu manipulyasiya şəbəkələrinin əsas hədəfində bizim hələ tam yetkinləşməmiş azyaşlı uşaqlarımız, yeniyetmələrimiz dayanır.

Valideyn elə zənn edir ki, övladı evdə əlində telefon sakitcə öz otağında oturub. Lakin o uşaq, hətta bir çox gənclərimiz belə virtual şəbəkələrdə fəaliyyət göstərən destruktiv qüvvələrin, maddi qazanc

naminə idarə olunan gizli rəqəmsal tələlərin və mənəvi şantajların qurbanına çevrilir. Şüuru, dünyagörüşü, həyat təcrübəsi hələ tam formalaşmayan, atdığı addımın fəsadını dərk edə bilməyən övladlarımız sonradan geri dönüşü olmayan ağır peşmançılıq və psixoloji böhran hissi ilə baş-başa qalırlar. Bu acı reallığı, düşdükləri rəqəmsal tələni anladıqlarında artıq çox gec olur. Belə virtual təzyiqlər, mənəvi sarsıntılar nəticə etibarı ilə boşanmalara, cinayətlərə gənclərimizi intihara qədər sürükləyir, bütöv bir nəslin gələcəyini məhv edir. Bu qanunun olmaması həmin zərərverici ünsürlərin ölkəmizin rəqəmsal sərhədləri daxilində sərbəst fəaliyyət göstərməsi üçün münbit şərait yaradırdı. Biz bu qanunvericilik mexanizmi ilə həmin qara qüvvələrin ölkəmizin virtual məkanından uzaqlaşmasını və ya ciddi nəzarətə götürülməsini təmin edəcəyik.

Təbii ki, müəyyən dairələr gələcəyimizi qorumaq üçün atılan bu addımları yenə də hansısa “rəqəmsal məhdudiyyət” kimi qınamağa, manipulyasiya etməyə çalışacaqlar. Lakin hər kəs bilsin ki, bu gün inkişaf etmiş Qərb ölkələri öz gələcəyini qorumaq üçün çox əvvəllərdən daha sərt tədbirlər görüb. Avropa İttifaqı ölkələrində internetə ən ciddi filtrlər tətbiq olunur; əxlaqsız, zorakı və zərərli reklamlar, saytlar birbaşa insanların, xüsusən də uşaqların qarşısına çıxa bilməz. Amerika Birləşmiş Ştatlarında dövlət uşaqların internetdə nəyi axtardığını, hansı kontentlə təmasda olduğunu addım-addım nəzarətdə saxlayır. Hətta yetkinlik yaşına çatmayanlara qarşı risk yarada biləcək hər hansı şübhəli virtual fəaliyyət və ya şəxs qeydə alınırsa, geolokasiya əsaslı sistemlər vasitəsi ilə yaxınlıqda yaşayan bütün valideynlərin telefonuna birbaşa həmin hala görə uşaqlarını nəzarətsiz qoymamaları barədə rəsmi xəbərdarlıq bildirişi göndərilir. Qərb öz gələcəyini qorumaq üçün bunu

edəndə demokratiya olur, biz Azərbaycan gəncliyini virtual xaosdan qorumaq istəyəndə məhdudiyyət? Xeyr, bu, dövlətin öz vətəndaşı qarşısındakı konstitusion vəzifəsi bu layihəni dəstəkləmək isə bizim, mənəvi, vicdani və valideynlik borcumuzdur.

Bu manipulyativ platformaların digər bir gizli hədəfi də gənclərimizi sistemli şəkildə təhsildən, elmdən uzaqlaşdırmaq, onları rəqəmsal asılılığın quluna çevirməkdir. Stanford Universitetinin tədqiqatçılarının müəyyən etdiyi o saxta virtual parıltılar, yəni "ördək sindromu" gənclərin şüurunu zəhərləyir, onları real həyatdan qoparıb illüziyalara inandırır və mütaliədən uzaqlaşdırır. Halbuki, dünya tarixinin sınağından keçmiş dahi bir həqiqət var: "Bir milləti məhv etmək üçün atom bombasına ehtiyac yoxdur, onun təhsilini çökdürmək kifayətdir".

Məhz buna görə də, təqdim olunan layihədə 16 yaş altı uşaqlara sosial şəbəkədə fərdi hesab açma qadağasının qoyulması, asılılıq yaradan "sonsuz sürüşdürmə" (scroll) alqoritmlərinin ləğv edilməsi və qanuna tabe olmayan xarici provayderlərin internet trafikinin 90 faizədək azaldılması dövlətimizin milli və qətiyyətli iradəsidir. Biz övladlarımızı o virtual bataqlıqdan çıxarıb elmin, mütaliənin və təhsilin işığına qaytarmalıyıq.

Sonda çıxışımı Ulu Öndərimiz Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" və cənab Prezidentimizin "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" və ya "Gənclərimiz heç kimin təsiri altına düşməməli, vədlərə aldanmamalıdırlar" dahi kəlamları ilə bitirirəm.

Biz bu gün bu qanunu qəbul etməklə Azərbaycanımızı, gəncliyimizi və müstəqil gələcəyimizi qorumuş olacağıq.

**Anar Məmmədov.** Sizi və xalqımızı müasir dövlətçilik tariximizin ən şanlı və həlledici səhifələrindən biri olan 15 iyun – Milli Qurtuluş Günü

münasibəti ilə ürəkdən təbrik edirəm. Bu gün, sadəcə, təqvimdə qeyd olunan bir bayram deyil. 15 iyun Azərbaycan xalqının müstəqilliyini itirmək təhlükəsindən xilas olduğu, dövlətimizin uçurumun kənarından döndüyü və xaotik bir dövrdən inkişaf mərhələsinə qədəm qoyduğu tarixi dönüş nöqtəsidir.

Xatırlasaq ki, 1993-cü ilin iyun ayında ölkəmiz daxili çəkişmələr, xaos, vətəndaş müharibəsi təhlükəsi və iqtisadi iflasla üz-üzə qalmışdı. Azərbaycanın bir dövlət olaraq mövcudluğu sual altında idi. Məhz belə bir ağır dönəmdə xalqımız öz müdrikliyini nümayiş etdirdi və tək bir ümid yeri olaraq Ümummilli Lider Heydər Əliyevi Bakıya, siyasi hakimiyyətə dəvət etdi.

“Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram” deyən Ulu Öndər öz canı və siyasi iradəsi bahasına Azərbaycanı parçalanmaqdan, xalqımızı isə fəlakətdən xilas etdi. 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sədri seçilməsi ilə ölkədə qanunsuz silahlı qruplaşmalar zərərsizləşdirildi, dövlət təsisatları bərpa olundu və sabitliyin əsası qoyuldu.

Bu gün biz tamamilə fərqli, başıuca və qalib bir Azərbaycanda yaşayırıq. Ulu Öndərin əsasını qoyduğu qurtuluş fəlsəfəsi ölkəmizi addım-addım bu günə – böyük və tarixi Zəfərə hazırladı.

Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı, Prezidentimiz, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan:

– milli birliyini sarsılmaz etdi;

– iqtisadi və hərbi qüdrətini ən yüksək zirvəyə qaldırdı;

– ən əsası, Xankəndidə, Şuşada, Xocalıda və işğaldan azad edilmiş bütün torpaqlarımızda üçrəngli bayrağımızı əbədi olaraq dalğalandırdı.

Bu gün qurtuluş gününü xüsusi edən həm də odur ki, biz artıq torpaqları işğal altında olan bir ölkə kimi deyil, suverenliyini tam bərpa etmiş, Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdışı reallaşdıran qüdrətli bir dövlət kimi bu bayramı qeyd edirik.

Milli Qurtuluş Günü bizə keçmişimizi unutmamağı, müstəqilliyimizin və dövlətçiliyimizin nə qədər çətinliklə qorunduğunu hər an xatırladır. Bu gün parlament olaraq üzərimizə düşən vəzifə bu dövlətçilik xəttini, milli birliyimizi qanunvericilik səviyyəsində daha da möhkəmləndirməkdir.

Bu müqəddəs gündə müstəqilliyimizin xilaskarı Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edir, canını vətən uğrunda fəda etmiş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Bayramınız mübarək olsun!

**Azər Allahverənov.** Bildiyiniz kimi, İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi uşaqların sosial şəbəkələrin zərərli təsirlərindən qorunmasına yönəlib.

Artıq dünyanın aparıcı ölkələri sosial şəbəkə platformalarının öz daxili qaydaları ilə yanaşı, milli qanunvericiliklə də tənzimlənməsini, xüsusi ilə uşaqların qorunmasını, onların sosial şəbəkə platformalarına çıxışına yaş məhdudiyyətlərinin tətbiqini nəzərdən keçirir. Azərbaycanda da 16 yaşadək uşaqların sosial şəbəkə platformalarında hesab yaratmasına yol verilməməsi, 16-18 yaş arası uşaqların isə bunu valideyn icazəsi ilə edə bilməsi nəzərdə tutulur. Hələ formalaşma dövründə olan, yetişən nəsil üzərində sosial şəbəkələrə aludəçiliyin yan təsirlərindən hamımız əziyyət çəkirik. Qanunvericilikdə nəzərdə tutulan bu dəyişikliklər məhz cəmiyyətin sosial sifarişidir.

Uşaqların zərərli təsirlərdən qorunması cəmiyyətin və dövlətin vəzifəsidir. Ekran aludəçiliyi, yaşına uyğun olmayan məzmunla tanışlıq, nəticədə yaranan müxtəlif davranış pozuntuları, uşaqların sosial şəbəkələrdə neçə-neçə zərərli vərdişlərə mübtəla olması, uşaq intiharları bu gün cəmiyyətin diqqət yetirməli olduğu məsələlərdir. Dövlət tərəfindən uşaqların müdafiəsi gücləndirilməli, uşaqlar yetkinlik yaşına çatana qədər sosial şəbəkə mühitində fəaliyyət üçün hazırlanmalı, sonrakı dövrdə isə valideyn nəzarəti ilə sosial şəbəkələrdən istifadə etməlidirlər. Nəhayət ki, bu məsələnin Azərbaycanda da qanunvericiliyə gətirilməsi alqışa layiqdir.

8 iyun tarixində Milli Məclisin İnsan hüquqları, Ailə, qadın və uşaq məsələləri, eləcə də Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası və ictimai dinləməsi zamanı qeyri-hökumət təşkilatları tərəfindən ictimai dinləmələrin keçirilməsi ilə bağlı təşəbbüsümü diqqətə çatdırmışdım. Həmin təşəbbüsün davamı olaraq müxtəlif müstəvilərdə uşaqların rəqəmsal təhlükəsizliyi və zərərli asılılıqdan qorunması istiqamətində bir sıra ictimai müzakirə təşkil olunmuşdur. Müzakirələr zamanı sosial şəbəkə platformalarında hesab açan şəxslərin yaşının texniki vasitələrlə müəyyənləşdirilməsi, 16 yaşı tamam olmamış şəxslərin fərdi rəqəmsal hesab yaratmasına icazə verilməməsi, bu yaş kateqoriyasına aid istifadəçilərin mövcud hesablarına girişin məhdudlaşdırılması, eləcə də yaşın təsdiqi təqdim olunmadığı halda həmin hesabların və məlumatların silinməsi ilə bağlı müzakirəyə çıxarılan məsələlər geniş şəkildə dəstəklənmişdir.

Bu məlumatla yanaşı, həm də həmin müzakirələrdə irəli sürülmüş bəzi təkliflərin də sistemləşdirilmiş qaydada səsləndirilməsini vacib hesab edirəm:

– uşaqların rəqəmsal təhlükəsizliyi üzrə dövlət səviyyəsində vahid fəaliyyət planının hazırlanması, bu prosesə dövlət qurumlarının, təhsil müəssisələrinin, QHT-lərin və valideynlərin birgə cəlb edilməsi;
– rəqəmsal təhlükəsizlik və media savadlılığı mövzularının ümumi təhsil proqramlarına və dərsliklərə daxil edilməsi, məktəblərdə sistemli şəkildə tədrisinin təşkili;
– yaş məhdudiyyətləri tətbiq olunarkən zorakılığa məruz qalan və ya risk altında olan uşaqların Uşaq Qaynar Xətti, sosial xidmətlər və digər onlayn yardım platformalarına maneəsiz və konfidensial çıxışının təmin edilməsi;
– məhdudiyyətlərlə yanaşı, uşaqlara alternativ inkişaf və asudə vaxt imkanlarının təqdim edilməsi, onların rəqəmsal mühitdən kənar sosiallaşmasının və bacarıqlarının inkişafının təşviq olunması.

Sonda bir daha vurğulamaq istəyirəm ki, uşaqların zərərli təsirlərdən qorunması, onların sağlam böyüməsi üçün hərtərəfli şəraitin yaradılması və dəstəyin verilməsi dövlətin sosial siyasətinin tərkib hissəsidir. Uşaqların, gənclərin düzgün milli, mədəni, əxlaqi dəyərlər əsasında sağlam, bilikli böyüməsi onların özləri ilə yanaşı, həm də cəmiyyətin və dövlətin gələcəyi baxımından olduqca vacibdir.

**Bədəl Bədəlov.** 15 İyun – Milli Qurtuluş Günü milli dövlətçilik tariximizdə dönüş nöqtəsi olaraq xüsusi əhəmiyyət daşıyır. Hər il Azərbaycanda böyük ehtiramla qeyd olunan həmin gün ölkənin ictimai-siyasi həyatında sabitliyin bərpası və yeni inkişaf mərhələsinin başlanğıcı kimi yadda qalmışdır.

1969-cu ildə Ulu Öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəlişindən sonra ölkənin sosial-iqtisadi həyatında genişmiqyaslı yüksəliş

mərhələsi başlanmışdır. Sənayeləşmə prosesinin sürətləndirilməsi, yeni istehsal sahələrinin yaradılması və iqtisadiyyatın müxtəlif istiqamətlər üzrə inkişaf etdirilməsi nəticəsində respublikanın sosial-iqtisadi tərəqqisi sürətlənmiş, ümumi inkişaf göstəriciləri əhəmiyyətli dərəcədə yüksəlmişdir. Kənd təsərrüfatı sahəsində aparılan məqsədyönlü islahatlar məhsuldarlığın artmasına, yeni aqrar texnologiyaların tətbiqinə və meliorasiya sistemlərinin genişləndirilməsinə səbəb olmuşdur. Elm və təhsil sahəsində həyata keçirilən siyasət nəticəsində yeni ali məktəblər və elmi-tədqiqat institutları yaradılmışdır.

1990-cı illərin əvvəllərində respublikada siyasi böhran hökm sürürdü. 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ölkəni bu ağır vəziyyətdən çıxarmaq üçün Bakıya gəldi. İyunun 15-də Ümummilli Lider Heydər Əliyev parlamentin qərarı ilə Ali Sovetin sədri seçildi. Bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi daxil olmuşdur. Qısa müddət ərzində Ulu Öndər tərəfindən həyata keçirilən qətiyyətli addımlar nəticəsində ölkədə ictimai-siyasi sabitlik təmin olunmuş, dövlət strukturlarının fəaliyyəti bərpa edilmiş və mərkəzləşdirilmiş idarəetmə sistemi formalaşdırılmışdır. Bu sabitlik sonrakı islahatların həyata keçirilməsi üçün fundamental baza rolunu oynamışdır.

1994-cü il mayın 12-də Azərbaycan və Ermənistan arasında imzalanan atəşkəs sazişi nəticəsində hərbi əməliyyatların dayandırılması mühüm əhəmiyyət daşıyırdı. Bu addım respublikada ictimai-siyasi sabitliyin möhkəmlənməsinə zəmin yaratdı.

1994-cü il sentyabrın 20-də imzalanan “Əsrin müqaviləsi” ölkənin iqtisadi inkişafında yeni mərhələnin əsasını qoyaraq iri həcmdə xarici investisiyaların cəlb edilməsinə, enerji sektorunun sürətli inkişafına və beynəlxalq iqtisadi əlaqələrin genişlənməsinə imkan yaratdı. Eyni

zamanda, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar müdafiə potensialının gücləndirilməsinə, Silahlı Qüvvələrin formalaşdırılmasına və milli təhlükəsizliyin etibarlı təmin olunmasına mühüm töhfə verdi.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci il noyabrın 12-də keçirilən referendum (ümumxalq səsverməsi) nəticəsində qəbul edilən Konstitusiya hüquqi dövlət quruculuğu istiqamətində atılan ən mütərəqqi addımlardan biridir. Sosial-iqtisadi sahədə aparılan islahatlar bazar iqtisadiyyatının formalaşmasına, sahibkarlığın inkişafına, regionların tərəqqisinə və əhalinin rifah halının yüksəlməsinə xidmət etdi. Təhsil və səhiyyə sahələrində həyata keçirilən yeniliklər insan kapitalının inkişafına, vətəndaşların keyfiyyətli təhsil və tibbi xidmətlərlə təmin olunmasına şərait yaratdı. Beləliklə, həmin dövrdə müəyyənləşdirilən inkişaf strategiyası dövlətin gələcək yüksəlişinin əsasını təşkil edərək ölkənin davamlı inkişaf yolunu müəyyənləşdirdi.

Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən xarici siyasət strategiyası müasir dövlətçiliyin formalaşmasında və beynəlxalq münasibətlər sistemində həlledici rol oynamışdır. Bu siyasət balanslı, çoxşaxəli və milli maraqlara əsaslanan diplomatik xətt üzərində qurulmuş, qlobal güc mərkəzləri arasında tarazlığın qorunmasına və dövlətin müstəqil siyasi kursunun təmin olunmasına xidmət etmişdir. Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət konsepsiyası qarşılıqlı hörmət, bərabərhüquqlu əməkdaşlıq və daxili işlərə qarışmamaq prinsiplərinə əsaslanaraq ölkənin beynəlxalq nüfuzunun sürətlə artmasına şərait yaratmışdır.

Müstəqilliyin ilk illərində mövcud olan mürəkkəb geosiyasi vəziyyət və regionda davam edən münaqişələr fonunda düzgün xarici siyasət kursunun müəyyənləşdirilməsi dövlət üçün strateji əhəmiyyət daşıyırdı. Ümummilli

Lider Heydər Əliyevin həyata keçirdiyi praqmatik xarici siyasət strategiyası Azərbaycanın qlobal arenada etibarlı tərəfdaş kimi tanınmasına zəmin yaratdı.

Nəqliyyat və kommunikasiya layihələri də xarici siyasət strategiyasının mühüm tərkib hissəsinə çevrilmişdir. Regionun tranzit potensialının artırılması məqsədi ilə həyata keçirilən layihələr ölkəni Şərq və Qərb arasında mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevirmiş, beynəlxalq yükdaşımalarında strateji mövqeyini daha da gücləndirmişdir. Bakı–Tbilisi–Qars dəmir yolu, neft və qaz kəmərləri kimi iri infrastruktur layihələri beynəlxalq əməkdaşlığın genişlənməsinə, regional inteqrasiyanın güclənməsinə və ölkənin strateji əhəmiyyətinin artmasına xidmət etmişdir. Bu layihələr nəticəsində ölkə yalnız enerji istehsalçısı deyil, həm də mühüm tranzit mərkəz kimi tanınmışdır.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İqtisadiyyatın rəqabətqabiliyyətliliyi artırılmış, genişmiqyaslı infrastruktur layihələri həyata keçirilmiş və sosial rifahın yüksəldilməsi istiqamətində mühüm nailiyyətlər əldə olunmuşdur. Eyni zamanda, Silahlı Qüvvələrin döyüş qabiliyyəti və müdafiə potensialı əhəmiyyətli dərəcədə gücləndirilmiş, dövlət təhlükəsizliyinin daha etibarlı şəkildə təmin olunmasına şərait yaranmışdır. Məhz bu ardıcıl və məqsədyönlü siyasət ölkənin gələcək inkişaf strategiyasının əsasını təşkil etmişdir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığı şanlı qələbə nəticəsində 30 ilə yaxın işğal altında qalmış tarixi torpaqlarımız azad edilmişdir. Bu Zəfər həm qətiyyətli siyasi iradənin, həm də güclü ordu quruculuğunun məntiqi nəticəsi kimi dəyərləndirilir. 2023-cü il sentyabrın

19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində separatizmə son qoyulmuş, ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam təmin edilmişdir.

Hazırda Böyük Qayıdış proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Müasir şəhər və kəndlərin salınması, infrastrukturun yenidən qurulması, nəqliyyat və enerji layihələrinin icrası bölgələrimizin sürətli dirçəlişinə xidmət edir. Məcburi köçkünlərin doğma yurdlarına qayıdışı mərhələli şəkildə təmin olunur və yeni həyat şəraiti yaradılır.

İctimai-siyasi sabitliyin etibarlı şəkildə qorunması, sosial-iqtisadi inkişafın davamlı xarakter alması və milli maraqların qətiyyətlə təmin edilməsi sayəsində əldə olunan mühüm nailiyyətlər Azərbaycanın hərtərəfli tərəqqisini və artan qüdrətini nümayiş etdirir. Bu uğurlar müstəqil dövlətimizin daha güclü, rəqabətqabiliyyətli və dayanıqlı gələcəyə doğru inamla irəlilədiyini təsdiqləyir.

***

2021-ci il iyunun 15-də qədim Şuşa şəhərində imzalanan “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” iki qardaş dövlət arasındakı münasibətlərin tarixində yeni mərhələnin əsasını qoydu. Vətən müharibəsində əldə edilmiş tarixi Zəfərdən sonra imzalanan bu sənəd regionun gələcək geosiyasi mənzərəsini müəyyən edən mühüm strateji amilə çevrildi.

Şuşa Bəyannaməsi Azərbaycan–Türkiyə münasibətlərinin əsasında dayanan ortaq tarixə, milli-mənəvi dəyərlərə, siyasi iradəyə və qarşılıqlı etimada söykənir. Bəyannamə tarixi köklərə əsaslanır və Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir” fikri ilə Ümummilli Lider Heydər Əliyevin “Bir millət, iki dövlət” konsepsiyasının

məntiqi davamıdır. Uzun illər işğal altında qalmış və Vətən müharibəsində azad edilmiş Şuşada müttəfiqlik haqqında sənədin imzalanması Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasının beynəlxalq müstəvidə təsdiqinin mühüm göstəricilərindən biridir.

Şuşa Bəyannaməsi bütün dünyaya verilmiş siyasi və geosiyasi mesajdır. Azərbaycan və Türkiyə münasibətləri artıq ənənəvi dostluq və qardaşlıq çərçivəsini aşaraq müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Bəyannamə regionda sülhün, təhlükəsizliyin və sabitliyin təmin edilməsinə xidmət edən mühüm siyasi platformadır. Sənəd, eyni zamanda, bəyan edir ki, iki dövlət qarşılıqlı maraqların qorunması, milli təhlükəsizliyin təmin olunması və regional əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində bundan sonra da vahid mövqedən çıxış edəcəkdir.

Şuşa Bəyannaməsi ilə Azərbaycan və Türkiyə münasibətləri bütün istiqamətlər üzrə strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Sənəddə siyasi əməkdaşlıq, xarici siyasətin koordinasiyası, iqtisadi əlaqələr, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya layihələri, humanitar əməkdaşlıq, təhsil, elm, müdafiə sənayesi və hərbi təhlükəsizlik məsələləri əhatə olunmuşdur. Bu baxımdan Şuşa Bəyannaməsi yalnız mövcud münasibətləri rəsmiləşdirən sənəd deyil, həm də gələcək onilliklər üçün əməkdaşlığın strateji yol xəritəsidir.

Bəyannamədə xüsusi yer tutan istiqamətlərdən biri xarici siyasət sahəsində əməkdaşlığın dərinləşdirilməsidir. Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi davam etdirmək, regional və qlobal məsələlərdə birgə fəaliyyət göstərmək barədə razılığa gəlmişlər. Bu yanaşma beynəlxalq münasibətlər sistemində hər iki dövlətin mövqeyinin güclənməsinə xidmət edir. Müasir dövrdə qlobal geosiyasi dəyişikliklər

fonunda rəsmi Bakı və Ankara arasında koordinasiyanın güclənməsi regional sabitliyin təmin olunmasına mühüm töhfə verir.

Şuşa Bəyannaməsinin ən mühüm müddəalarından biri müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıqla bağlıdır. Sənədə əsasən tərəflərdən birinin müstəqilliyinə, suverenliyinə və ya ərazi bütövlüyünə qarşı təhdid yaranacağı təqdirdə zəruri addımlar atılacaq. Bu müddəa Azərbaycan–Türkiyə münasibətlərinin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini bir daha təsdiqləyir. Müdafiə sənayesi, hərbi təhsil, birgə təlimlər, müasir texnologiyaların tətbiqi və silahlı qüvvələrin qarşılıqlı fəaliyyət imkanlarının artırılması sahələrində əməkdaşlıq son illərdə daha da genişlənmişdir. Vətən müharibəsində qazanılan təcrübə və sonrakı dövrdə həyata keçirilən birgə layihələr iki dövlətin müdafiə potensialının əhəmiyyətli dərəcədə güclənməsinə şərait yaratmışdır.

Şuşa Bəyannaməsində xüsusi əhəmiyyət verilən istiqamətlərdən biri nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafıdır. Bu çərçivədə Zəngəzur dəhlizi layihəsi mühüm yer tutur. Zəngəzur dəhlizi türk dünyasının inteqrasiyasını gücləndirəcək, Avropa ilə Asiya arasında yeni iqtisadi və logistika imkanları yaradacaqdır. Orta Dəhlizin inkişafı, Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin imkanlarının genişləndirilməsi, Qars–İğdır–Naxçıvan layihəsinin reallaşdırılması regionun nəqliyyat xəritəsini dəyişdirən mühüm amillərdir. Bu layihələr həm də beynəlxalq ticarətin həcminin artmasına və yeni investisiyaların cəlb olunmasına xidmət edir.

Şuşa Bəyannaməsi iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün mühüm zəmin yaratmışdır. Qarşılıqlı investisiyaların təşviqi, sənaye əməkdaşlığı, enerji layihələri və ticarət əlaqələrinin inkişafı iqtisadi inteqrasiyanın dərinləşməsinə səbəb olur. Bəyannamə iqtisadi münasibətlərin yeni mərhələyə keçməsini təmin etməklə yanaşı, regionda

əlverişli investisiya mühitinin formalaşmasına da mühüm töhfə verir. Sənədin əhəmiyyəti yalnız iki dövlət arasındakı münasibətlərlə məhdudlaşmır. Şuşa Bəyannaməsi, bütövlükdə, regionda əməkdaşlıq və inteqrasiya proseslərinin sürətlənməsinə xidmət edir. Nəqliyyat marşrutlarının genişlənməsi, enerji layihələrinin inkişafı, iqtisadi əməkdaşlığın güclənməsi və təhlükəsizlik mühitinin möhkəmlənməsi regionun bütün aktorları üçün yeni imkanlar yaradır. Bu baxımdan Şuşa Bəyannaməsi Cənubi Qafqazda uzunmüddətli sülh və sabitlik üçün mühüm siyasi platforma kimi çıxış edir.

Bəyannamədə əksini tapan mühüm istiqamətlərdən biri də diaspor təşkilatları və media qurumları arasında əməkdaşlığın gücləndirilməsidir. Xaricdə yaşayan azərbaycanlı və türk icmalarının koordinasiyalı fəaliyyəti, ortaq informasiya siyasətinin formalaşdırılması, beynəlxalq mediada həqiqətlərin daha effektiv şəkildə çatdırılması müasir dövrün mühüm çağırışlarından biridir. Bu sahədə həyata keçirilən birgə layihələr iki dövlətin beynəlxalq informasiya məkanında mövqelərinin daha da güclənməsinə xidmət edir.

Şuşa Bəyannaməsi, eyni zamanda, bölgədə revanşist meyillərin qarşısını alan mühüm siyasi sənəddir. Azərbaycan və Türkiyə regionda sülhün, təhlükəsizliyin və sabitliyin qorunması naminə birgə fəaliyyət göstərmək əzmindədir. Bu amillər həm regional təhlükəsizlik sisteminin möhkəmləndirilməsi, həm də gələcək risklərin qarşısının alınması baxımından mühüm əhəmiyyət daşıyır. Şuşa Bəyannaməsinin imzalanmasından sonra Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə hər il iyunun 15-də Şuşada mötəbər konfranslar keçirilir.

Şuşa Bəyannaməsi Azərbaycan–Türkiyə münasibətlərinin zirvə nöqtəsini təşkil edən tarixi sənəddir. Bu sənəd qardaşlıq münasibətlərini

hüquqi və siyasi müstəvidə müttəfiqlik səviyyəsinə yüksəltmiş, regionun gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. Bəyannamə siyasi, iqtisadi, hərbi, enerji, nəqliyyat, humanitar və informasiya sahələrində əməkdaşlığın daha da genişlənməsinə möhkəm zəmin yaratmışdır. Bu gün Şuşa Bəyannaməsi yalnız iki dövlət arasında münasibətlərin əsas sənədi deyil, həm də türk dünyasının birliyini gücləndirən, regional sabitliyi möhkəmləndirən və yeni geosiyasi reallıqları formalaşdıran mühüm strateji platformadır. Şuşa Bəyannaməsi zaman keçdikcə əhəmiyyətini daha da artırır və Azərbaycan–Türkiyə müttəfiqliyinin gələcək inkişafının əsas yol xəritəsi kimi çıxış edir.

**Ceyhun Məmmədov.** Dahi şəxsiyyətlər nadir hallarda yetişir və özləri tarix yaradırlar. Azərbaycan xalqının böyük və dahi oğlu, dünya şöhrətli siyasətçi Heydər Əliyev məhz tarix yaradan əvəzolunmaz şəxsiyyət idi.

1991-ci ilin oktyabrında öz dövlət müstəqilliyini ikinci dəfə qazanmış respublikamız 1993-cü ilin iyununa qədərki müddətdə böhran, xaos və anarxiya ilə üz-üzə qalmışdı. Belə ağır və çıxılmaz vəziyyətdə Azərbaycanın əsl xilaskara ehtiyacı var idi. Artıq hamıya aydın idi ki, nə o vaxtkı iqtidar, nə də o dövrdə hakimiyyətə iddialı olan müxtəlif qüvvələr ölkəni düşdüyü bu iflic vəziyyətindən çıxara bilməyəcəklər. Xalqımız yaxşı bilirdi ki, belə bir anda yalnız və yalnız Heydər Əliyev dühası milləti bu bəlalardan qurtara bilər. Xalq ayağa qalxdı və əldən getməkdə olan müstəqilliyinin nicatı üçün Heydər Əliyevi təkidlə Naxçıvandan Bakıya dəvət etdi. Xalqın çağırışına, taleyinə heç vaxt biganə olmayan Ulu Öndərimiz 1993-cü il iyunun 9-da respublika paytaxtına gəldi və iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin sessiyasında Ali Sovetin sədri seçildi. Heydər Əliyevin ölkə rəhbərliyinə bu qayıdışı siyasi-iqtisadi böhran içində boğulan Azərbaycanı böyük fəlakətdən xilas etdi.

Dahi şəxsiyyət Heydər Əliyevin xalqı qarşısında ən böyük xidmətlərindən biri də özündən sonra onun iqtisadi, siyasi kursunu davam etdirə biləcək layiqli varis yetişdirməsidir. 2003-cü ildə böyük səs çoxluğu ilə Azərbaycan Prezidenti seçilən İlham Əliyev Ulu Öndərin təməlini qoyduğu siyasi, iqtisadi kursu qloballaşan dünyanın tələblərinə uyğun olaraq, inam və ardıcıllıqla davam etdirdi, torpaqlarımızı işğaldan azad etdi.

Vətən müharibəsi parlaq qələbəmizlə başa çatdıqdan sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan mütəmadi olaraq, işğaldan azad edilmiş ərazilərimizə səfərlər edir. Orada ərazilərimizdə bərpa və yenidənqurma işləri aparılır.

Bu gün bütün sahələrdə əldə etdiyimiz uğurların əsasında Ulu Öndərin möhkəm təməlini qoyduğu iqtisadi, siyasi inkişaf strategiyası dayanır. Azərbaycana böyük uğurlar gətirən bu inkişaf kursu bu gün Prezidentimiz cənab İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycan daha da çiçəklənir, ölkəmiz yeni-yeni uğurlara imza atır. Heydər Əliyevin əziz xatirəsi qəlbimizdə daim yaşayacaq.

***

Bu gün sürətli bir formada ağıllı telefonların, süni intellektin və sosial medianın həyatımıza daxil olması dünyamızı, təlim-tədris prosesini, ümumilikdə, dünya təhsil sistemini ciddi çağırışlarla üz-üzə qoyub. Məsələnin ən ağrılı tərəfi isə bütün bu proseslərin təlim-tərbiyə prosesinə ciddi mənfi təsir göstərməsidir. Son vaxtlar dünyanın müxtəlif ölkələrində bu istiqamətdə geniş müzakirələr aparılmaqda və ciddi qərarlar qəbul edilməkdədir.

Son vaxtlar həm ölkəmizdə, həm də xaricdə məktəblərdə baş verən xoşagəlməz hadisələr bizdən bu kimi məsələlərə xüsusi diqqət və həssaslıqla yanaşmağı tələb edir.

Uşaqların sağlam böyüməsinə dövlətimizin yüksək qayğısını əks etdirən məsələlərdən biri də bir müddət bundan əvvəl Prezident İlham Əliyevin "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı" çox mühüm sənəd imzalamasıdır. Sənəd bir çox aspektdən xüsusi önəm və əhəmiyyət daşıyır. Sənəddə uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması, məktəbəhazırlıq qruplarında və ümumi təhsil müəssisələrində mobil və elektron cihazlardan istifadəyə dair qaydaların müəyyən edilməsi və tətbiqi ilə bağlı çox mühüm məqamlar əksini tapıb. Düşünürəm ki, ağıllı telefonların, süni intellektin və sosial medianın uşaqların tərbiyəsinə getdikcə artan təsirləri nəzərə alınaraq belə qərarın qəbul olunması xüsusi əhəmiyyət daşıyır. Bu istiqamətdə geniş maarifləndirmə və təbliğat işlərinin aparılmasına ehtiyac var. Eyni zamanda, uşaqların internet oyunlarına çıxışı məhdudlaşdırılmalıdır.

**Əminə Ağazadə.** Bu gün müzakirə etdiyimiz qanun layihəsi yalnız informasiya texnologiyaları və ya sosial şəbəkələrin fəaliyyəti ilə bağlı texniki tənzimləmə deyil, bu layihə ilk növbədə uşaqların hüquqlarının müdafiəsi məsələsidir.

Etiraf etməliyik ki, son illərdə uşaqların həyatının mühüm hissəsi rəqəmsal mühitə keçib. Əgər bir vaxtlar valideynlər övladlarının küçədə, məktəbdə və ya digər ictimai yerlərdə təhlükəsizliyindən narahat olurdularsa, bu gün həmin narahatlıq virtual məkana da şamil edilir. Təəssüf ki, internet və sosial şəbəkələr uşaqlar üçün təkcə bilik və ünsiyyət məkanı deyil, eyni zamanda, zorakılığın, təhqirin, manipulyasiyanın, asılılıq

yaradan məzmunun və şəxsi məlumatlardan sui-istifadənin mənbəyinə çevrilə bilir.

Konstitusiyamız dövlətin uşaqların müdafiəsini təmin etmək vəzifəsini müəyyən edir. Azərbaycan Respublikasının qoşulduğu BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası da uşaqların onların inkişafına zərər vura biləcək informasiya təsirlərindən qorunmasını dövlətlərin üzərinə öhdəlik kimi qoyur. Buna görə də rəqəmsal mühitdə uşaqların müdafiəsi artıq seçim deyil, hüquqi zərurətdir.

Müzakirə olunan layihənin əsas üstünlüyü ondan ibarətdir ki, o, məsuliyyəti yalnız valideynlərin üzərinə qoymur. Layihə sosial şəbəkə platformalarının və onların provayderlərinin də konkret öhdəliklərini müəyyən edir. Çünki milyonlarca istifadəçidən gəlir əldə edən platformalar həmin mühitdə yaranan risklərə görə də müəyyən məsuliyyət daşımalıdırlar.

Xüsusi ilə diqqətəlayiq hal ondan ibarətdir ki, layihə uşaqların şəxsi məlumatlarının qorunmasına, zərərli məzmunun qarşısının alınmasına, yaşın müəyyənləşdirilməsi mexanizmlərinə və təhlükəsiz istifadə rejiminin təmin edilməsinə yönəlmiş hüquqi çərçivə yaradır. Bu yanaşma artıq bir çox ölkələrdə formalaşan beynəlxalq təcrübə ilə də səsləşir.

Biz çox vaxt uşaqların fiziki təhlükəsizliyindən danışırıq. Amma unutmayaq ki, müasir dövrdə rəqəmsal təhlükəsizlik də ən azı fiziki təhlükəsizlik qədər əhəmiyyətlidir. Uşaq küçədə necə müdafiə olunursa, virtual məkanda da eyni dərəcədə müdafiə olunmalıdır.

Hesab edirəm ki, bu qanun layihəsi məhz belə bir məqsədə – uşaqlarımız üçün daha təhlükəsiz, məsuliyyətli və sağlam rəqəmsal mühitin formalaşdırılmasına xidmət edir.

Bu səbəbdən layihəni dəstəkləyirəm və həmkarlarımızı da ona səs verməyə çağırıram.

**Fatma Yıldırım.** Müzakirəyə çıxarılan qanun layihəsi informasiya məkanında, xüsusi ilə uşaqların rəqəmsal mühitdə qorunması sahəsində mövcud çağırışlara cavab verən mühüm təşəbbüslərdən biridir.

Bu gün informasiya texnologiyalarının sürətli inkişafı həyatımızın bütün sahələrinə nüfuz edib. Uşaqlar və yeniyetmələr çox erkən yaşlardan internetə, sosial şəbəkələrə və müxtəlif rəqəmsal platformalara çıxış əldə edirlər. Bu imkanlar onların bilik və dünyagörüşünün genişlənməsinə xidmət etsə də, eyni zamanda, müəyyən risklər də yaradır.

Son illər müşahidə edirik ki, sosial şəbəkələr vasitəsi ilə zorakılığın, aqressiyanın, özünə zərərvermənin, qeyri-etik davranışların və müxtəlif təhlükəli çağırışların təbliği halları artmaqdadır. Bəzən uşaqlar bu məzmunun təsiri altına düşərək həm psixoloji, həm də fiziki baxımdan ciddi təhlükələrlə üzləşirlər. Bu səbəbdən dövlətin uşaqların informasiya təhlükəsizliyinin təmin olunması istiqamətində əlavə tədbirlər görməsi tamamilə zəruridir.

Təqdim olunan dəyişikliklər bir daha göstərir ki, ölkəmizdə uşaqların hüquq və mənafelərinin qorunması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Biz yalnız fiziki təhlükəsizlikdən danışmırıq. Müasir dövrdə informasiya təhlükəsizliyi də uşağın sağlam inkişafının mühüm tərkib hissəsidir.

Hesab edirəm ki, burada əsas məqsəd internetdən istifadə imkanlarını məhdudlaşdırmaq deyil, rəqəmsal mühitin daha təhlükəsiz olmasına nail olmaqdır. Bu baxımdan sosial platformaların məsuliyyətinin artırılması, zərərli informasiyanın yayılmasının qarşısının alınması və qanunvericilikdə

nəzərdə tutulan tələblərin pozulmasına görə məsuliyyət tədbirlərinin müəyyənləşdirilməsi vacib addımdır.

Eyni zamanda, düşünürəm ki, bu proses yalnız hüquqi mexanizmlərlə məhdudlaşmamalıdır. Valideynlərin, məktəblərin, vətəndaş cəmiyyətinin və media qurumlarının da üzərinə mühüm vəzifələr düşür. Uşaqlarda rəqəmsal savadlılığın formalaşdırılması, təhlükələrin izah edilməsi və internetdən düzgün istifadə vərdişlərinin aşılanması ən az qanunvericilik tədbirləri qədər əhəmiyyətlidir.

Məsələnin digər mühüm tərəfi milli informasiya təhlükəsizliyi ilə bağlıdır. Bu gün müxtəlif xarici təsir mexanizmləri, dezinformasiya kampaniyaları və manipulyativ məzmunlar sosial media vasitəsi ilə sürətlə yayılır. Belə şəraitdə cəmiyyətin, xüsusi ilə gənc nəslin zərərli informasiyadan qorunması dövlətin qarşısında duran vacib vəzifələrdən biridir.

İnanıram ki, müzakirə etdiyimiz qanun layihəsi uşaqların informasiya mühitində daha etibarlı şəkildə qorunmasına, rəqəmsal platformalarda məsuliyyətin artırılmasına və sağlam informasiya məkanının formalaşmasına öz töhfəsini verəcəkdir.

Bu baxımdan qanun layihəsini dəstəkləyir və onun qəbul olunmasını məqsədəuyğun hesab edirəm.

**Hicran Hüseynova** (*çıxışının davamı*). Bildiyiniz kimi, Prezident İlham Əliyevin Sərəncamı ilə “Azərbaycan Respublikasında Gender (kişi və qadınların) bərabərliyi üzrə 2026–2028-ci illər üçün Milli Fəaliyyət Planı” təsdiq edilmişdir. Bu sənəddən irəli gələrək, “Gender büdcəsi” anlayışını nəzərdən keçirməyi və gələcəkdə qanunvericilikdə təsbit olunmasını təklif edirəm. Gender büdcəsi sosial və iqtisadi siyasətin daha ədalətli və inklüziv formalaşdırılması, dövlət resurslarının səmərəli və məqsədyönlü istifadəsi üçün imkanlar yaradır.

İkinci məsələ, bir neçə ay bundan əvvəl “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Həmin qanunun 5-ci maddəsinin 5.1.2-ci bəndində qeyd olunur ki, uşaqların mənafelərinin üstünlüyü prinsipindən irəli gələrək dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi dövlət büdcəsinin proqnozlaşdırılmasında nəzərə alınmalıdır.

Növbəti illərdə dövlət büdcəsi haqqında illik hesabatlarda bu bəndlə bağlı məlumatların olmasını təklif edirəm. Bütövlükdə, mən də qanun layihəsini, hesabatı əhatəli hazırlanmış sənəd hesab edirəm, ona səs verəcəyəm.

**Xanlar Fətiyev.** 3 gündən sonra xalqımız özünün dövlətçilik tarixinin əlamətdar hadisələrindən birini – Milli Qurtuluş Gününü qeyd edəcək. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlı olan bu tarix müstəqilliyimizin və dövlətimizin xilas günüdür. Müasir Azərbaycanın bütün uğurları öz başlanğıcını Milli Qurtuluş Günündən götürür. Ona görə 1993-cü il 15 iyun tarixinin Azərbaycanın müstəqillik, dövlətçilik və siyasi tarixində əlahiddə yeri var.

Müstəqilliyimizin ilk illərində respublikamızda cərəyan edən ağır və keşməkeşli proseslər, ölkəni sarsıdan faciəvi hadisələr orta və yaşlı nəslin xatirindədir. Hakimiyyəti ələ alan qaragüruh olan-qalan idarəçilik sistemini də sıradan çıxarmışdı və nəticə etibarı ilə xaotik vəziyyət yaranmışdı. İqtisadiyyat tamamilə tənəzzülə uğramış, inflyasiya tarixdə görünməmiş dərəcədə dərinləşmişdi. Bütün bunlar və ən əsası torpaqlarımızın Ermənistanın işğal planları qarşısında müdafiəsiz qalması, xarici dairələr tərəfindən separatizmin körüklənməsi, ölkənin parçalanmaq astanasına gəlməsi və vətəndaş qarşıdurmasının baş qaldırması təzəcə əldə edilmiş

müstəqilliyimizi yenidən itirmək və Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu.

1993-cü il iyun ayının 4-də Gəncədə baş verən silahlı qarşıdurma ölkədəki siyasi və hərbi böhranı daha da dərinləşdirmişdi. Belə bir vəziyyətdən çıxış yolunu axtaran Azərbaycan xalqı öz xilasını Naxçıvan Ali Məclisinin sədri vəzifəsində çalışan görkəmli dövlət xadimi Heydər Əliyevin Bakıya gəlməsində görürdü. Buna görə Naxçıvana, Heydər Əliyevə çoxsaylı müraciətlər ünvanlanırdı. Bu müraciətlər, əslində, çoxdan başlamışdı və 1992-ci ildə Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması onu göstərirdi ki, xalqımız Azərbaycanın etibarlı gələcəyini məhz Heydər Əliyevin respublikaya rəhbərlik etməsində görür. Çünki Heydər Əliyev buna qədər çalışdığı bütün ali vəzifələrdə Azərbaycana layiqli xidmətin ən böyük nümunələrini yaratmışdı. 1990-cı ildə Naxçıvana gəldikdən sonra isə bu dahi şəxsiyyət öz siyasi fəaliyyəti ilə Azərbaycanın müstəqilliyi uğrunda milli mübarizəni yeni keyfiyyət mərhələsinə yüksəltmiş, Naxçıvanı Ermənistanın işğalından qorumuş, Türkiyə və İranla faydalı əlaqələr yaradaraq blokada vəziyyətində olan muxtar respublikanın sosial-iqtisadi çətinliklərinin azaldılması üçün mühüm işlər görmüşdü.

1993-cü il iyunun 9-da Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsi xalqımızın Azərbaycanın sabahına olan inamını bərpa etdi. Həmin gün ölkədə hər kəs sevinirdi. Çünki hamı bilirdi ki, məhz Heydər Əliyev özünün böyük siyasi dühası ilə Azərbaycanı məhvə doğru aparan bütün proseslərin qarşısını alacaq, dövlətçiliyimizi labüd təhlükələrdən xilas edəcək. Bakıya gələn kimi xilaskarlıq missiyasına başlayan Heydər Əliyev vəziyyətin təhlükəli olmasına baxmayaraq, Gəncəyə yollandı, vəziyyətlə yerində tanış oldu və özünün siyasi müdrikliyi ilə əvvəlcə vətəndaş qarşıdurmasının,

qardaş qanının axıdılmasının qarşısını aldı. Bu, Azərbaycanı milli qurtuluşa aparan yolun başlanğıcı oldu.

Bakıya gəldikdən 6 gün sonra, 1993-cü il iyun ayının 15-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sədri seçilməsi isə respublikamızın tarixində və xalqımızın taleyində tamamilə yeni mərhələnin başlanğıcı oldu. Məhz böyük strateq Heydər Əliyevin siyasi müdrikliyi sayəsində separatçılıq meyillərinin və dövlətçiliyimizə qarşı yönəlmiş bütün cəhdlərin qarşısı alındı. Beləliklə, xalqın təkidli istək və arzusu ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev dövlətçiliyimizi və müstəqilliyimizi qoruyaraq, Azərbaycanı sözün bütün mənalarında xilas etdi. Buna görə tariximizə Milli Qurtuluş Günü kimi həkk olunan 1993-cü ilin 15 iyun tarixi Azərbaycanın müasir tarixində xüsusi yer tutur. Hər zaman qədirbilənliklə qarşıladığımız bu tarixdə Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı xidmətlərini ehtiramla yada salır, Ulu Öndərin işıqlı xatirəsini yad edirik.

1993-cü ilin oktyabrında Ulu Öndər Heydər Əliyevin mütləq səs çoxluğu ilə Azərbaycan Prezidenti seçilməsi xalqımızın öz xilaskarına olan inam və etimadının siyasi, hüquqi təzahürü oldu. Azərbaycanı məhv olmaqdan və parçalanmaqdan xilas edən, separatizmin qarşısını alan Heydər Əliyevin respublikaya rəhbərliyinin nəticəsi olaraq dövlət idarəçiliyi, qanunçuluq, ictimai asayiş bərqərar edildi, kriminogen vəziyyət yaxşılaşdırıldı. Hüquqi, iqtisadi, sosial və aqrar islahatlara start verildi, nizami ordu quruculuğu həyata keçirildi, Ermənistanın işğal planlarının qarşısı alındı. 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanması, 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu kimi hadisələr iqtisadi və hüquqi müstəvidə yeni mərhələlərin başlanğıcı oldu, respublikamızın beynəlxalq birlikdəki yerini möhkəmləndirdi. Bütövlükdə, Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi

1993–2003-cü illərdə respublikada həyata keçirilən işlər bugünkü inkişafın möhkəm bünövrəsini yaratdı. Heydər Əliyev siyasəti Azərbaycanın müstəqil dövlətçiliyini əbədi və sarsılmaz etdi.

Heydər Əliyev siyasəti və ideyaları ilə inkişaf edən Azərbaycan bu gün yalnız regionda deyil, dünyada söz və nüfuz sahibi kimi tanınan dövlətdir. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın keçdiyi inkişaf yolu respublikamızı beynəlxalq münasibətlər sisteminin ehtiram göstərilən subyektinə çevirib. Heydər Əliyevin müəllifi olduğu enerji strategiyasının Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasəti nəticəsində yeni keyfiyyət mərhələsinə yüksəldilməsi, o cümlədən nəqliyyat layihələrinin həyata keçirilməsi Avrasiyada iqtisadi əməkdaşlığın və inteqrasiyanın dərinləşməsinə yol açaraq, Azərbaycana bu coğrafiyanın orta gücü statusu qazandırıb.

Azərbaycanın bu dövrdə qazandığı ən möhtəşəm uğur isə əlbəttə ki, torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün bərpa edilməsidir. Bunu təmin edən müzəffər Ali Baş Komandan İlham Əliyev həm də Ulu Öndərin vəsiyyətini yerinə yetirdi, Azərbaycanı Heydər Əliyevin arzuladığı səviyyəyə yüksəltdi.

1993-cü ilin ağır və keşməkeşli günlərində xəyal belə edə bilməzdik ki, yaxın gələcəkdə tamamilə başqa reallıqlar hakim olacaq, Azərbaycan tezliklə sayılıb-seçilən, nüfuzlu dövlətlər cərgəsində yer alacaq. 1993-cü ilin iyunundan, Milli Qurtuluş Günündən Azərbaycanda başlanan Heydər Əliyev siyasəti bu həqiqəti təmin etdi. İndi Azərbaycan tarixinin ən şərəfli və qüdrətli dövrünü yaşayır, müstəqilliyimizin dayaqları sarsılmazdır və heç bir qüvvə dövlətimiz üçün təhdid yarada bilməz.

**Kamal Cəfərov.** Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycanın möhkəm makroiqtisadi və

makrofiskal dayanıqlığı təmin edilibdir. Bizim valyuta və qızıl ehtiyatlarımız ölkənin ÜDM-ni üstələyən bir həcmdədir. Bütün xarici şok və böhranlara baxmayaraq, ölkəmizin xarici borcu azalma tendensiyasındadır. Hazırda dövlət borcu ÜDM-in 20,1 faizini təşkil edir. Beynəlxalq Valyuta Fondunun təsnifatında neft istehsalçıları ölkələri üzrə bu göstərici 53,3 faiz, Avropa Birliyi ölkələri üçün 60 faiz, dünya ortalaması isə 93,9 faizdir.

Bu o deməkdir ki, dövlət böhran anlarında, o cümlədən pandemiya və ya qlobal bazarlarda neft qiymətlərinin düşməsi zamanı beynəlxalq bazarlara müraciət etmədən öz iqtisadiyyatını ayaqda saxlamaq üçün böyük manevr imkanına malikdir. Xarici şoklara qarşı bu, etibarlı bir qalxandır.

İkinci mühüm fakt isə qeyri-neft sektorunun ÜDM-dəki payının 71 faizdən çox olmasıdır. Bu rəqəm Azərbaycan iqtisadiyyatı üçün fundamental bir dönüş nöqtəsidir. Tarixən bir çox resursla zəngin ölkələr “Holland xəstəliyi”ndən əziyyət çəkir, yəni bütün iqtisadiyyat yalnız neftin qiymətindən asılı olur və neft ucuzlaşanda hər şey çökür. 71 faiz göstəricisi sübut edir ki, Azərbaycan artıq bu asılılığı çoxdan qırıb.

Sənaye zonaları, kənd təsərrüfatı, turizm, tranzit-logistika (Orta Dəhliz) və İKT kimi sahələr iqtisadiyyatın əsas yükünü öz çiyinlərinə götürməyi bacarıb. Məhz qeyd etdiyim, güclü makroiqtisadi vəziyyətinin məntiqi nəticəsi kimi, inklüziv böyümə də uğurlu olub.

2025-ci ildə orta pensiya 9 faiz artırılaraq 540 manata çatdırıldı. Yaşa görə pensiya 576 manata yüksəldi. Yaşayış minimumu 5,6 faiz artaraq 285 manata, işləyənlər üçün isə 305 manata gətirildi. Yoxsulluq həddinin yuxarı qaldırılması ilə bağlı 420 milyon manat ünvanlı sosial yardım ayrılıb.

Dövlət büdcəsi ilə bağlı tarixi fakt ondan ibarətdir ki, 2025-ci ilin dövlət büdcəsi son 10 ildə ilk dəfə olaraq profisitlə icra olunub. Bu, fiskal intizamın göstəricisidir.

Eyni zamanda, 2 narahatedici məqam barədə danışmaq istəyirəm.

Birincisi, Hesablama Palatası müəyyən etmişdir ki, 600 milyon manat dövlət vəsaiti ilin sonunda xəzinə hesabına qaytarılmayıb, qurumun şəxsi bank hesabında saxlanılıb, 2026-ci ilə ötürülüb. Bu isə korrupsiyaya şərait yaradan hal kimi ciddi suallar yaradır. Banklarda saxlanılan 600 milyon vəsaitə görə hansısa faiz əldə edilibmi?

**Kamaləddin Qafarov.** Bir neçə gündən sonra qədirbilən xalqımız öz tarixinin ən unudulmaz bayramlarından birini, 15 İyun – Milli Qurtuluş Gününü böyük sevinc və qürur hissi ilə qeyd edəcəkdir. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və Azərbaycan dövlətçiliyi qarşısında ən böyük xidməti olan xilaskarlıq missiyası yerinə yetirilmədən bu gün müstəqil Azərbaycan mövcud ola bilməzdi. Məhz buna görə də Azərbaycan xalqının tarixinə yazılmış ən şərəfli və eyni zamanda, ən önəmli səhifələrdən biri olan 15 İyun – Milli Qurtuluş Günü hər il ölkəmizdə böyük coşqu və təntənə ilə qeyd edilir. Azərbaycanın 33 il bundan əvvəl qədəm qoyduğu möhtəşəm qurtuluş və nicat yolu bu gün xalqımızı ard-arda gələn möhtəşəm qələbələrlə, tarixi nailiyyətlərlə müjdələyir.

Milli Qurtuluş Gününün banisi Ulu Öndər Heydər Əliyev öz xalqını, vətənini hər bir azərbaycanlı üçün örnək ola biləcək misilsiz fədakarlıqla sevirdi. Ötən əsrin sonlarında yeni bərpa olunmuş müstəqilliyimizin ilk iki ilində respublikaya rəhbərlik edən şəxslər baş verən proseslərdən düzgün nəticə çıxara bilmirdilər. Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğal olunur, ölkədə siyasi vəziyyət getdikcə gərginləşir, əhalinin sosial durumu gündən-günə ağırlaşırdı. Bütün bunlar ölkəni dərin

böhrandan çıxara biləcək, xalqı öz arxasınca aparmağa qadir olacaq liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi.

1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyevin xalqın çağırışına səs verərək Bakıya qayıdışı ilə Azərbaycanı parçalanmaq və dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən qurtardı. Həmin dövrdə respublikamızı Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələr gözləyirdi. Lakin Ulu Öndərin hakimiyyətə qayıdışı ölkəmizin taleyində dönüş anı oldu. Məhz bu qayıdışla böyük qurtuluşa doğru mühüm addım atıldı. İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü.

Heydər Əliyev Azərbaycan tarixində xilaskar və qurucu lider statusunda yer almış yeganə şəxsiyyətdir. Ümummilli Lider qısa zamanda qiyamçı dəstələrin zərərsizləşdirilməsinə nail oldu. Hakimiyyət boşluğunu aradan qaldırdı, ictimai-siyasi sabitliyin, qanunçuluğun gücləndirilməsi istiqamətində real addımlar atdı. Ulu Öndər cəmiyyətdə milli həmrəyliyin əldə olunmasına, sabitliyin möhkəmləndirilməsinə, iqtisadi tənəzzülün qarşısının alınmasına yönəlmiş ardıcıl tədbirlər həyata keçirdi. Məhz bu xilaskar missiyanın nəticəsi kimi, Azərbaycan xalqı 1993-cü ilin oktyabrında Ulu Öndər Heydər Əliyevə etimad göstərərək onu ölkə Prezidenti seçdi. Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi 1993–2003-cü illərdə də xilaskarlıq və quruculuq missiyası ilə xalqının yeganə ümid, nicat yeri oldu.

Heydər Əliyev dühası Azərbaycan dövlətinin, xalqının bir millət kimi yetkinləşməsində müstəsna əhəmiyyət kəsb etdiyindən tariximizin çox parlaq şəxsiyyətlərindən birinə çevrildi. XX əsrdə ikinci dəfə müstəqilliyinə nail olmuş demokratik Azərbaycan dövlətinin qurulması istiqamətindəki xidmətləri böyük idarəçilik təcrübəsinə malik olan Ümummilli Liderimizin böyük tarixi şəxsiyyət olduğunu təsdiq etdi. Ümumilikdə, 1993–2003-cü illər Azərbaycan tarixinə dirçəliş, inkişaf, tərəqqi dövrü kimi yazıldı. Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyi, sarsılmazlığı təmin edildi.

Bu gün Azərbaycan öz şanlı tarixinin ən şərəfli dövrünü yaşayır və ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu tarixin ən önəmli səhifələrini yazır. Ulu Öndər Heydər Əliyev siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi bu gün Azərbaycanın ardıcıl əldə etdiyi qələbələrin təməlində duran ən mühüm amildir. 2003-cü ildən bu günədək əldə olunmuş böyük uğurların, möhtəşəm nailiyyətlərin pik nöqtəsi, əlbəttə ki, Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi qələbəsidir. 2023-cü ilin sentyabr ayında keçirilmiş lokal xarakterli antiterror tədbirinin nəticəsi olaraq ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Bununla da 30 il Azərbaycanı narahat edən Qarabağ problemi birdəfəlik öz həllini tapdı.

Bu gün işğaldan azad edilmiş torpaqlarda ən müasir infrastruktur layihələrinin təməli qoyulur, Şuşada, Xankəndidə Novruz tonqalları alovlandırılır, Böyük Qayıdışın reallaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilir. Heç bir şübhə yoxdur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha uca zirvələr fəth edəcək, düşmənin yerlə-yeksan etdiyi Qarabağ isə dünyanın ən gözəl guşələrindən birinə çevriləcəkdir.

**Könül Nurullayeva.** Milli Qurtuluş Günü müasir Azərbaycan dövlətçiliyinin qorunub saxlanılmasında və möhkəmləndirilməsində mühüm rol oynamış tarixi hadisədir. Bu gün təkcə təqvimdə qeyd olunan əlamətdar tarix deyil, həm də xalqımızın birliyini, dövlətçiliyə sədaqətini və müstəqillik əzmini ifadə edən əhəmiyyətli bir gündür.

1990-cı illərin əvvəllərində Azərbaycan yenidən dövlət müstəqilliyini bərpa etsə də, ölkədə mürəkkəb siyasi və sosial vəziyyət hökm sürürdü. Hakimiyyət böhranı, iqtisadi çətinliklər, Ermənistanın hərbi təcavüzü və daxili qarşıdurmalar dövlətimizin gələcəyini ciddi təhlükə altına qoymuşdu. 1993-cü ilin iyun ayında yaranmış vəziyyət artıq ölkənin müstəqilliyinin və dövlətçiliyinin taleyini müəyyən edən kritik mərhələyə çevrilmişdi.

Belə bir şəraitdə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev ölkənin xilası missiyasını öz üzərinə götürdü. 1993-cü il iyunun 15-də onun Azərbaycan Ali Sovetinin sədri seçilməsi dövlətimizin tarixində dönüş nöqtəsi oldu. Məhz həmin tarixdən etibarən ölkədə sabitliyin təmin olunması, dövlət institutlarının möhkəmləndirilməsi və milli maraqlara əsaslanan inkişaf strategiyasının həyata keçirilməsi istiqamətində mühüm addımlar atıldı.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan qısa müddətdə dərin siyasi böhrandan çıxaraq inkişaf yoluna qədəm qoydu. Dövlət idarəçiliyi sistemi təkmilləşdirildi, hüquqi və demokratik institutların formalaşdırılması istiqamətində mühüm işlər görüldü, ölkəmizin beynəlxalq əlaqələri genişləndirildi. Azərbaycanın dünya birliyində etibarlı tərəfdaş kimi tanınmasının əsası da məhz həmin dövrdə qoyuldu.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Ümummilli Liderin müəyyən etdiyi siyasi kurs uğurla davam etdirilir. Son illər ərzində ölkəmiz iqtisadi, siyasi və sosial sahələrdə mühüm nailiyyətlər əldə etmiş,

beynəlxalq nüfuzu daha da artmışdır. Azərbaycan regional və qlobal layihələrin fəal iştirakçısına çevrilmiş, enerji təhlükəsizliyi, nəqliyyat və beynəlxalq əməkdaşlıq sahələrində mühüm təşəbbüslərlə çıxış etmişdir.

Müasir tariximizin ən mühüm hadisələrindən biri olan 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə də həyata keçirilən ardıcıl dövlət siyasətinin nəticəsidir. Azərbaycan Ordusunun şücaəti, xalqımızın həmrəyliyi və Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi sayəsində ölkəmizin ərazi bütövlüyü bərpa edildi. 2023-cü ildə həyata keçirilən tədbirlər nəticəsində isə dövlət suverenliyimiz tam təmin olundu.

Milli Qurtuluş Gününün əhəmiyyəti bu gün də öz aktuallığını qoruyub saxlayır. Bu tarix bizə dövlətçiliyin, milli birliyin və siyasi sabitliyin nə qədər vacib olduğunu xatırladır. Azərbaycanın bugünkü inkişafı və əldə etdiyi uğurlar göstərir ki, güclü dövlətin əsas dayağı xalqın birliyi və milli maraqlara söykənən siyasətidir.

Tarixi yaddaşın qorunması və bu dəyərlərin gələcək nəsillərə çatdırılması hər birimizin üzərinə düşən mühüm vəzifədir. Dövlətçilik ənənələrinə hörmət, vətənə bağlılıq və milli maraqların müdafiəsi Azərbaycanın gələcək inkişafının əsas təminatlarından biridir.

15 İyun – Milli Qurtuluş Günü münasibəti ilə hər birinizi ürəkdən təbrik edir, ölkəmizə davamlı inkişaf, firavanlıq və yeni uğurlar arzulayıram.

***

Müzakirəyə təqdim olunan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi müasir dövrün ən aktual çağırışlarından biri olan uşaqların rəqəmsal mühitdə müdafiəsinin gücləndirilməsinə xidmət edir.

Azərbaycanda uşaqların hüquqlarının qorunması, onların sağlam, təhlükəsiz və hərtərəfli inkişafının təmin edilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Son illər ölkəmizdə uşaqların təhlükəsiz mühitdə böyüməsi, keyfiyyətli təhsil alması və hüquqlarının etibarlı müdafiəsi istiqamətində mühüm addımlar atılmışdır. Lakin rəqəmsal texnologiyaların həyatımızda tutduğu yerin sürətlə artması uşaqların virtual məkanda qorunmasını da günümüzün vacib məsələlərindən birinə çevirib. Məhz bu baxımdan sosial şəbəkələrdən istifadə ilə bağlı yeni hüquqi tənzimləmələrə ehtiyac yaranmışdır.

Bu gün sosial şəbəkələr uşaqların gündəlik həyatının ayrılmaz hissəsinə çevrilmişdir. Statistik göstəricilər göstərir ki, Azərbaycanda 10-17 yaş aralığında olan uşaqların 89 faizi smartfon istifadəçisidir və onların 76 faizi hər gün müxtəlif sosial media platformalarına daxil olur. Araşdırmalara əsasən bir uşaq orta hesabla gün ərzində 4 saat 12 dəqiqəsini sosial şəbəkələrdə keçirir. Bu isə onun aktiv vaxtının təxminən üçdə bir hissəsinə bərabərdir.

Rəqəmsal texnologiyalar təhsil, informasiya əldə etmək və ünsiyyət imkanlarını genişləndirsə də, uzunmüddətli və nəzarətsiz istifadə uşaqları müxtəlif risklərlə üz-üzə qoyur. Beynəlxalq tədqiqatlar göstərir ki, sosial şəbəkələrdən həddindən artıq istifadə diqqət dağınıqlığına, emosional gərginliyə, yuxu pozuntularına, özünəinamın azalmasına və sosial münasibətlərdə çətinliklərə səbəb ola bilər. Eyni zamanda, uşaqlar kibertəhdidlərə, zorakılıq xarakterli məzmunlara, manipulyativ təsirlərə, şəxsi məlumatların sui-istifadəsinə və digər təhlükələrə məruz qala bilirlər. Dövlətin və cəmiyyətin vəzifəsi rəqəmsal imkanlarla təhlükəsizlik arasında düzgün balans yaratmaqdır.

Təqdim olunan qanun layihəsi məhz bu məqsədə xidmət edir. Layihədə sosial şəbəkələrdə fərdi hesab açılması üçün minimum yaş həddinin 16 yaş olaraq müəyyən edilməsi nəzərdə tutulur. Bundan əlavə, 16 yaşına çatmamış şəxslərin sosial şəbəkə platformalarında fərdi hesab yaratmasına və həmin platformalardan istifadəsinə icazə verilməyəcək. Eyni zamanda, 16-18 yaş arasında olan yeniyetmələrin sosial şəbəkələrdən istifadəsi yalnız valideynlərinin, qəyyumlarının və ya digər qanuni nümayəndələrinin razılığı əsasında mümkün olacaqdır.

Bu yanaşmanın əsas məqsədi uşaqların yaş xüsusiyyətlərinə uyğun, təhlükəsiz və sağlam rəqəmsal mühitdə fəaliyyət göstərməsini təmin etməkdir. Beləliklə, uşaqlar internet və müasir texnologiyaların üstünlüklərindən faydalanmaqla yanaşı, onların yarada biləcəyi risklərdən də qorunmuş olacaqlar.

Layihədə uşaqların şəxsi məlumatlarının kommersiya və reklam məqsədləri üçün istifadəsinin qadağan olunması, geolokasiya məlumatlarının qorunması və yetkinlik yaşına çatmamış dövrdə paylaşılmış məlumatların sonradan silinməsi hüququnun təmin edilməsi mühüm yeniliklərdəndir. Bu müddəalar uşaqların rəqəmsal hüquqlarının və şəxsi toxunulmazlığının müdafiəsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Məlum olduğu kimi, Azərbaycanda uşaqların zərərli informasiyadan qorunması istiqamətində hüquqi baza artıq formalaşdırılmışdır. 2018-ci ildə qəbul edilmiş "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanun uşaqların yaşlarına uyğun informasiya əldə etmək hüququnu təmin etməklə yanaşı, onları mənfi təsirlərdən qorumağı da nəzərdə tutur. Bu gün müzakirə etdiyimiz dəyişikliklər həmin siyasətin və hüquqi yanaşmanın məntiqi davamı kimi çıxış edir.

Qanun layihəsinin digər mühüm tərəfi sosial şəbəkə platformalarının üzərinə konkret öhdəliklərin qoyulmasıdır. Təhlükəli və zərərli məzmunun 24 saat ərzində aradan qaldırılması, yaşın yoxlanılması mexanizmlərinin tətbiqi, dövlət orqanları ilə əməkdaşlıq və digər tələblər rəqəmsal mühitdə daha məsuliyyətli fəaliyyətin təmin edilməsinə xidmət edir. Eyni zamanda, qanunvericiliyin tələblərinə əməl edilmədiyi hallarda İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, müxtəlif məbləğlərdə cərimələrin tətbiqi, təkrar pozuntular zamanı isə daha sərt maliyyə sanksiyalarının nəzərdə tutulması platformaların məsuliyyətini artırmağa yönəlmişdir.

Uşaqların rəqəmsal təhlükəsizliyinin təmin olunmasında ailənin rolu da xüsusi əhəmiyyət daşıyır. İnternetdən və sosial şəbəkələrdən istifadəyə nəzarət ilk növbədə ailədə formalaşmalıdır. Valideynlər övladlarının onlayn fəaliyyətinə maraq göstərməli, onları mümkün təhlükələr barədə məlumatlandırmalı və düzgün rəqəmsal davranış vərdişləri aşılamalıdırlar. Qanun layihəsində 16-18 yaşlı yeniyetmələr üçün valideyn razılığının tələb olunması da ailənin bu prosesdə iştirakını və məsuliyyətini daha da artırmağa xidmət edir.

Dünya təcrübəsinə nəzər saldıqda görürük ki, bir çox ölkələr, o cümlədən Avstraliya və Avropa dövlətləri uşaqların onlayn təhlükəsizliyinin təmin olunması istiqamətində oxşar hüquqi mexanizmlər formalaşdırırlar. Azərbaycan da beynəlxalq tendensiyalara uyğun addımlar ataraq uşaqların təhlükəsiz rəqəmsal mühitdə inkişafını təmin etməyə çalışır.

Bu gün uşaqların təhlükəsizliyi naminə atılan hər bir addım gələcəyimizin sağlam təməlinin formalaşdırılmasına yönəlmiş mühüm investisiyadır. Sağlam düşüncəli, bilikli və məsuliyyətli nəslin yetişməsi üçün rəqəmsal mühitdə təhlükəsizliyin təmin olunması zamanın tələbidir. Dövlətin, ailənin, təhsil müəssisələrinin, vətəndaş cəmiyyətinin və rəqəmsal

platformaların birgə səyləri nəticəsində uşaqlar üçün daha təhlükəsiz və faydalı rəqəmsal mühit yaratmaq mümkündür.

Hesab edirəm ki, təqdim olunan qanun layihəsi uşaqların hüquq və mənafelərinin müdafiəsinə, təhlükəsiz informasiya mühitinin formalaşdırılmasına və rəqəmsal dövrdə dövlətin sosial məsuliyyətinin daha da gücləndirilməsinə xidmət edir.

Bu səbəbdən qanun layihəsini dəstəkləyir və həmkarlarımızı da onun lehinə səs verməyə çağırıram.

**Nigar Məmmədova.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi yalnız texniki dəyişiklik deyil, bu, əslində, uşaqların gələcəyinə hesablanıb.

Son illərdə texnologiyalar həyatımızın ayrılmaz hissəsinə çevrilib. Sosial şəbəkələr ünsiyyət, məlumat əldə etmək və özünüifadə üçün geniş imkanlar yaradıb. Lakin etiraf etməliyik ki, bu imkanlarla yanaşı, yeni risklər də meydana çıxıb.

Əvvəllər uşağın formalaşmasında əsas rol ailəyə, məktəbə və cəmiyyətə məxsus idi. Bu gün isə onların yanında daha bir təsir gücü yaranıb – sosial şəbəkələrin alqoritmləri. Bu alqoritmlər hər gün uşaqların nəyi görəcəyini, nəyi oxuyacağını, nəyi bəyənəcəyini və hətta nəyə inanacağını müəyyən dərəcədə formalaşdırır.

Hesab edirəm ki, bu qanunun əsas mahiyyəti də məhz budur. Biz bu gün uşaqları internetdən qorumağa çalışmırıq, biz uşaqları alqoritmlərin nəzarətsiz təsirindən qorumağa çalışırıq. Əgər ailə və məktəb uşağın qarşısında məsuliyyət daşıyırsa, onda uşağın şüuruna və davranışına hər

gün təsir göstərən platformalar da müəyyən məsuliyyət daşımalıdırlar. Bu qanun texnologiyalara deyil, məsuliyyətsizliyə qarşıdır. Beləliklə, uşaqların təhlükəsizliyi yalnız valideynlərin deyil, həm də rəqəmsal platformaların məsuliyyət sahəsinə daxil olur.

Mən məsələyə bir qədər də psixoloji baxımdan yanaşmaq istəyirəm. Bu gün mübarizə, sadəcə, uşağın diqqəti uğrunda getmir, həm də şəxsiyyəti uğrunda gedir. Müasir sosial şəbəkələr istifadəçinin platformada daha çox vaxt keçirməsi üçün qurulub. Lakin yetkin insanla yeniyetmənin psixoloji imkanları eyni deyil. Yetkin insanın malik olduğu tənqidi düşüncə, özünüidarəetmə və emosional müdafiə mexanizmləri uşaqlarda hələ tam formalaşmayıb. Buna görə də rəqəmsal mühitdə uşaqların qorunması texniki deyil, psixoloji təhlükəsizlik məsələsidir. Bu, gələcək nəslin sağlam inkişafı məsələsidir.

Bu gün biz həm də uşaqların hüququndan danışırıq. Uşağın özünü alqoritmlərin diktəsi ilə deyil, ailəsinin, müəllimlərinin və cəmiyyətin dəyərləri ilə formalaşdırmaq hüququndan, uşağın özünü sosial şəbəkələrin yaratdığı süni müqayisələrin və psixoloji təzyiqlərin təsiri altında deyil, sağlam mühitdə inkişaf etdirmək hüququndan.

Ölkənin gələcəyi istifadə etdiyimiz texnologiyalarla deyil, yetişdirdiyimiz uşaqlarla müəyyən olunur. Bu səbəbdən, hesab edirəm ki, müzakirə olunan qanun layihəsi zamanın çağırışlarına verilən düzgün və məsuliyyətli cavabdır.

**Nizami Səfərov.** Sosial şəbəkə platformalarında yaş məhdudiyyətinin, yəni müəyyən yaşa catmayan şəxslərin sosial media hesabı açmaq və ondan istifadə etmək qabiliyyəti üçün qanunla müəyyən edilən yaş hədlərinin tətbiq olunması artıq qlobal miqyaslı problemə çevrilmişdir.

Nəzərə almaq lazımdır ki, informasiya-kommunikasiya texnologiyalarının inkişafı yetkinlik yaşına catmayanlar da daxil olmaqla, bütün insanlara müxtəlif sahələrdə geniş imkanlar yaradır. Belə bir vəziyyət, yəni smartfon, planşet, müasir rəqəmsal texnologiyalardan istifadə, ümumiyyətlə, "uşaqlıq dövrü" məfhumunu fundamental formada transformasiya edir və təhsil almaq, ünsiyyət yaratmaq, məlumat əldə etmək üçün presedentsiz imkanlar təqdim edərək, eyni zamanda, təhlükəsizlik, konfidensiallıq, sosial və emosional vəziyyət üçün ciddi risklər yaradır. Sosial medianın sürətlə insanların gündəlik həyatlarına daxil olması müxtəlif problemlərlə yanaşı, "rəqəmsal yaş" problemini həddindən artıq aktuallaşdırıb. Müasir dünyada müşahidə olunan qlobal trendlər əyani formada nümayiş etdirir ki, zərərli kontentdən, istismardan, diskriminasiyadan, nifrət ideologiyasından, qanuna zidd əməllərin təşviqindən müdafiə sisteminin qurulması beynəlxalq birliyi əsaslı şəkildə narahat edir.

Eyni zamanda, qeyd etməliyəm ki, "rəqəmsal yaşın" məhdudlaşdırılması uşaqların zərərli informasiyalardan qorunmasını, onların hüquqlarının etibarlı şəkildə müdafiəsini ehtiva edən daha geniş yanaşmanın komponenti olmalıdır və mütləq formada internet istifadəçisi olan şəxslərin tənzimlənməyən və təhlükəli informasiya resurslarına axınının qarşısının alınmasına xidmət etməlidir.

Müasir dövrün beynəlxalq komparativ təcrübəsinə müraciət etdikdə məlum olur ki, istər beynəlxalq təşkilatlar, istərsə də ayrı-ayrı dövlətlər uşaqların zərərli kontentdən və informasiyalardan qorunması problemini öz gündəliklərinin ən həssas məsələsi kimi müzakirəyə çıxararaq konkret hüquqi addımlar atırlar.

Dünya miqyasında ilk bu cür addım Avstraliya tərəfindən atılıb və 2024-cü il noyabrın 24-də qəbul olunan qanun 2025-ci il 10 dekabr tarixindən qüvvəyə minərək 16 yaşınadək uşaqların sosial platformalara – “Facebook”, “Instagram”, “Snapchat”, “Threads”, “TikTok”, “X”, “YouTube”, “Reddit” və bir neçə striminq servislərinə girişini qadağan edib və mövcud hesabların deaktivləşdirilməsi üçün zəruri tədbirlər görülməsini nəzərdə tutub. Eyni zamanda, qeyd etmək lazımdır ki, bu qadağalar “WhatsApp”, elektron poçt ünvanlarına, online oyunlara və tədris layihələrinə şamil olunmur.

Portuqaliya və Sloveniya 15 və 16 yaşlı uşaqlara qeyd edilən məhdudiyyətlərin tətbiqini nəzərdə tutan qanunvericilik qəbul edib və hazırda Avropa İttifaqının 10 dövləti bu cür qanunvericilik aktlarının qəbul edilməsinə hazırlaşır.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihəsi konseptual baxımdan kompleks xarakter daşıyır və üç əlaqəli qanunda dəyişiklikləri nəzərdə tutaraq, rəqəmsal məkanda uşaqların fiziki və psixi sağlamlıqlarının, hüquqi və qanuni maraqlarının səmərəli şəkildə qorunmasının, sosial media platformalarının təhlükəsiz istifadəsinin təmin olunmasının və onların fəaliyyətində etibarlı hüquqi tənzimləmənin və hüquq müəyyənliyinin təmin edilməsi məqsədinə xidmət edir. Layihəni səciyyələndirən mühüm hüquqi komponent ondan ibarətdir ki, sosial şəbəkə platformalarında yaş məhdudiyyətinin müəyyən edilməsi deklarativ xarakter daşımır və kifayət qədər sərt inzibati tənbeh tədbirlərini nəzərdə tutur.

Milli qanunvericilik sisteminə yeni hüquqi tənzimləmənin daxil edilməsi ümumdünya tendensiyaları çərçivəsindədir, əhəmiyyətli xarakter daşıyır. Qanun layihəsinin qəbul edilməsi müsbət təsirini əyani formada nümayiş

etdirəcək. Ümidvaram ki, hörmətli deputatlar qanun lahihəsini dəstəkləyəcəklər.

**Rövşən Muradov.** Azərbaycanın müasir dövlətçilik salnaməsində 15 iyun – Milli Qurtuluş Günü xalqın taleyində, sadəcə, siyasi dönüş anı kimi deyil, milli varlığın öz dövlətini qorumaq iradəsinin, müstəqillik ideyasının real idarəçilik gücünə çevrilməsinin və tarixin ən ağır sınaqları qarşısında Azərbaycan xalqının müdrik seçim etmək bacarığının parlaq ifadəsi kimi dəyərləndirilməlidir. Bu tarix dövlətçilik yaddaşımızda ona görə müstəsna yer tutur ki, həmin gün Azərbaycan xaosdan sabitliyə, parçalanma təhlükəsindən milli bütövlüyə, siyasi pərakəndəlikdən sistemli idarəçiliyə doğru həlledici addımlar atdı.

1990-cı illərin əvvəllərində Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etsə də, həmin müstəqilliyin qorunması son dərəcə mürəkkəb tarixi şəraitdə baş verirdi. Hakimiyyətdə olan AXC–Müsavat cütlüyünün idarəetmə təcrübəsinin olmaması, siyasi məsuliyyətsizlik, iqtisadi tənəzzül, cəbhədə ağır itkilər, separatizm meyilləri, qanunsuz silahlı qruplaşmaların fəaliyyəti və xarici təzyiqlər ölkəni dövlətçilik böhranının ən təhlükəli mərhələsinə gətirmişdi. Dövlət institutlarının iflic vəziyyətinə düşməsi, ictimai etimadın sarsılması və milli həmrəyliyin zədələnməsi Azərbaycanın gələcəyini ciddi sual altında qoyurdu.

Belə bir məqamda xalq nicat yolunu böyük siyasi təcrübəyə, dərin dövlətçilik təfəkkürünə və sarsılmaz milli iradəyə malik Heydər Əliyevin şəxsiyyətində gördü. Respublikamızın belə ağır vəziyyətə düşdüyü bir vaxtda – 1993-cü il iyunun 15-də xalqımızın tam əksəriyyətinin təkidli tələbi ilə Heydər Əliyevin ikinci dəfə respublika rəhbərliyinə gətirilməsi ölkəmizi və bütünlüklə, xalqımızı çıxılmaz fəlakətdən xilas etdi və Azərbaycanın qurtuluşu başlandı.

Öz xalqından heç bir təmənnası olmayan bu böyük şəxsiyyət yenidən respublikaya rəhbərlik etməyə başladığı ilk gündən Azərbaycanda həyata keçirilən bütün iqtisadi islahatların və köklü dəyişikliklərin təşkilatçısı və ilhamvericisi olmuşdur. Onun gərgin əməyi, səriştəsi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində Azərbaycanda ictimai-siyasi sabitlik bərpa edildi, siyasi institutlar möhkəmləndirildi, nizami ordu quruculuğuna başlanıldı. Müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu, çoxşaxəli diplomatik əlaqələr quruldu və Azərbaycanın beynəlxalq münasibətlər sistemində öz yerini tutması üçün möhkəm əsaslar yaradıldı. Bütün bu xidmətlərinə görə Azərbaycan xalqı həmişə Heydər Əliyevə minnətdar olacaqdır.

Bu gün müasir Azərbaycan qüdrətli dövlətə çevrilmişdir. Çünki kökü milli qurtuluş, siyasi dayağı Heydər Əliyev məktəbi, zirvəsi Zəfər, gələcəyi isə Prezident İlham Əliyevin uzaqgörən liderliyi, milli iradə və dövlətçilik məsuliyyəti ilə müəyyən olunur.

**Sadiq Qurbanov.** Milli Qurtuluş Gününüz mübarək! Azərbaycanın müasir tarixində 15 iyun xüsusi məna və dəyərə malikdir. Bu tarix xalqımızın dövlətçilik iradəsinin təntənəsi, müstəqilliyimizin qorunmasının dönüş nöqtəsi, ölkəmizin gələcək inkişaf yolunun müəyyənləşdirildiyi taleyüklü mərhələ kimi yaddaşlara həkk olunmuşdur.

1993-cü ilin iyununda Azərbaycan ağır siyasi sınaqlarla üz-üzə qalmışdı. Dövlət idarəçiliyində yaranmış böhran, daxili qarşıdurmalar və parçalanma təhlükəsi ölkənin gələcəyini ciddi risk qarşısında qoyurdu. Belə bir şəraitdə xalqın tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev öz zəngin dövlətçilik təcrübəsi və qətiyyətli siyasi iradəsi ilə Azərbaycanı xaosdan sabitliyə, qeyri-müəyyənlikdən inkişaf yoluna çıxardı.

Məhz həmin gündən etibarən ölkəmizdə güclü dövlət quruculuğu prosesi başladı. Hüquqi dövlət təsisatları möhkəmləndirildi, nizami ordu formalaşdırıldı, iqtisadi inkişaf strategiyası müəyyən edildi və azərbaycançılıq ideyası milli birliyin əsas dayağına çevrildi. Qurtuluş xalqımıza sabaha inam, dövlətimizə isə davamlı inkişaf perspektivi qazandırdı.

Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, Ulu Öndərin müəyyənləşdirdiyi siyasi kurs Prezident İlham Əliyevin rəhbərliyi altında möhtəşəm uğurlarla davam edir. Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi tam təmin olunub, işğaldan azad edilmiş torpaqlarımızda geniş quruculuq işləri həyata keçirilir, Qarabağ və Şərqi Zəngəzur yeni inkişaf mərhələsinə qədəm qoyur.

Azərbaycan hazırda regional əməkdaşlığın aparıcı iştirakçılarından biri kimi çıxış edir. Enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya layihələri, yaşıl enerji təşəbbüsləri və beynəlxalq dialoq platformaları ölkəmizin artan nüfuzunu aydın şəkildə nümayiş etdirir. Qarabağda həyata keçirilən “Ağıllı şəhər” və “Ağıllı kənd” layihələri, eyni zamanda, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının ardıcıl şəkildə inkişaf etdirilməsi güclü dövlət siyasətinin mühüm nəticələridir.

Bu günlərdə Azərbaycan–Türkiyə müttəfiqliyinin siyasi zirvəsini ifadə edən Şuşa Bəyannaməsinin ildönümünü də qeyd edirik. Qardaş ölkələrimiz arasında formalaşmış strateji birlik regionun inkişafına, təhlükəsizliyinə və rifahına mühüm töhfələr verir.

Milli Qurtuluş Günü xalqımızın birliyini, dövlətimizin gücünü və gələcəyə inamını ifadə edən əziz bayramdır. Bizim vəzifəmiz Ulu Öndərin miras qoyduğu dövlətçilik ənənələrini yaşatmaq, Prezident İlham Əliyevin

rəhbərliyi ilə daha da qüdrətlənən Azərbaycanı yeni uğurlara daşımaq, xalqımızın rifahı və dövlətimizin maraqları naminə əzmlə çalışmaqdır.

Bu əlamətdar gün münasibəti ilə xalqımızı səmimi qəlbdən təbrik edir, Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edirəm.

**Sahib Alıyev.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi", eləcə də "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda gözlənilən dəyişikliklər son dərəcə aktualdır və onun təsir çevrəsi təsəvvür edildiyindən daha böyükdür. Burada söhbət həm də bir sıra hallarda, böyük dövlətləri çıxmaqla, digərləri ilə əməkdaşlıqda elə də maraqlı görünməyən beynəlxalq platformalardan getdiyindən irəli sürülən tələblərə əməl edilməsi, milyonlarca adamın rəqəmsal identifikasiyası və fərdi məlumatlarının təhlükəsizliyinin necə qorunması ilə bağlı xeyli məsələlər var ki, tam çözülmələri üçün böyük zəhmət, vaxt, ardıcıl təkmilləşdirilmələrsiz ötüşməyəcək bir proses tələb olunur. Bu baxımdan Elektron Təhlükəsizlik Xidmətinin yerində səlahiyyət, resurs və kadr bazası daha geniş olan Milli Kibertəhlükəsizlik Agentliyinin yaradılması çox vaxtında atılmış addım oldu.

Biz burada bir reallığı nəzərdən qaçırmamalıyıq ki, virtual platformaların heç də hamısı əyləncə yeri deyil, orada ancaq zərərli, zəhərləyici və asılılıq yaradan kontentlər olmur. Bu platformalar üzərindən milyonlarca uşaq və yeniyetmə süni intellekt alətlərindən istifadə edir, qlobal bilik və resurslara çıxış imkanları qazanır. Yəni deməyim budur ki, bu dəyişikliklər həmin resurslara çıxış üçün maneçilik yaratmamalıdır və ümid edirəm, yaratmayacaq.

Onu da deyim ki, uşaqları zərərli kontentlərdən qorumaq problemi inzibati yolla və hazırda edilən dəyişikliklərlə tam aradan qalxmayacaq.

Digər ölkələrin də təcrübəsi göstərir ki, bunun üçün birincisi media və informasiya savadlılığının artırılmasına ehtiyac var və bu, qanunvericilik müstəvisində həllini tapmalıdır. Bu məsələ qanunvericilik müstəvisində doğru həllini tapdığındandır ki, Beynəlxalq Telekommunikasiya İttifaqı və Digital Intelligence (DQ) İnstitutunun Uşaqların Onlayn Təhlükəsizlik İndeksi hesabatlarında Malayziya inkişaf etməkdə olan və keçid iqtisadiyyatına malik ölkələr qrupunda uzun illərdir ki, lider mövqeyindədir. Malayziyanın bu sahədə qazandığı uğurun əsas səbəbləri və tətbiq etdiyi effektiv mexanizmlərdən biri uşaqlara və valideynlərə zərərli kontentləri dərhal müəyyənləşdirmək və bloklamaq bacarıqlarının kütləvi şəkildə öyrədilməsidir. Orada rəqəmsal savadlılıq və kibertəhlükəsizlik dərsləri ibtidai siniflərdən başlayaraq icbari təhsil proqramına salınıb.

Mən bilərəkdən inkişaf etməkdə olan ölkəni misal gətirdim. Amma əgər söhbət media və informasiya savadlılığı sahəsində ən effektiv qanunvericilik və dövlət modelindən gedirsə, fikrimcə, bu, Finlandiya modelidir. Finlandiya modelinin ən mükəmməl sayılmasının səbəbi ondadır ki, təkcə uşaqlara deyil, bütün yaş qruplarına hədəflənib və qanunvericilikdə “Milli Kurikulum Proqramı” elə qurulub ki, media savadlılığı ayrıca bir fənn deyil, bağçadan universitetə qədər bütün fənlərin tərkib hissəsi kimi tədris olunur. Ona görə də Dezinformasiyaya Qarşı Milli Müqavimət indeksinin ən yüksək olduğu ölkələrdən də biri yenə Finlandiyadır.

Bizim qanunvericilikdə media və informasiya savadlılığı məsələsi ilk dəfə 2021-ci il dekabrın 30-da qəbul edilmiş “Media haqqında” Qanunla rəsmi hüquqi termin statusu daşımağa başladı. Amma mən bu fikirdəyəm ki, Azərbaycanda ayrıca belə bir qanuna, həm də mütaliə və onun təşviqi haqqında qanuna ehtiyac var. Ona görə ki, informasiya xaosu dönəmində az hazırlıqlı informasiya istehlakçısını müxtəlif mənfi təsirlərdən qorumaq

üçün bizim qanunvericilikdə nəzərdə tutulan layihələr və ictimai müzakirələr yetərli sayıla bilməz.

Bir çox dövlətlərdə artıq mütaliə asudə vaxtın keçirilmə formasından biri, yaxud da hobbi olaraq deyil, cəmiyyətdəki sosial və mədəni bərabərsizliyi aradan qaldıran əsas insan hüququ, bəzilərində isə artıq milli təhlükəsizlik məsələsi kimi qiymətləndirilir. Onlarca ölkədə artıq mütaliə haqqında ayrıca qanun və dövlət proqramı qəbul edilib. Məsələn, Cənubi Koreyada "Mütaliənin təşviqi" Qanunu məktəblərdə dərslərə 10-15 dəqiqəlik mütaliə ilə başlanılmasını, iş yerlərində isə naharla yanaşı, mütaliə üçün də fasilə ayrılmasını tələb edir. Böyük Britaniya isə mütaliə mədəniyyətinin formalaşdırılmasının məktəbdən deyil, bağçadan başlanmalı olduğu qərarına gəlib və buna da uyğun dövlət proqramı var.

Bu misalları ona görə gətirirəm ki, əgər yüksək mütaliə mədəniyyəti formalaşarsa, birincisi, uşaqlar zərərli kontentlərlə maraqlanmaqdan çox kitab oxuyarlar. İkincisi isə yüksək mütaliə mədəniyyəti olanlara həmin kontentlər indiki qədər güclü təsir edə bilməz. Azərbaycan Prezidenti cənab İlham Əliyev dəfələrlə bildirib ki, yeniyetmə və gəncləri zərərli meyillərdən, radikal qrupların təsiri altına düşməkdən mühafizə edən birinci alət məhz savad və təhsildir.

**Səbinə Salmanova.** 15 İyun – Milli Qurtuluş Günü Azərbaycanın müasir tarixinin dönüş nöqtəsidir, xalqımızın, Azərbaycan dövlətçiliyinin sözün həqiqi mənasında xilası tarixidir. Bu tarixi yaradan, yazan isə milli, müstəqil dövlətçiliyimizin banisi Ulu Öndər Heydər Əliyevdir.

1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan çox mürəkkəb və ziddiyyətli proseslərlə üz-üzə qalmışdı. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımız işğal edilir, ölkə daxilində siyasi qarşıdurmalar dərinləşir, iqtisadi tənəzzül sürətlənir, dövlət idarəçiliyi isə iflic vəziyyətinə

düşürdü. Müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan faktiki olaraq dövlətçiliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qalmışdı. 1993-cü ilin iyun hadisələri ölkədə böhranın kulminasiya nöqtəsinə çevrildi. Vətəndaş qarşıdurması və parçalanma təhlükəsi Azərbaycanın gələcəyini sual altına almışdı. Belə ağır və taleyüklü bir məqamda xalqımızın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyev Bakıya dəvət olundu. Azərbaycan xalqı öz xilaskarını seçdi və taleyini etibarlı əllərə tapşırdı.

1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi ölkənin siyasi həyatında yeni mərhələnin başlanğıcı oldu. Məhz həmin gündən Azərbaycan dövlətçiliyinin xilasına, ictimai-siyasi sabitliyin təmin edilməsinə və milli birliyin möhkəmləndirilməsinə yönəlmiş ardıcıl siyasət həyata keçirilməyə başladı. Sonralar bu tarixi gün xalqımız tərəfindən Milli Qurtuluş Günü kimi qəbul edildi və dövlət bayramı statusu aldı. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ilk növbədə ölkədə sabitlik təmin edildi, dövlət institutları möhkəmləndirildi, separatçılıq meyillərinin qarşısı alındı, vətəndaş qarşıdurmasına son qoyuldu. Azərbaycanın müstəqilliyinin dönməzliyi təmin edildi. Bu mərhələ yalnız siyasi sabitliyin bərpası deyil, eyni zamanda, gələcək inkişafın möhkəm təməlinin qoyulması idi.

Ümummilli Liderin rəhbərliyi altında həyata keçirilən ən mühüm addımlardan biri 1994-cü ilin may ayında Ermənistanla atəşkəs sazişinin əldə edilməsi oldu. Atəşkəs Azərbaycan dövlətinin güclənməsi, iqtisadi potensialının artırılması və müasir ordu quruculuğu üçün əlverişli şərait yaratdı. Məhz həmin dövrdə əsası qoyulan dövlət quruculuğu siyasəti sonradan Azərbaycanın hərbi qüdrətinin formalaşmasına və torpaqlarımızın işğaldan azad edilməsinə aparan yolun başlanğıcı oldu.

Azərbaycanın müasir inkişaf tarixində mühüm dönüş nöqtələrindən biri də 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"dir. Bu sənəd Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirdi, ölkəyə milyardlarla dollar həcmində investisiya cəlb etdi, yeni enerji strategiyasının əsasını qoydu. Sonrakı illərdə Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum kimi nəhəng enerji layihələrinin reallaşması məhz həmin müqavilənin məntiqi davamı oldu. Azərbaycan qısa müddətdə regionun əsas enerji və nəqliyyat mərkəzlərindən birinə çevrildi.

Heydər Əliyevin dövlətçilik siyasətinin ən mühüm nailiyyətlərindən biri də hüquqi dövlət quruculuğu istiqamətində atılmış addımlar idi. Bu baxımdan 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası xüsusi əhəmiyyət daşıyır.

Müstəqil Azərbaycanın ilk Konstitusiyası insan hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi müəyyənləşdirdi. Konstitusiyada hakimiyyət bölgüsü prinsipi təsbit edildi, demokratik idarəçilik mexanizmləri formalaşdırıldı, mülkiyyət toxunulmazlığı, söz və vicdan azadlığı, qanunun aliliyi kimi fundamental prinsiplər öz əksini tapdı. Əsas qanun Azərbaycan Respublikasının demokratik, hüquqi, dünyəvi və unitar dövlət olduğunu təsbit etməklə ölkənin gələcək inkişaf konsepsiyasını müəyyənləşdirdi. Bu sənəd müstəqil dövlətçilik ənənələrinin formalaşmasında və vətəndaş cəmiyyətinin inkişafında mühüm rol oynadı. Yeni Konstitusiya bazasında qanunvericilik aktları təkmilləşdirildi, məhkəmə-hüquq sistemində mütərəqqi dəyişikliklər həyata keçirildi. Hüquqi dövlətin əsas prinsipləri – qanunun aliliyi, hakimiyyət bölgüsü və vətəndaş iştirakçılığı bu sənədin mahiyyətində öz əksini tapdı.

Dahi şəxsiyyət Heydər Əliyev, eyni zamanda, sistemli, uzunmüddətli və strateji xarakterli dövlət quruculuğu siyasəti həyata keçirirdi. Onun rəhbərliyi ilə iqtisadiyyat bazar mexanizmlərinə uyğunlaşdırıldı, özəlləşdirmə proqramları qəbul edildi, xarici sərmayə üçün əlverişli şərait yaradıldı. Dövlət orqanlarında struktur islahatları aparıldı, vətəndaş cəmiyyəti institutları inkişaf etməyə başladı.

Ulu Öndərin xarici siyasət kursu milli maraqlara əsaslanan, təhlükəsizliyi və əməkdaşlığı təmin edən çoxşaxəli bir strategiya idi. Ümummilli Liderimiz Heydər Əliyev qarşılıqlı hörmət əsasında tərəfdaşlıq siyasəti yürüdərək Azərbaycanın beynəlxalq münasibətlər sistemində tanınmasını və etibarlı tərəfdaş kimi qəbul olunmasını təmin etdi. Ölkəmiz regional və qlobal məsələlərdə fəal iştirak edərək Cənubi Qafqazda mühüm aktora çevrildi.

Ulu Öndər Heydər Əliyev gələcəyə hesablanmış siyasi kurs müəyyən etmiş, ölkənin inkişaf trayektoriyasını düzgün formalaşdırmışdı. Onun siyasi irsi, müstəqillik və dövlətçilik fəlsəfəsi bu gün də aktualdır. Bu strateji kurs möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan möhtəşəm nailiyyətlər qazanaraq tərəqqi yolunda inkişafını inamla davam etdirir. Davamlı iqtisadi inkişafa, mühüm hərbi potensiala və yüksək beynəlxalq nüfuza malik Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi qələbə qazanaraq torpaqlarımızı işğaldan azad etdi. 2023-cü ildə isə şanlı ordumuzun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyi tam təmin olundu.

15 İyun – Milli Qurtuluş Günü Azərbaycan xalqının yaddaşında yalnız bir tarixi hadisə deyil, həm də dövlətçiliyin xilası, xalqın birliyi və gələcəyə

inamın təntənəsi kimi mühüm önəm kəbs edir. Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası, dövlət quruculuğu sahəsindəki misilsiz xidmətləri nəticəsində Azərbaycan tənəzzüldən çıxaraq müstəqil və güclü dövlətə çevrilib. Bu siyasi kursun Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi nəticəsində Azərbaycan bu gün nəinki regionda, bütövlükdə, dünyada nüfuzlu aktor kimi mövqeyini möhkəmləndirib. Xalq–iqtidar birliyi sayəsində milli maraqlar təmin olunur və dövlətin suverenliyi qətiyyətlə qorunur. Heç şübhəsiz, Heydər Əliyev yolu müstəqil, qalib və qüdrətli Azərbaycana yeni qələbələr bəxş edəcək.

Ulu Öndərin əbədiyaşar ideyalarına sadiq qalaraq məqsədyönlü siyasət həyata keçirən, xalqın inam və etimadını layiqincə doğruldan və ata vəsiyyətini şərəflə yerinə yetirən cənab Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanı daha parlaq gələcəyə aparacaq, xalqımıza yeni möhtəşəm uğurlar qazandıracaq.

Bildiyiniz kimi, 15 iyun, eyni zamanda, Azərbaycan xalqının tarixində digər bir əlamətdar hadisəyə təsadüf edir. 2021-ci il iyunun 15-də cənab Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” imzalandı. Bu tarixi sənəd Azərbaycan–Türkiyə qardaşlığının sarsılmaz olduğunu bir daha dünyaya nümayiş etdirdi. Şuşa Bəyannaməsi, eyni zamanda, regionda yeni geosiyasi düzənin və təhlükəsizlik arxitekturasının əsasını qoydu. Xüsusi ilə son vaxtlar coğrafiyamızda və dünyada yaşananlar Şuşa Bəyannaməsinin nə qədər vacib və vaxtında imzalanan bir sənəd olduğunu bir daha təsdiqləyir.

Azərbaycan bu gün təkcə öz uğurları ilə deyil, yaratdığı siyasi, diplomatik və iqtisadi reallıqlarla da beynəlxalq münasibətlərin fəal və etibarlı oyunçusuna çevrilib. Qurtuluşdan Zəfərə aparan yol millətimizin

əzmini, dövlətimizin gücünü və liderimizin sarsılmaz iradəsini sübut edən şanlı yoldur. Biz bu yolu ləyaqətlə qorumalı, gələcək nəsillərə daha güclü, daha firavan Azərbaycan miras qoymalıyıq.

**Sevil Mikayılova.** Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsi ölkəmizin iqtisadi inkişaf istiqamətlərini və fiskal siyasətinin nəticələrini aydın şəkildə nümayiş etdirir.

İl ərzində büdcə gəlirləri 39,2 milyard manat təşkil edərək proqnozdan 829 milyon manat və ya 2,2 faiz artıq icra olunub ki, bu da iqtisadi aktivliyin və vergi daxilolmalarının gözləniləndən daha dayanıqlı olduğunu nümayiş etdirir. Eyni zamanda, büdcə xərcləri 41,4 milyard manatlıq təsdiq edilmiş göstəriciyə qarşı 38,6 milyard manat səviyyəsində icra olunub. Nəticə etibarı ilə əvvəlcədən 3,1 milyard manat həcmində proqnozlaşdırılan büdcə kəsiri faktiki olaraq aradan qalxmış, əvəzində 580 milyon manat büdcə artıqlığı yaranmışdır ki, bu da ölkənin makroiqtisadi sabitliyinin güclənməsi və maliyyə ehtiyatlarının artırılması baxımından mühüm göstərici hesab olunur.

2025-ci ildə qlobal iqtisadiyyatda qeyri-müəyyənliklərin artmasına, enerji bazarlarında qiymətlərin azalmasına baxmayaraq, Azərbaycan iqtisadiyyatı sabitliyini qoruyub saxlamışdır. Xüsusi ilə qeyd etmək lazımdır ki, iqtisadi artım tamamilə qeyri-neft-qaz sektoru hesabına təmin olunmuşdur. Hesabat ilində qeyri-neft-qaz sektorunda 92,3 milyard manat həcmində əlavə dəyər yaradılmış, bu sektorun ümumi daxili məhsuldakı payı 71,5 faizə yüksəlmişdir. Bu göstərici ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən siyasətin real nəticəsidir.

Müsbət haldır ki, qeyri-neft-qaz gəlirləri də artaraq 20,3 milyard manatdan çox olmuş və proqnozu üstələmişdir. Bu, iqtisadiyyatın neft gəlirlərindən asılılığının tədricən azalmasında və qeyri-neft sektorunun

büdcə gəlirlərinin formalaşmasında daha mühüm rol oynamağa başlamasının göstəricisidir.

Qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatının xüsusi yeri vardır. Kənd təsərrüfatı ölkənin ərzaq təhlükəsizliyinin, regionların inkişafının və məşğulluğun təmin edilməsinin əsas dayaqlarından biridir. Hesabat ilində bu sahədə artım qeydə alınsa da, artım tempi cəmi 0,9 faiz təşkil etmişdir. Bu göstərici strateji hədəflərdən aşağıdır və gələcək dövrdə kənd təsərrüfatının daha güclü dəstəklənməsinin vacibliyini ortaya qoyur.

Biz kənd təsərrüfatında məhsuldarlığın artırılması, müasir suvarma sistemlərinin genişləndirilməsi, aqrar innovasiyaların tətbiqi, fermerlərin maliyyə resurslarına çıxış imkanlarının yaxşılaşdırılması və ixrac potensialının artırılması istiqamətində səylərimizi daha da gücləndirməliyik. Kənd təsərrüfatına qoyulan hər bir investisiya həm regionların sosial rifahına, həm də ölkənin iqtisadi dayanıqlığına xidmət edir.

Nəticə etibarı ilə 2025-ci ilin dövlət büdcəsinin icrası göstərir ki, Azərbaycan iqtisadiyyatının əsas inkişaf mənbəyi getdikcə daha çox qeyri-neft sektoru olur. Qarşıdakı dövrdə kənd təsərrüfatının rəqabət qabiliyyətinin artırılmasına, regionların inkişafının sürətləndirilməsinə və ətraf mühitin qorunmasına yönəlmiş tədbirlərin genişləndirilməsi ölkəmizin dayanıqlı inkişafına mühüm töhfə verəcəkdir.

**Sevinc Fətəliyeva.** Rəqəmsallaşma müasir dövrdə dövlətlərin qarşısında yeni və mürəkkəb çağırışlar yaradır. Uşaqların rəqəmsal mühitdə hüquqlarının müdafiəsinə dair qanunda dəyişikliklərin bu gün müzakirəyə çıxarılması cəmiyyətimizin artan gözləntilərinə və dövrün tələblərinə vaxtında verilən cavabdır.

Qanun layihəsinin aktuallığını şərtləndirən bir neçə mühüm məqam üzərində ayrıca dayanmağa ehtiyac var.

1. Bu gün sosial şəbəkələr və rəqəmsal platformalar uşaqların və yeniyetmələrin dünyagörüşünə, davranış modellərinə və dəyərlər sisteminə birbaşa təsir göstərən mühüm amillərdən birinə çevrilib. Bu, nəzərə alınmalı və düzgün idarə olunmalı olan reallıqdır. Lakin rəqəmsal mühit yaratdığı imkanlarla yanaşı, ciddi risklər də formalaşdırır. Kiberbullinq, internet dələduzluğu, destruktiv məzmunun yayılması, şəxsi məlumatların nəzarətsiz toplanması və istifadəsi kimi təhlükələr xüsusi ilə uşaqlar üçün ciddi narahatlıq doğurur. Böyüklərdən fərqli olaraq uşaqlar və yeniyetmələr bu riskləri hər zaman vaxtında müəyyən edə və qiymətləndirə bilmirlər. Məhz buna görə uşaqların rəqəmsal təhlükəsizliyinin təmin olunması artıq yalnız ailədaxili məsələ deyil, dövlət siyasətinin mühüm istiqamətlərindən biridir.

2. Layihənin əsas yeniliklərindən biri media platformalarında qeydiyyat zamanı yaş nəzarəti mexanizmlərinin tətbiqidir. Bu mexanizmlər uşaqların yaş xüsusiyyətləri nəzərə alınmaqla, onların psixoloji və mənəvi inkişafına mənfi təsir göstərə biləcək məzmunlara çıxışını məhdudlaşdırmağa imkan verəcək.

Valideynlərin və qanuni nümayəndələrin rolunun gücləndirilməsi də xüsusi əhəmiyyət kəsb edir. Müasir texnologiyalar son dərəcə sürətlə inkişaf etdiyi üçün ailələrin uşaqların rəqəmsal fəaliyyətinə nəzarət imkanlarının genişləndirilməsi zəruri məsələyə çevrilib. Təklif olunan mexanizmlər valideynlərə uşaqların təhlükəsizliyini təmin etmək üçün daha effektiv vasitələr təqdim edir. Bu, uşağın hüquqlarının məhdudlaşdırılması deyil, onların daha etibarlı şəkildə qorunması deməkdir.

Məlumatların məxfiliyi məsələsi də xüsusi diqqət tələb edir. Yeniyetmələr çox zaman mümkün nəticələri tam dərk etmədən şəxsi məlumatlarını paylaşırlar. Buna görə də rəqəmsal platformalar və xidmət

təminatçıları üçün azyaşlıların məlumatlarının emalı sahəsində daha yüksək məsuliyyət standartlarının müəyyən edilməsi onların rəqəmsal hüquqlarının qorunması baxımından mühüm əhəmiyyət daşıyır.

3. Bu təşəbbüsün mühüm tərəflərindən biri rəqəmsal platformaların məsuliyyətinin artırılmasıdır. Uzun illər ərzində risklərin qarşısının alınması və zərərli məzmunun təsirlərindən qorunma yükünün əsas hissəsi istifadəçilərin və ailələrin üzərinə düşüb. Halbuki böyük texnologiya şirkətləri yaşın verifikasiyası, məzmunun moderasiyası və təhlükəsizlik mexanizmlərinin tətbiqi üçün kifayət qədər texniki imkanlara malikdirlər.

Yeni hüquqi normalar bu məsuliyyəti daha balanslı və ədalətli şəkildə bölüşdürməyə xidmət edir. Çünki rəqəmsal təhlükəsizlik yalnız istifadəçinin deyil, həmin rəqəmsal mühiti formalaşdıran platformaların da birbaşa öhdəliyidir.

4. Bu, senzura deyil, müdafiə mexanizmidir.

Dövlət müxtəlif sahələrdə – kinematoqrafiyada, ticarətdə, səhiyyədə və digər istiqamətlərdə yaş məhdudiyyətləri tətbiq edir və bu, cəmiyyət tərəfindən normal qarşılanır. Çünki məqsəd müəyyən yaş qruplarının qorunmasıdır.

Rəqəmsal mühit də uşaqların həyatına və inkişafına ənənəvi institutlar qədər təsir göstərir. Buna görə də burada adekvat hüquqi tənzimləmənin mövcudluğu tamamilə təbii və zəruridir.

Müzakirə olunan qanun layihəsi uşaqları texnologiyalardan uzaqlaşdırmaq məqsədi daşımır. Əksinə, məqsəd onların rəqəmsal dünyanın imkanlarından təhlükəsiz şəkildə faydalanmasına şərait yaratmaqdır.

Sürətli rəqəmsallaşma şəraitində belə təşəbbüslər artıq seçim deyil, obyektiv zərurətdir. Müasir dövlət yalnız texnoloji inkişafı təşviq etməklə

kifayətlənməməli, eyni zamanda, cəmiyyətin ən həssas təbəqələrinin təhlükəsizliyini də təmin etməlidir.

Müzakirə etdiyimiz qanun layihəsi ailə institutunun möhkəmləndirilməsinə, uşaqların rəqəmsal hüquqlarının qorunmasına və gələcək nəslin təhlükəsiz inkişafına xidmət edən vaxtında atılmış mühüm addımdır.

Söhbət qadağalardan deyil, uşaqların sağlamlığına, psixoloji vəziyyətinə və hərtərəfli inkişafına təhlükə yaratmadan rəqəmsal dünyanın üstünlüklərindən istifadə edə biləcəyi təhlükəsiz mühitin formalaşdırılmasından gedir. Məhz belə yanaşma Azərbaycan cəmiyyətinin uzunmüddətli maraqlarına cavab verir.

**Ülvi Quliyev.** Əyləşdiyimiz bu salon bir çox tarixi hadisələrə, xalqımızın və dövlətimizin müqəddəratı ilə bağlı taleyüklü müzakirələrə şahidlik edib. Təəssüf ki, onların sırasında hüquq və ədalət anlayışını gözdən salan, bir ovuc uğursuz siyasətçinin şəxsi maraqlarına xidmət edən qərarlar da yer alıb.

Heydər Əliyev fenomeninə görə prezident seçkilərində yaş senzinin tətbiq olunması və yuxarı yaş həddinin 65 yaşla məhdudlaşdırılması siyasi nadanların cahil təşəbbüslərindən yalnız biri idi. Əcnəbi ağalarının tapşırığı ilə bu salonda ayaqlarını yerə döyə-döyə Ulu Öndərə qarşı çirkin qarayaxma kampaniyası aparanlar sonradan Heydər Əliyevi elə bu salonda ayaqüstə alqışla qarşıladılar. Ona görə yox ki, rəzil davranışlarından utanıb mövqelərini dəyişmişdilər. Ona görə ki, yaltaqlıq bu cür nadanların yeganə "əqidə" meyarı idi.

Xalqımız artıq yaxşı bilir ki, sözdə demokratiyadan, haqq və ədalətdən dəm vuran AXC–Müsavat iqtidarının bir çox təmsilçisi yaş qadağasının və rəzil siyasi şouların təşkilatçısı və iştirakçısı idi. Cəmi 11 ay

iqtidarda qala bilən AXC–Müsavat hakimiyyəti elə zənn edirdi ki, xalqın səbri tükənməzdir. Siyasi müştəbehlik səbəbindən elə düşünürdülər ki, Azərbaycana yaşatdıqları faciələrə baxmayaraq, xalqımız onları bağışlayacaq və sonsuzadək dözəcək.

Çünki insanlarımıza yaşatdıqları məğlubiyyətin və ümidsizlik acısının nə qədər dərin olduğunun fərqində deyildilər. Davamlı şəkildə qəbul etdikləri səbatsız və çəkingən qərarları ilə göstərdilər ki, dövlət idarəçiliyinin yükünü və ağır məsuliyyətini daşımağa hazır deyillər. Ona görə də çox qısa müddətdə həm reallıq hissini, həm də vətəndaş etimadını itirdilər. Heç indinin özündə də anlamır və hələ də etiraf etmirlər ki, “qaçqın” və “məcburi köçkün” kimi mənəvi baxımdan ağır ifadələrin hüquqi və siyasi leksikonumuza gətirilməsinin, acı məğlubiyyətimizin baiskarı elə onların özləri, səriştəsiz idarəçilik tərzi və boş mənəm-mənəmlik iddiaları olub.

AXC–Müsavat iqtidarının bağışlanılmaz səhvləri və təqsiri ucbatından 1993-cü ilin iyununda Azərbaycan nəinki vətəndaş müharibəsi, hətta müstəqil dövlət kimi subyektliyini də itirmək təhlükəsi ilə üz-üzə qaldı. Xalqımız yaşamağa məhkum edildiyi acıların miqyasına baxmayaraq, o zaman həm dost və qardaş dövlətlərə, həm də bədxahlarımıza göstərdi ki, ölkəmizdə hakimiyyətin yeganə mənbəyi xalqdır. Məhz Azərbaycan xalqının təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də ağır ictimai-siyasi və hərbi mirasın məsuliyyətini öz çiyinlərinə götürdü. Ulu Öndər ibrətamiz nəsihətlərindən birində deyirdi ki, “Tarix həmişə hər şeyi öz yerinə qoyur”. Bu gün tarix artıq hər şeyi öz yerinə qoyub: qaliblərin də, məğlubların da ünvanı məlumdur, hər kəs haqq etdiyi yerdə dayanır.

Cənab İlham Əliyev 2 il əvvəl elə bu salonda keçirilən andiçmə mərasimində bəyan etdi ki, “Bizim ailəmiz türk dünyasıdır”. Hər kəs, ilk

növbədə, bədxahlarımız bilməlidirlər ki, bu, bir şüar deyil, bu, əqidə və dəyər seçimidir! 5 il əvvəl tarixi Şuşa Bəyannaməsinin məhz iyunun 15-də – Milli Qurtuluş Günündə imzalanması həmin bəyanatın yalnız dəyərlər seçimi ilə bağlı olduğunun əyani sübutudur.

Bu seçim sarsılmazdır, çünki təməlində dövlət müstəqilliyimizin və milli maraqlarımızın qorunmasına xidmət edən Ulu Öndərin bənzərsiz siyasi irsi dayanır. Dövlətçilik tariximizdə Ümummilli Lider Heydər Əliyevin xilaskar imzası ilə Prezident İlham Əliyevin müzəffər imzasının yanaşı dayanması bir daha sübut edir ki, bu yol xalqımızın və müstəqil Azərbaycanın yeganə uğur yoludur! Elə buna görə, Heydər Əliyev yalnız dahilərə məxsus olan müdrik uzaqgörənliklə deyirdi: "Nə qədər Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!"

**Şahin Seyidzadə.** Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində taleyüklü hadisələr xüsusi yer tutur. Bu hadisələr sırasında 15 İyun – Milli Qurtuluş Günü müstəsna əhəmiyyətə malikdir. Bu tarix təkcə siyasi hakimiyyət dəyişikliyi deyil, həm də müstəqil Azərbaycan dövlətinin məhv olmaq təhlükəsindən xilas edilməsi, dövlətçiliyimizin qorunması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından böyük tarixi əhəmiyyət daşıyır.

1990-cı illərin əvvəllərində Azərbaycan son dərəcə mürəkkəb və ağır bir dövr yaşayırdı. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımız işğal edilir, ölkə daxilində isə siyasi böhran, anarxiya və özbaşınalıq hökm sürürdü. Dövlət idarəetmə sistemi iflic vəziyyətinə düşmüş, vətəndaş qarşıdurması və ölkənin parçalanması təhlükəsi yaranmışdı. Azərbaycan müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı.

Məhz belə bir taleyüklü məqamda xalqımız öz ümidini böyük dövlət xadimi, dahi lider Heydər Əliyevə bağladı. Xalqın təkidli tələbi ilə 1993-cü il

iyunun 9-da Bakıya qayıdan Ümummilli Lider Heydər Əliyev ölkənin xilası missiyasını öz üzərinə götürdü. İyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilən Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı dövlətçilik tariximizin yeni mərhələsinin başlanğıcı oldu.

Ümummilli Lider Heydər Əliyev həmin gün Ali Sovetdə çıxış edərək Azərbaycanın dövlət müstəqilliyinin qorunmasını və möhkəmləndirilməsini qarşısında duran ən mühüm vəzifə kimi müəyyənləşdirdi. O, öz siyasi iradəsi, qətiyyəti və müdrikliyi ilə ölkədə sabitliyi təmin etdi, vətəndaş qarşıdurmasının qarşısını aldı, dövlət institutlarını möhkəmləndirdi və xalqın gələcəyə olan inamını bərpa etdi.

Ümummilli Lider Heydər Əliyev deyirdi: “Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır”. Bu sözlər, sadəcə, bəyanat deyildi. Sonrakı illərdə həyata keçirilən siyasət bunun əyani sübutuna çevrildi.

Məhz Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın hüquqi dövlət quruculuğu prosesi başladı. Müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi, iqtisadi islahatlar həyata keçirildi, “Əsrin müqaviləsi” imzalandı, ölkəmizin beynəlxalq mövqeləri möhkəmləndirildi. Azərbaycanın gələcək inkişafının siyasi, iqtisadi və hüquqi əsasları yaradıldı.

Bu gün əldə etdiyimiz bütün uğurların təməlində məhz milli qurtuluş dayanır. Dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, güclü iqtisadiyyatın qurulması, müasir ordunun formalaşdırılması və beynəlxalq nüfuzumuzun artması Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş inkişaf strategiyasının nəticəsidir.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursu bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoymuş, regionun ən güclü dövlətinə çevrilmişdir. 2020-ci ildə Vətən müharibəsində qazanılmış möhtəşəm Zəfər, ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin tam bərpası məhz Ümummilli Lider Heydər Əliyev ideyalarının və dövlətçilik məktəbinin təntənəsidir.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq işləri, Böyük Qayıdış proqramının uğurla həyata keçirilməsi, işğaldan azad edilmiş torpaqlarımızda həyatın yenidən canlandırılması Ümummilli Lider Heydər Əliyevin ideyalarının yaşadığını və Azərbaycanın hər gün daha da gücləndiyini nümayiş etdirir.

Milli Qurtuluş Günü xalqımızın birliyinin, həmrəyliyinin və dövlətçilik iradəsinin təcəssümüdür. Bu əlamətdar gün münasibəti ilə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edir, onun Azərbaycan dövləti və xalqı qarşısındakı misilsiz xidmətlərini minnətdarlıqla xatırlayırıq.

Milli Qurtuluş Günümüz mübarək olsun!

**Tənzilə Rüstəmxanlı.** Bu gün birinci oxunuşda müzakirəmizə təqdim olunan İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi birbaşa dövlətimizin gələcəyinə – uşaqlarımızın fiziki, psixi və mənəvi sağlamlığının qorunmasına xidmət edir.

Rəqəmsallaşmanın sürətlə qloballaşdığı, internetin hər bir evə, hər bir uşağın smartfonuna qədər daxil olduğu müasir dövrdə informasiya təhlükəsizliyi məsələsi artıq, sadəcə, texniki bir anlayış deyil, milli təhlükəsizlik və genofondun qorunması məsələsidir. İnternet məkanı

uşaqlarımız üçün böyük bilik mənbəyi olmaqla yanaşı, həm də nəzarətsiz qaldıqda ciddi psixoloji travmalara, zorakılıq meyillərinə və yad təsirlərə yol açan təhlükəli bir mühitə çevrilə bilir.

"Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanunda dəyişikliklərin qəbul edilməsi hüquqi baza yaratmaqda mühüm addımdır. Lakin texnologiyalar və manipulyasiya üsulları hər gün dəyişir. Bu gün təklif olunan dəyişikliklər qanunvericiliyin praktiki işləkliyini artırmaq, informasiya məkanında məsuliyyət mexanizmlərini daha da sərtləşdirmək məqsədi daşıyır. Xüsusi ilə İnzibati Xətalar Məcəlləsində təklif olunan dəyişikliklər qanunun tələblərini pozan, uşaqların psixikasına zərbə vuran kontentləri yayan şəxslərə və provayderlərə qarşı sanksiyaların labüdlüyünü təmin edəcəkdir. Hüquqi məsuliyyət və cərimələrin qaçılmaz olması rəqəmsal məkanda fəaliyyət göstərən hər bir subyektin öz üzərinə daha böyük məsuliyyət götürməsini məcbur edəcəkdir.

Biz yaxşı anlayırıq ki, bu gün zərərli informasiya uşaqlara, sadəcə, açıq internet saytlarından deyil, rəngli, cəlbedici və nəzarətsiz sosial şəbəkə platformalarından ("TikTok", "Instagram", "YouTube" və sair) daxil olur. Bu gün sosial şəbəkələr uşaqlarımız üçün, sadəcə, bir əyləncə məkanı deyil, onların davranış modelini, mənəvi dəyərlərini və psixologiyasını formalaşdıran virtual bir "tərbiyəçidir". Təəssüf ki, bu "tərbiyəçi" çox vaxt zəhərlidir.

Sosial şəbəkələrin uşaqlarımıza təsirini bir neçə ciddi təhlükə ilə xarakterizə edə bilərik:

– sosial şəbəkələrin alqoritmləri elə qurulub ki, uşaq bir dəfə maraq xatirinə neqativ və ya zorakı bir kontentə baxdıqda, sistem onun qarşısına davamlı olaraq eyni xarakterli videolar çıxarır. Uşaq fərqinə

varmadan aqressiyanın, intihar meyillərinin və ya əxlaqdan kənar davranışların təbliğ olunduğu virtual bir burulğana düşür;

– virtual populyarlıq qazanmaq, daha çox bəyənmə (like) toplamaq xatirinə azyaşlıların öz həyatlarını təhlükəyə atan müxtəlif çağırışlara (challenge) qoşulduğunu, cəmiyyətə qarşı hörmətsizlik nümayiş etdirdiyini görürük. Bu, uşaqların real dünya ilə əlaqəsini qanunsuz və təhlükəli müstəviyə çəkir;

– sosial şəbəkələrdə uşaqların bir-birini təhqir, şantaj etməsi və ya qruplaşaraq psixoloji təzyiq göstərməsi halları kəskin artıb. Bu isə azyaşlılar arasında erkən depressiyaya, qapalılığa və ən acınacaqlısı intihar hadisələrinə zəmin yaradır.

Bu qanun layihəsini dəstəkləməklə yanaşı, bir neçə mühüm məqamı diqqətə çatdırmaq istərdim:

1. İnternet provayderləri və yerli media resursları uşaqlar üçün zərərli ola biləcək (zorakılıq, qəddarlıq, narkomaniya və intiharı təşviq edən) kontentlərin bloklanması və filtrasiyası sistemlərini daha effektiv qurmalıdırlar. Qanunun icra mexanizmi bu nəzarəti tam təmin etməlidir.

2. Təkcə cəza və qadağalarla tam nəticə almaq çətindir. Dövlət qurumları və provayderlər tərəfindən ailələrdə “Valideyn nəzarəti” proqram təminatlarının tətbiqi geniş təşviq edilməlidir.

3. Təhsil müəssisələrində uşaqlara rəqəmsal gigiyena və kibertəhlükəsizlik qaydaları aşılanmalıdır ki, onlar internetdə hansı məlumatın zərərli olduğunu özləri də dərk edə bilsinlər.

Məhz bu səbəbdən, müzakirə etdiyimiz dəyişikliklər, sadəcə, quru hüquqi normalar deyil. Bu, sosial şəbəkələrin nəzarətsiz dalğaları qarşısında ailələrimizi və uşaqlarımızı qorumaq üçün dövlətin qurduğu bir sipərdir. Biz qanunvericilik səviyyəsində tələb etməliyik ki, qlobal

platformalar və yerli provayderlər Azərbaycanın rəqəmsal məkanında uşaqların təhlükəsizliyini təmin edən filtrləri və yaş məhdudiyyətlərini ciddi şəkildə tətbiq etsinlər. Bunu etməyən platformalar və məsul şəxslər isə qanun qarşısında ən ağır inzibati məsuliyyət daşımalıdırlar.

Uşaqlarımızı zərərli informasiyadan qorumaq həm dövlətin, həm cəmiyyətin, həm də hər bir valideynin ortaq vəzifəsidir. Təqdim olunan dəyişikliklər bu sahədəki hüquqi boşluqları aradan qaldırır və tənzimləmə mexanizmlərini dövrün tələblərinə uyğunlaşdırır.

Hesab edirəm ki, bu layihə uşaqlarımızın virtual aləmdəki təhlükəsizliyini təmin etmək üçün vaxtında atılmış çox mühüm bir addımdır. Həmkarlarımı bu qanun layihəsinə səs verməyə dəvət edir, layihəni hazırlayan işçi qrupuna təşəkkürümü bildirirəm.

**Vasif Qafarov.** Təqdim olunan qanun layihəsi rəqəmsal dövrdə uşaqların təhlükəsizliyinin təmin edilməsi istiqamətində çox mühüm və vaxtında irəli sürülmüş təşəbbüs kimi qiymətləndirilməlidir. Sosial şəbəkələrin və rəqəmsal platformaların uşaqların gündəlik həyatında artan rolu nəzərə alınarsa, onların zərərli məzmunlardan, kiberzorakılıqdan, şəxsi məlumatların istismarından və müxtəlif təhlükələrdən qorunması dövlətin prioritet vəzifələrindən biri kimi çıxış edir.

Layihənin mühüm cəhətlərindən biri rəqəmsal platformaların uşaqlar qarşısında məsuliyyətinin daha aydın müəyyənləşdirilməsi və bu sahədə konkret öhdəliklərin təsbit edilməsidir. Yaş məhdudiyyətinin tətbiqi, təhlükəsiz istifadə rejiminin yaradılması, zərərli məzmunun operativ şəkildə məhdudlaşdırılması və sosial şəbəkələrin fəaliyyətinə nəzarət mexanizmlərinin gücləndirilməsi uşaqların hüquqlarının müdafiəsi baxımından çox əhəmiyyətli addımlardır.

Xüsusi ilə 16 yaşına çatmamış uşaqların fərdi rəqəmsal hesab yaratmasının məhdudlaşdırılması, 16-18 yaş qrupu üçün valideyn nəzarəti alətlərinin nəzərdə tutulması və zərərli məzmun aşkarlanarkən platformaların sürətli müdaxilə öhdəliyinin müəyyən edilməsi uşaqlar üçün rəqəmsal təhlükəsizlik mühitinin formalaşmasına xidmət edir.

Bununla yanaşı, hesab edirəm ki, layihənin tətbiqi zamanı yarana biləcək bəzi məsələlərin də diqqətdə saxlanılması vacibdir. İlk növbədə, məqsəd uşaqları sosial şəbəkələrdən və ümumilikdə, müasir texnologiyalardan uzaqlaşdırmaq deyil, onların rəqəmsal dünyanın imkanlarından təhlükəsiz, faydalı və məsuliyyətli şəkildə istifadə etmələrini təmin etmək olmalıdır. Müasir dünyada rəqəmsal texnologiyalar təhsilin, ünsiyyətin, yaradıcılığın, innovasiyanın və gələcək peşə bacarıqlarının formalaşmasının ayrılmaz hissəsinə çevrilib. Uşaqları texnoloji yeniliklərdən kənarda saxlamaq onların rəqəmsal bacarıqlarının inkişafına və gələcək əmək bazarında rəqabət qabiliyyətinə mənfi təsir göstərə bilər. Buna görə də əsas məqsəd qadağalar tətbiq etmək deyil, təhlükəsiz və məsuliyyətli istifadə mühiti yaratmaq olmalıdır.

Bu baxımdan yaşın müəyyənləşdirilməsi mexanizmlərinin daha da təkmilləşdirilməsi məqsədəuyğun görünür. Çünki yalnız istifadəçinin təqdim etdiyi məlumatlara əsaslanan yoxlama sistemləri bəzi hallarda effektiv nəticə verməyə bilər. Hesab edirəm ki, yaş təsdiqinin dövlətin mövcud rəqəmsal identifikasiya sistemləri ilə inteqrasiyası, eyni zamanda, şəxsi məlumatların qorunması prinsiplərinə ciddi əməl olunması həm təhlükəsizlik, həm də vətəndaş hüquqlarının müdafiəsi baxımından daha səmərəli həll yolu ola bilər.

Layihədə diqqət yetirilməli olan digər mühüm istiqamət maarifləndirmə komponentidir. Beynəlxalq təcrübə göstərir ki, uşaqların rəqəmsal

təhlükəsizliyinin təmin edilməsində təkcə inzibati tədbirlər və məhdudiyyətlər kifayət etmir. Məktəblərdə rəqəmsal savadlılıq, media savadlılığı, kibertəhlükəsizlik və sosial şəbəkələrdən düzgün istifadə vərdişlərinin formalaşdırılması ilə bağlı tədris proqramlarının genişləndirilməsi, hesab edirəm ki, daha davamlı nəticələr verə bilər. Eyni zamanda, valideynlərin rəqəmsal mühitdə mövcud risklər barədə məlumatlandırılması və onların nəzarət imkanlarının artırılması da vacibdir.

Ümumilikdə, təqdim olunan qanun layihəsini uşaqların rəqəmsal mühitdə müdafiəsinin gücləndirilməsi istiqamətində çox mühüm addım hesab edirəm və müsbət qiymətləndirirəm.

Lakin onun daha effektiv nəticə verməsi üçün texniki həllərlə yanaşı, rəqəmsal savadlılığın artırılmasını, valideyn nəzarətinin gücləndirilməsini, platformaların sosial məsuliyyətinin artırılmasını və uşaqların texnologiyalardan təhlükəsiz şəkildə faydalanmasına imkan yaradan mexanizmlərin formalaşdırılmasını da vacib hesab edirəm.

**Vüqar Rəhimzadə.** Hər bir tarixi gün, əlamətdar hadisə ölkənin taleyində özünəməxsus rolu ilə diqqətdə olur. Bu baxımdan müstəqillik tariximizə qızıl hərflərlə yazılan 15 İyun – Milli Qurtuluş Gününün çağdaş tariximizdə xüsusi yeri var. Bu tarixi gün müasir müstəqil Azərbaycan Respublikasının tarixində dövlətin, xalqın xilası, qurtuluşu, yeni dövrün başlanması kimi səciyyələndirilir. Azərbaycan 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdi. Müstəqilliyimizin bərpasının ilk illərində yaşananlar tariximizin faciəli səhifəsi kimi daim vərəqlənir və bu fonda Azərbaycanın bugünkü reallıqlarına, uğurlarına görə kimə borclu olduğumuz təhlillər əsasında indiki və gələcək nəsillərə çatdırılır. Böyük əminliklə və qürur hissi ilə qeyd edirik ki, müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəridir. Ümummilli Lider Heydər

Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı, bu gün ölkəmizin taleyinin necə olacağını təsəvvür etmək çətin deyildi. Ulu Öndər qayıdışı ilə Azərbaycanı vətəndaş müharibəsindən, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi.

Müstəqilliyimizin bərpasının ilk illərində yaşananlara qısa nəzər salanda keçilən yolun necə çətin, keşməkeşli olduğu göz önündə canlanır. Bəli, müstəqilliyimizin bərpasından bir il ötməmiş hakimiyyəti zor gücünə ələ keçirən AXC–Müsavat cütlüyünün birillik hakimiyyəti ölkədə anarxiya, xaos, özbaşınalığın tüğyan etməsi, iqtisadiyyatın çökməsi, əhalinin sosial durumunun son dərəcə ağırlaşması, torpaqların işğalı ilə nəticələndi. O dövrün iqtidarının səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması, ölkədə fəaliyyət göstərən silahlı dəstələrin törətdikləri əməllər, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq və parçalanma meyillərinin baş qaldırması, bütün bunların ölkənin daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaratması Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu.

1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə Bakıya qayıtdı və doğma vətəninin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtardı, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını aldı, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etdi. Xilaskarlıq missiyasını öz üzərinə götürən Ulu Öndər Bakıda hakimiyyət davasının getdiyi bir vaxtda həyatını təhlükə altında qoyaraq dərhal Gəncəyə yollandı və orada baş qaldırmış qiyamın qarşısını aldı. 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi.

Müstəqillik tariximiz Ulu Öndər Heydər Əliyevin adı və titanik fəaliyyəti ilə bağlıdır. Ümummilli Lider Azərbaycanın çətin günlərində xalqın təkidli tələbi əsasında  hakimiyyətə qayıdışı ilə ölkəmizi yenidən qurdu. Ulu Öndərin zəngin idarəçilik təcrübəsi, düşünülmüş və məqsədyönlü siyasəti Azərbaycanı bu bəlalardan xilas edərək inkişaf, tərəqqi yoluna çıxardı. Dövlətçiliyimizin əsasları yaradıldı. Azərbaycanın inkişafını təmin edən milli Konstitusiyamız qəbul edildi. Demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunda inamlı addımlar atıldı. Ümummilli Lider zəngin idarəçilik təcrübəsinə söykənərək Azərbaycanın dövlət müstəqilliyini daimi və sarsılmaz etdi.  Qurtuluş Azərbaycanı sözü imzası qədər əhəmiyyətli olan ölkəyə çevirdi.

Son 22 ildən artıq dövrdə Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanı zəfərlərə aparır. 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizdən üç il sonra, 2023-cü ildə Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Ölkəmizin həyatında yeni dövr başladı. Bu uğurlarımız,  zəfərlərimiz öz başlanğıcını məhz Milli Qurtuluş Günündən götürür.

Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Bu gün hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, artıq Ulu Öndər Heydər Əliyevin arzuları reallığa çevrilib. Ulu Öndər  Heydər Əliyevin ideyaları ölkəmizi zirvədən-zirvəyə, qələbədən-qələbəyə aparır. Ümummilli Liderin şah əsəri olan müasir müstəqil, qalib Azərbaycan Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində bundan sonra da daha yüksək zirvələr fəth edəcək.